www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 aprel 2015-ci il Çərşənbə axşamı № 78 (6106) Qiyməti 40 qəpik

**Xəbər**

## Tovuzda məktəbli qətl törətdi

yazısı səh.14-də

**Gündəm**

### 24 aprellə bağlı kritik 10 gün



Putinin ardınca Obama da ermənilər məyus elədi; 24 apreldə İrəvana ABŞ-dan simvolik nümayəndə heyəti gələcək; saxta genosidlə bağlı Konqresdən yeni qətnamə keçirmək cəhdi fiasko oldu; Ankara diplomatik həmlələri davam etdirir...

yazısı səh.9-da

### Rəsulzadənin büstünün sökülməsinin təfərrüatları

yazısı səh.3-də

### Müsavat 19 aprel aksiyasına ciddi hazırlaşır

yazısı səh.5-də

### Televiziyalara "ağlatmayın, güldürün" komandası

yazısı səh.3-də

### İŞİD-çilərin məhkəməsində gərgin anlar

yazısı səh.4-də

### General Zakir Həsənov Qarabağdakı Livan və Suriya muzdlularını hədələdi

yazısı səh.11-də

### Qərib Məmmədov və Etibar Pirverdiyevin başı dərddə

yazısı səh.8-də

*Zahid Oruc:*

### "Papanın sözləri ermənilərin ziyanınadır"

yazısı səh.13-də

### Dollarla verilən kreditlərin taleyi məhkəmədə çözüləcək

yazısı səh.6-da

### Zərərçəkənlər "A.M.A.Y. Abdulla"nın üzünə dayanmaqdan imtina edir

yazısı səh.12-də

### Nazirin obyektindəki kütləvi zəhərlənmənin pərdəarxası

yazısı səh.4-də

### AMİP seçkidə təkbaşına iştirak qərarı verdi

yazısı səh.5-də

## Sabiq bankir dövlət rəhbərliyindən nə xahiş edib

# CAHANGİR HACIYEV LONDONA KÖÇÜR - ÖZƏL XƏBƏR

Beynəlxalq Bankın İdarə Heyətinin sədrinin "səhhəti" ilə bağlı istefasının əsl səbəbi üzə çıxır; onu yoxlayırlar; oliqarx biznes şəbəkəsinin bir çoxu ilə vidalaşmalı olacaq




yazısı səh.6-da

## Artur Rasi-zadənin niyə vəzifədən getmədiyinin şok səbəbi

Baş nazir onun yerinə birinci müavini Yaqub Eyyubovun təyin ediləcəyinə qarşı müqavimət göstərir; baş nazirin yaşı ilə bağlı sənədlər saxtalaşdırılıbmı?

yazısı səh.5-də



*Pənah Hüseyn:*

### "KQB arxivlərində adbaad olmasa da, nəyin olub-olmaması mənə bəllidir"

yazısı səh.10-da



### Xoşqədəm Hidayətqızının verilişi nə üçün bağlandı?

yazısı səh.13-də



*Hacı İlqar İbrahimoğlu:*

### "Vatikanın xristianlığın mahiyyətinə heç bir mənəvi aidiyyəti yoxdur"

yazısı səh.2-də

**14 aprel 2015**

## Prezident Astaraya 5,5 milyon manat ayırdı



**Azərbaycan Prezidenti İlham Əliyev Astara rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncamda deyilir:**

1. Astara şəhərində 860 yerlik 2 saylı tam orta məktəb binasının əsaslı təmiri və on iki min nəfər əhalinin yaşadığı 38 yaşayış məntəqəsini birləşdirən Taxtanəkəran-Miki, Taxtanəkəran-Toradi kəndlərarası avtomobil yollarının yenidən qurulması məqsədi ilə Astara Rayon İcra Hakimiyyətinə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5,5 milyon (beş milyon beş yüz min) manat, o cümlədən 2 saylı tam orta məktəb binasının əsaslı təmiri üçün 2,5 milyon (iki milyon beş yüz min), kəndlərarası avtomobil yollarının yenidən qurulması üçün ilkin olaraq 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

## Vergilər Nazirliyi "Nurgün Motors"un əmlakını siyahıya aldı

**""Nurgün Motors" şirkətinin əmlakı Vergilər Nazirliyinin əməkdaşları tərəfindən siyahıya alınıb. Çünki şirkət vergi borclarını ödəyə bilmir".**

Bunu virtualaz.org saytına Vergilər Nazirliyinin mətbuat xidmətindən "Nurgün Motors" şirkətinin fəaliyyətinin dayandırılması barədə KİV-də yayılan informasiyaları şərh edərkən bildiriblər.

Nazirliyin mətbuat xidmətinin rəhbəri Mehdi Mirsalamovun sözlərinə görə, əmlakın siyahıya alınması şirkətin fəaliyyətinə heç bir təsir göstərməyəcək: "Çünki söhbət şirkətin əmlakının onun borclarını ödəməyə kifayət edəcək dəyərdəki hissəsinə həbs qoyulmasından gedir".

Qeyd edək ki, Vergilər Nazirliyi "Nurgün Group"un Babək prospektində yerləşən satış mərkəzlərini bağlayıb. Şirkətə məxsus "İnfiniti", "Renault", "Nissan" və "Ford" markalı avtomobillərin satıldığı salonlar 3 gündür ki, möhürlənib. Səbəb kimi "Nurgün Motors"un vergini vaxtında ödəməməsi göstərilir.

**"Nurgün Motors"un marketinq şöbəsindən bununla bağlı aznews.az saytına bildiriblər ki, satış mərkəzlərində təmir işləri aparıldığı üçün fəaliyyətini müvəqqətini dayandırıb:** "Şirkətə məxsus avtosalonlarda profilaktik işlər görülür və bəzi təmir işləri aparılır. İşlər bitmək üzrədir. Salonların fəaliyyəti bu gün axşam saatlarından etibarən bərpa olunacaq".

Lakin "Nurgün Motors"a aid olan böyük avtomobil salonlarının niyə hamısında eyni vaxtda təmir işlərinin aparılması sualına cavab verilməyib. Onu da bildirək ki, informasiyanı dəqiqləşdirmək üçün adıçəkilən salonlara yollanan sayt əməkdaşı orada hər hansı təmir-bərpa işlərinin aparıldığını müşahidə etməyib. Sadəcə,salonların qapıları bağlı olub və nəinki işçilər, heç müharizçilər də gözə dəyməyib.

Qeyd edək ki, "Nurgün" Şirkətlər Qrupu 1994-cü il, oktyabrın 4-də təsis edilib. "Nurgun Group" şirkəti "Nissan", "Ford", "Renault" və "İnfiniti" markalı avtomobillərin satışını və servis xidmətlərini təşkil edir. Onu da bildirək ki, mətbuatda "Nurgün Motors"un müştəriləri aldatması, bundan əlavə, keyfiyyətsiz avtomobillərin satışı ilə məşğul olması haqda tez-tez informasiyalar yayılır.

## Alim Qasımovun oğlu qəzaya düşdü

**Xalq artisti Alim Qasımovun oğlu avtomobil qəzasına uğrayıb. "Qafqazinfo" Kanal S-ə (Region TV) istinadən məlumat verir ki, hadisə Bakı-Şamaxı-Yevlax magistral yolunun 119-cu km-liyində baş verib. Qəza zamanı yolun ortasında manevr edərək əks yola keçmək istəyən "İsuzu" markal avtobus arxadan gələn "Mercedes" markalı minik avtomobili ilə toqquşub.**

Avtomobilinin sürücüsü A.Qasımovun oğlu Qadir Qasımov yüngül xəsarət alıb. Avtobusun sürücüsü Vidadi İsgəndərov və sərnişini isə Şamaxı Mərkəzi Rayon Xəstəxanasına çatdırılıb. Onların vəziyyəti normaldır.

Faktla əlaqədar Baş Dövlət Yol Polis İdarəsində araşdırma aparılır. Hadisənin dəqiq səbəbləri aparılacaq avtoekspertizanın rəyindən sonra müəyyənləşəcək.


### "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# "Vatikanın xristianlığın mahiyyətinə heç bir mənəvi aidiyyəti yoxdur"

## Hacı İlqar İbrahimoğlu: "Roma papası antimüsəlman koalisiyasının aparıcı rollarından birini oynamaqda davam edir"





**Roma papası I Fransiskin uydurma "erməni soyqırımı"nın XX əsrin ilk soyqırımı olduğunu bəyan etməsi ciddi etirazlarla qarşılanıb.**

Dini Etiqad və Vicdan Azadlıqlarının Müdafiə Mərkəzinin (DEVAMM) sədri, Hacı İlqar İbrahimoğlu da papanın çıxışına etirazını bildirib.

Hacı İlqar İbrahimoğlu musavat.com-a deyib ki, papanın fikirləri kökündən yanlışdır: "Roma papasının axırıncı, "soyqırım"la bağlı və ümumən Qarabağla bağlı açıqlaması bir daha onu göstərir ki, Vatikan həmişə olduğu kimi, böyük güclərin, xüsusilə də ümumilikdə bir antimüsəlman koalisiyasının aparıcı rollarından birini oynamaqda davam edir".

**Hacı İlqar İbrahimoğlunun sözlərinə görə, papanın apardığı müqayisələr doğru deyil:** "İstər stalinizmlə bağlı, istərsə də İkinci Dünya müharibəsi ilə bağlı müqayisələri bir daha onu göstərir ki, əslində Vatikanın hazırda xristianlığın mahiyyətinə heç bir mənəvi aidiyyəti yoxdur".

**Hacı İlqar İbrahimoğlu hesab edir ki, Roma papasının fikirlərinə etiraz bildirmək vacibdir:** "Hesab edirəm ki, yaranmış situasiya öz-özlüyündə bir fürsətdir. Və xüsusən də gənclər, universitet tələbələri hazırda böyük imkanlara malikdirlər. Virtual aləmin də imkanlarını nəzərə alsaq, Roma papasının münasibətinə qarşı çox maraqlı və geniş bir reaksiya göstərmək üçün önəmli bir fürsətdir. Bunu etmək çox faydalı olardı".

Qeyd edək ki, Roma papası I Fransisk ermənilərin I Dünya müharibəsi zamanı Osmanlı əsgərləri ilə silahlı toqquşmalarda itki vermələrini "soyqırım" adlandırıb. Roma papasının bu fikri faciənin 100 illiyi münasibətilə keçirilən tədbirdə səslənib. Roma papası qeyd edib ki, "Ötən əsrdə insanlığa qarşı üç böyük və misilsiz faciə törədilib. "XX əsrin ilk soyqırımı" hesab olunan birincisi erməni xalqına vurulan zərbədir".

Roma papası Vatikanda etdiyi çıxışında 100 il bundan əvvəl, Osmanlı hakimiyyəti dövründə, I Dünya müharibəsi illərində baş vermiş hadisələrdən danışarkən "soyqırım" sözündən istifadə edib. Papa həmçinin Ermənistanla Azərbaycanı Dağlıq Qarabağ münaqişəsində barışmaya səsləyib.

O, digər "heç yerdə görünməmiş faciələr" haqqında da danışıb və baş verənlərə görə günahı "nasizm və stalinizm"in üzərinə atıb.

❑ RÖYA

## 33 tibb işçisi barədə məsuliyyət tədbirləri görülüb

**2015-ci ilin ilk 3 ayı ərzində Səhiyyə Nazirliyinə vətəndaşlar tərəfindən daxil olan 439 şikayət Hüquq və daxili nəzarət sektoru tərəfindən araşdırılıb. Səhiyyə Nazirliyindən APA-ya verilən xəbərə görə, araşdırma zamanı pozuntu halları aşkarlanaraq 33 nəfər tibb işçisi barədə məsuliyyət tədbirləri görülüb. 1 məlumat üzrə cinayət xarakterli pozuntu faktı aşkarlandığından toplanmış materiallar Baş Prokurorluğa göndərilib. 42 müraciət təkrar olub.**


### Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**


## ATƏT və Azərbaycan kibertəhlükəsizliyi müzakirə edir

**ATƏT-in Bakı Layihə Əlaqələndiricisi və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi məlumat erasında milli təhlükəsizliyin təmin olunmasına dair iki günlük konfrans təşkil edib. Konfrans Azərbaycanın 30-dan çox dövlət və özəl təşkilatlarının 90-a yaxın nümayəndəsi, eləcə də kibertəhlükəsizlik üzrə ixtisaslaşmış beynəlxalq ekspertləri bir araya gətirib.**



Konfransın məqsədi kibertəhlükəsizliklə bağlı qanunvericiliyə, fəaliyyət strategiyasına, beynəlxalq əməkdaşlığa və kiberməkanda təhlükəsizliyin təminatı üçün ümumi potensialın inkişaf etdirilməsinə xüsusi diqqət ayırmaqla, kibertəhlükəsizlik sahəsində mövcud yeniliklər barədə dövlət qurumlarını, eləcə də özəl və qeyri-kommersiya təşkilatlarını maarifləndirməkdən ibarətdir.

**ATƏT-in Bakı Layihə Əlaqələndiricisi, səfir Aleksis Şahtaxtinski:** "Azərbaycanda infrastrukturun müasirləşdirilməsi və informasiya texnologiyalarının dövlət və özəl sektora nüfuz etməsi ilə müşayiət olunan sürətli iqtisadi inkişaf, ölkədə kibercinayətkarlığın qarşısının alınması və ona qarşı mübarizə imkanlarının genişləndirilməsinin zəruriliyini artırır. Mümkün təhlükələrin qarşısını almaq üçün səy göstərərkən, biz həddindən artıq sərt tədbirlər görməməli və kibermәkanın fəaliyyətinin ümumilikdə cəmiyyətə verdiyi faydanı qurban verməməliyik».

Konfrans zamanı tanınmış ekspertlər və təcrübəli mütəxəssislər kibertəhlükəsizlik üzrə ən uğurlu beynəlxalq təcrübələri azərbaycanlı həmkarları ilə bölüşüb. Panel müzakirələri prokurorlar, hakimlər və hüquq-mühafizə orqanları əməkdaşları üçün texniki və əməli biliklərini artırmaq imkanı yaradıb. Tədbir, həmçinin Azərbaycanda kibertəhlükəsizlik imkanlarının gücləndirilməsi məqsədilə məmurların özəl sektorla tərəfdaşlığının inkişaf etdirilməsinə zəmin yaradıb.

Bu tədbir Azərbaycanda kibercinayətkarlığın qarşısının alınması və onunla mübarizə üzrə ATƏT-in Bakı Layihə Əlaqələndiricisinin həyata keçirdiyi layihənin bir hisssəsidir. Layihə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Ədliyyə Nazirliyi, eləcə də Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə həyata keçirilir.



## Rövnəq Abdullayev İraqdadır

**Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövnəq Abdullayevin rəhbərlik etdiyi nümayəndə heyəti İraqın paytaxtı Bağdad şəhərində səfərdə olub.**

Virtualaz.org SOCAR-ın saytına istinadən bildirir ki, səfər çərçivəsində R.Abdullayevlə İraqın neft naziri Adil əbd əl-Məhdi arasında görüş keçirilib. İraqın dövlət neft strukturları rəhbərlərinin də iştirak etdiyi görüşdə İraq-Azərbaycan münasibətlərindən söz açılıb, iki ölkənin neft-qaz sahəsində əməkdaşlığının tarixi kökləri haqqında danışılıb. Vaxtilə İraq üçün neft-qaz mütəxəssislərinin Azərbaycanda hazırlanması qeyd olunub. R. Abdullayev Azərbaycanın qədim neft diyarı olduğunu, neftçilərimizin dünya sənayesi tarixinə mühüm töhfələr verdiyini söyləyib. O, regional və qlobal əhəmiyyətli layihələr üzrə qazanılmış nailiyyətlər, bu uğurlarda SOCAR-ın rolu, şirkətin fəaliyyət istiqamətləri, ölkə daxilində və xaricdəki aktivləri haqqında ətraflı məlumat verib.

A. əl-Məhdi öz ölkəsinin neft sənayesində qazandığı uğurlardan danışıb, dünya bazarında neftin qiyməti ilə bağlı tendensiyalar, İraqın OPEK-dəki fəaliyyəti haqqında məlumat verib.

Görüşdə neft və qaz sahəsində Azərbaycanla İraq arasında mümkün əməkdaşlıq perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər müzakirə olunub. R. Abdullayev İraqın neft nazirini Azərbaycana səfərə dəvət edib.

## Azərbaycanlı fəalların ittihamları elan edildi

**İranda Dünya Ana Dili Günü tədbirləri ilə əlaqədar həbs edilən üç azərbaycanlı fəala qarşı ittiham elan edilib. Musavat.com xəbər verir ki, Əmin Hacılı, Araz Xasse Təraş və İslam Əli Əkbərli aprelin 13-də Xoy şəhərinin İnqilab Məhkəməsinə çağırılıblar. Məlumata görə, adıçəkilən azərbaycanlılar həyata keçirmək istədikləri tədbirlərin heç bir siyasi xarakter daşımadığını diqqətə çatdırmaq istəyiblər. Lakin hakim onların bu vəsatətini qəbul etməyib və onları icazəsiz mərasim keçirməkdə və hökumət əleyhinə təbliğatda günahlandırıb.**

Gələcək günlərdə fəalların məhkəmə prosesinin davam etdiriləcəyi bildirilir. Xatırladaq ki, Tehranda Dünya Ana Dili Günü tədbirini keçirmək üçün icazə almaq istəyən azərbaycanlı Əlirza Fərşi təhlükəsizlik qüvvələri tərəfindən həbs edilib. Onun vəziyyəti barədə heç bir məlumat yoxdur.

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 78 (6106) 14 aprel 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Rəsulzadənin büstünün sökülməsinin təfərrüatları

## Bu hərəkət ciddi qınaq obyektinə tuş gəldi; metropoliten məsələyə aydınlıq gətirdi...

**Cümhuriyyətimizin banisi Məhəmməd Əmin Rəsulzadənin "Bakmil" metro stansiyasının yanında, depo ərazisində yerləşən büstü sökülüb. 1992-93-cü illərdə eks-prezident Əbülfəz Elçibəy tərəfindən qoyulmuş büstün metropolitenin rəisi Zaur Hüseynovun göstərişi ilə dağıdıldığı bildirilir.**

Baş vermiş hadisə sosial şəbəkələrdə ciddi qınaq obyektinə çevrilib. Bu barədə deputat **Fazil Mustafa** status paylaşıb: "Məhəmməd Əmin Rəsulzadənin "Bakmil" metro stansiyasının yanındakı büstü bugünlərdə metropolitenin rəisi Zaur Hüseynovun göstərişi ilə dağıdılıb və qalıqları yük maşınına yığılaraq aparılıb. Rəsulzadə bu millət üçün Allahın bəxş etdiyi bir dəyərdir və ayrı-ayrı naqis davranışlarla onu aşağılamaq mümkün deyil. Metropolitenin rəisi bu hərəkəti ilə həm də ölkə prezidentinə meydan oxuyub. Prezident İlham Əliyev ötən il Rəsulzadənin anadan olmasının 130 illiyinin qeyd olunması barədə təqdirolunası bir sərəncam imzalamışdı. Belə olan halda Zaur Hüseynovun hərəkəti prezidentin sərəncamına qarşı hörmətsizlik deyil, bəs nədir? Bu səviyyəsiz hərəkət haqlı olaraq, cəmiyyətimizin sağlam düşüncəli insanlarında etiraz doğurur və biz də bu etirazlara qoşuluruq".



**Müsavat başqanının müavini Elman Fəttah isə bu hərəkəti vandalizm adlandırdı:** "Rəsulzadənin büstünün sökülməsi ilə bağlı bəzi əsaslar gətirməyə çalışırlar. Bu, vandalizm hərəkətinə haqq qazandırmaqdan başqa bir şey deyil. Metropolitenin rəhbərliyi bu hərəkətlə cinayətlə yol verdiyini düşünürəm. Belə hərəkətlər cinayət məsuliyyəti yaratmalıdır. Bu barədə araşdırmalarımız davam edir. Müsavatın bəyanatında bunlar öz əksini tapacaq. Bütün yerinə qaytarılmayacağı ilə bağlı fikirlər onu göstərir ki, bu, mərkəzi hakimiyyətin göstərişi ilə həyata keçirilib. Belə hərəkətləri dayandırmağı tələb edirik. Hakimiyyət anlamalıdır ki, Rəsulzadənin qurduğu dövlətdə, ucaldığı bayrağın altında belə hərəkətlər başucalığı gətirməyəcək. Rəsulzadə Azərbaycan xalqının qəlbindədir. O, heç bir siyasi şəxsiyyətlə müqayisə olunmayacaq dərəcədə böyük şəxsiyyətdir".

**Dünən "Bakı Metropoliteni" QSC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Nəsimi Paşayev "Yeni Müsavat"a açıqlamasında baş vermiş məsələyə aydınlıq gətirdi:** "Büst neçə il əvvəldən qoyulmuşdu. Yararsız vəziyyətə gəlib çatmışdı. Depo ərazisində yerləşirdi. Keçən ildən başlayaraq, bu ərazidə yenidənqurma işləri aparırıq. Yeni parklar salınır, binalar tikilir. Bir çox işlər görülür. Büst olan ərazidə də quruculuq işlərinə başlamışıq. Büstün orada saxlanılması Rəsulzadəyə hörmətsizlik olardı. Acınacaqlı vəziyyətdə qalmışdı. Çox çalışdıq, amma bərpa edə bilmədik. Sosial şəbəkələrdə paylaşılan kimi, büst dağıdılmayıb. Sadəcə, yararsız vəziyyətdə olduğu üçün götürülüb. Həmin büstü təkrar qoymaq mümkün deyil".

**Metropolitenin rəsmisi sökülən büstün yerində mərhum prezident Heydər Əliyevin abidəsinin ucaldılacağı ilə bağlı yayılan xəbərləri təkzib elədi:** "Metropolitenin ərazisində bir il bundan qabaq ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Əmin edirəm ki, Rəsulzadənin büstü olan ərazi ilə arada 2 kilometrə qədər məsafə var. Sosial şəbəkələrdə yayılan xəbərlər doğru deyil".

❑ **Cavanşir ABBASLI**

# Televiziyalara "ağlatmayın, güldürün" komandası

## Yerli kanallara "yuxarı"dan göstəriş gəlib - insanları gərginlikdə saxlayan, ağladan, ümidsizləşdirən proqramlar efirdən yığışdırılır

**Bir neçə gün öncə Azərbaycanda yayımlanan telekanallara efirdəki "ağlaşma" verilişlərini yığışdırmaq haqqında göstəriş verilib. "Yeni Müsavat"ın əldə etdiyi informasiyaya görə, ötən həftə sonu telekanal rəhbərlikləri ilə tək-tək danışıqlar aparılıb, əyləncəli proqramların sayının artırılması, bir sıra verilişlərin isə efirdən çıxarılması tapşırılıb. Özəl telekanalların rəhbərliklərinə bildirilib ki, reytinq gətirən verilişlərə belə güzəşt edilməməlidir.**




Bu tələbə etiraz və ya hər hansı güzəşt limitinin olmaması özəl telekanalları çətin duruma salıb. Məsələ burasındadır ki, bağlanması tələb olunan verilişlərin çoxunun reytinqi yüksəkdir. Yüksək reytinq isə ciddi reklam gəlirləri deməkdir. Telekanalların rəhbərliyi bu proqramların çox aşağı səviyyədə olduğunu yaxşı bilir. Ancaq kütləvilik təmin edildiyi üçün axan reklam gəlirləri peşəkarların verilişlərin formatında, xüsusən məzmununda hər hansı dəyişiklik edilməsi təkliflərini arxa plana keçirib.

Televiziya "mətbəxindən" əldə etdiyimiz informasiyalara görə, Xoşqədəm Hidayətqızının ATV-dəki layihəsi ilə bağlı yaranmış vəziyyət həm də bu tapşırıqla bağlı ola bilər.

Ölkə rəhbərliyinin efir siyasətini dəyişmək istəyi həm rəsmi, həm də iqtidaryönlü medianın səhifələrində aşkar görünür. Az qala hər gün qəzetlərdə Azərbaycan efirindən narazılıq dolu məqalələr dərc edilir. Dəyişiklik tələb edənlər mövqelərini ciddi arqumentlərlə əsaslandırsalar da məhz nəyi və necə dəyişmək haqqında təkliflər azdır. Səbəb rəhbərliyin efir məsələsinə xüsusi həssasiyyətidir. Azərbaycan efiri uzun illərdir əsas funksiyasını yerinə yetirmir. Medianın əsas məqsədi və vəzifəsi xəbər çatdırmaq olsa da Azərbaycanın istisnasız olaraq bütün telekanalları 20 ildən artıqdır xəbər verməklə deyil, təbliğat aparmaqla məşğuldur. Ancaq seyrçi 20 il öncəkindən fərqli olaraq daha təbliğatı dinləmir, ona zaman ayırmağı vaxt itkisi sayır. Bu gün telekanalların ən aşağı reytinqli verilişləri məhz ölkənin, dünyanın ictimai-siyasi gündəmi ilə bağlı proqramlardır. Səbəb heç də vətəndaşların dünya, ölkə gündəminin əsas məsələlərinə tam biganə olmasında deyil. Problem odur ki, bu proqramların heç birində alternativ və azad fikir yoxdur. Dəvət olunan ekspertlər dünyanın istənilən ölkəsində baş verən prosesləri Azərbaycandakı siyasi hakimiyyətin baxış bucağından şərh edir. Fərqli düşüncənin olmaması isə seyrçini efirdən uzaqlaşdırır.

Bir dönəm telekanallarda mədəniyyət proqramlarını qabartmaq siyasəti yürüdüldü. AzTV, İTV, daha sonra isə "Mədəniyyət" kanalında bir neçə veriliş açıldı, bir müddət reytinq uğrunda mübarizə getdi. Amma nəticə gözlənilən kimi olmadı. 6-7 il öncə çox böyük maraqla izlənən muğam müsabiqələri belə günümüzdə seyrçisiz qalıb. Telekanalların mədəniyyət proqramı adı ilə təqdim etdiyi bir sıra verilişlər isə estetikasına görə "palatka toyları"ndan da geri qalır.

Telekanalların aldığı "ağlatmayın, güldürün" mesajı həm də son zamanlar gərginləşməkdə olan sosial durumla bağlıdır. Manatın devalvasiyasından sonra cəmiyyətin ümumi ovqatının sürətlə pozulması ölkə rəhbərliyini də narahat edir. İqtisadi imkanlar hələlik vətəndaşların üzünü güldürmək iqtidarında olmadığı üçün çarə efirdən təqdim edilən gülüşə qalıb. Bu resептin xəstə cəmiyyətə yarayacağı isə böyük sual altındadır.

❑ **Aygün MURADXANLI**

# Təəssüb çəkənlərin ədaləti



**Xalid KAZIMLI**

**Biz uzun illər bu termini Qarabağ münaqişəsinə yaxın qoymadıq. Əslində qoymaq istəmirdik, deyirdik, ziyanı olar. Bəzi siyasətçilər, vətənpərvərlər ara-sıra, hansısa əcnəbi siyasi xadimin haqsız bəyanat və hərəkətindən sonra "xristian təəssübkeşliyi"ndən danışsa da, onların ağzından vuran siyasətçilər, politoloqlar, QHT rəhbərləri tapılırdı. Sonuncuların səsi bərk çıxırdı, arqumentləri güclü görünürdü.**

Ölkəmizin ərazisinin 20 faizinin işğal olunmasına, Xocalı soyqırımına Avropa dövlətlərinin, xristianlığa tapınan ölkələrin, toplumların biganə münasibətinə dinməz-söyləməz tamaşa edir, bu cür münasibəti "Azərbaycan həqiqətləri"ni dünyaya çıxara bilməməyimizlə, böyük dövlətlərin arasından geosiyasi münasibətlərlə, çağdaş siyasi konyuktura ilə izah edirdik.

Düşüncəmiz beləydi: "Yox, burada xristian təəssübkeşliyi amili yoxdur, nəsə başqa şeydir, biz dərdimizi dünyaya anlada bilmirik".

Amma fakt ortadaydı. Dünyanın cikini-bikini bilən, maraq dairələrində olan ölkənin tarixinə, hər cür potensialına, inzibati-coğrafi-administrativ özəlliklərinə bələd olan qüdrətli dairələrin Qarabağ münaqişəsi xüsusunda kimin aqressor, kimin hərbi təcavüz qurbanı olduğunu bilməməsi absurd söhbət idi.

Hamı hər şeyi incəliyinə qədər bilirdi və bilir. İlk daşı kimin atdığını da, ilk qurbanları kimin verdiyini də, hərbi cinayətləri kimlərin törətdiyini də əladan əla bilirlər. Bilirlər, amma susurlar. Ən yaxşı halda aqressorla işğala məruz qalan tərəfin arasına bərabərlik işarəsi qoyurlar.

Rusiya rəhbərliyi SSRİ-nin dağılmasına səbəb olan ilk kütləvi aksiyaların Stepanakertdə təşkil olunduğunu, Moskvadan translyasiya olunan "Zaman" xəbərlər bülleteninin yayımının ilk dəfə İrəvanda dayandırılmasını, SSRİ-dən ayrılmaq şüarının ilk dəfə Ermənistanda səslənməsini, sovet-kommunist dövlətinin simvollarından biri olan "Pravda" qəzetinin ilk dəfə Ermənistanda torpağa gömülməsini, partbiletlərdən ilk dəfə Ermənistanda imtina edilməsini, başqa sözlə, qırmızı imperiyanın dağılmasına məhz ermənilərin səbəb olduğunu çox gözəl bilirlər. Amma indinin özündə də SSRİ nostaljisi yaşaya-yaşaya, nəhəng rus imperiyasını bərpa etmək arzusu ilə alışıb yana-yana hələ də erməniləri doğma, öz resurslarını yüz illərlə Moskvaya peşkəş edən azərbaycanlıları isə ögey sayırlar.

Niyə? Sırf dini təəssübkeşliyə görə.

ATƏT-in Minsk Qrupunun üzvləri olan ABŞ və Fransanın siyasi dairələri də bölgədəki konfliktə dair bütün həqiqətləri bilirlər və yenə də dolayısı ilə ermənilərin tərəfini tuturlar. Çünki onlar din qardaşıdır. Arada Azərbaycan hərbi ritorikanı gücləndirəndə Fransadan, Rusiyadan, ABŞ-dan, hətta İngiltərə və Almaniyadan gələn təpkilərə fikir verin. Hamısı öncədən sözləşmiş kimi bəyanat verirlər: "Münaqişənin hərbi yolla həlli mümkün deyil. Tərəfləri zorakılıqdan imtina etməyə, güzəştlərə çağırırıq". Azərbaycanın axırıncı edə biləcəyi güzəşt isə artıq "DQR"-in müstəqil dövlət kimi tanınmasıdır. Onlar bunu istəyir və gözləyirlər.

Azərbaycan ordusu irəliləyib bir postu tutanda avropalı siyasilər və diplomatlar həşir salırlar, amma sabah ermənilər hücum edib bir rayonumuzu da işğal etsələr reaksiya bu cür olmayacaq, yenə tərəflər danışıqlara çağırılacaqlar.

Bu baxımdan Roma papasının 1915-ci il hadisələrindən bəhs edərkən "soyqırım" ifadəsi işlətməsi nə təsadüf deyil, nə də buna təəccüblənməyə lüzum yoxdur. Belə olmalıydı, gözlənilirdi.

Tarixi həqiqəti isə, heç kəs bilməsə də, biz bilirik. 1905-ci ildən başlayaraq ta 1918-ci ilə qədər öz ölkəmizdə, Bakıda gəlmə ermənilərin törətdiyi qətliamlara məruz qalmış xalq olaraq bunu indiyədək heç bir ölkədə tanıda bilməmişik. Son illər bu yöndə xeyli çalışmalar var, zəhmət, xərc çəkilir, amma heç kəsin qulağına deyil və olmayacaq. Avropada sadə insanlar tarixi həqiqətin necə olduğunu anlasalar da, idarə edən dairələr üçün fərqi yoxdur, onlar mütləq xaçpərəst ermənilərin tərəfindədir.

Belə bir dünyada yaşayırıq. Bir tərəfdə müsəlman dövlətlər gündən-günə şiddətlənən bir məzhəb savaşı aparır, böləndükcə bölünürlər, digər tərəfdə xristian dünyası bütünləşdikcə bütünləşir. Getdikcə bəşəri dəyərlər arxa plana keçir, dini təəssübkeşlik faktoru önəmli səciyyə alır.

Sabah (yəni aprelin 24-də) ABŞ prezidenti Obama da son illərdə dediyi "Meds yagern" ("Böyük fəlakət") əvəzinə "genosid" deyə bilər. Desə, gərək təəccüblənməyək.



# İran danışıqları pozmaq istəyir?

**Hüseynbala SƏLİMOV**

**Əvvəlcə böyük şadyanalıq, sonra isə danışıqların şərtlərinə xüsusi şərhlər vermək - bəli, İranla "altılıq" ölkələri arasındakı razılaşmanın indiki durumu belədir...**

Çox güman ki, oxucu hələ də danışıqlar bitəndən sonra İranın xarici işlər nazirinin ölkədə necə böyük təmtəraqla qarşılandığını xatırlayır. Amma sonra İranın prezidenti, daha sonra isə ali dini rəhbəri danışıqların şərtlərinə müxtəlif şifahi düzəlişlər etdilər...

Bu, nə deməkdir? Onu necə başa düşmək olar? Burada bir detalı diqqətə çatdırmaq istərdik. Bu yaxınlarda Türkiyə prezidenti R.T.Ərdoğan İrana səfər etdi və orada ayətullah Ə.Xameneyi ilə görüşdü...

Xameneyi nə dedi? Dedi ki, müsəlman dövlətləri Qərbdən uzaq durmalıdır və hətta belə bir fikir də söylədi ki, İranın Türkiyə ilə sıcaq münasibətlərini çətinləşdirən bu ölkənin NATO üzvü olması və onun ərazisindəki ABŞ hərbi bazalarıdır...

Bir sözlə, İran liderləri yenə də həmin köhnə siyasi "nəğmələri" oxumaqdadırlar- NATO, ABŞ, Qərb, hərbi bazalar və s. və. i. Güman etmək olardı ki, təntənəli razılaşmalardan sonra onlar ritorikalarına azacıq da olsa, düzəliş edəcəklər. Amma yox, belə olmadı. Ritorika elə həmin ritorikadır...

Düzdür, ABŞ siyasətçiləri də danışıqlardan sonra vurğulamışdılar ki, İranla razılaşmalar yalnız nüvə məsələlərini əhatə edəcək...

Amma onlar İranla və onun rejimi ilə bağlı da kəskin ifadələr dememişdilər, o, səbəbdən ki, Qərb diplomatiyası həmişə ehtiyat girişlər saxlayır...

Doğrusu, bir yazar kimi biz İranla razılaşmaya o qədər də şad olmadıq. Ən azı ona görə ki, İranın rejiminə inamımız yoxdur. Düşünürük ki, bu rejim növbəti dəfə fasilə əldə etmək, vaxt udmaq istəyir...

Ona görə ki, İranın nüvə silahı əldə etməyə bu qədər yaxın olduğu bir vaxtda onun bu məqsəddən vaz keçəcəyini zənn etmək sadəlövhlük olardı...

İran böyük ehtimalla məqsədindən əl çəkməyəcək. İndi zəruri sənaye infrastrukturu qurulub, ölkə nüvə silahını necə əldə etməyi öyrənib. Heç ağla gətirmək mümkündürmü ki, İran məqsədə bu qədər yaxın ikən geriyə addım atmış olsun?

Hər halda, bunun ehtimalını böyük hesab etmirik. Əsas məsələ odur ki, rejim qalır. O, öz mahiyyətini dəyişmək arzusunu təzahür etdirmir...

Rejim qalırsa, onun siyasi-ideoloji çərçivələri də qalır. Təəssüf ki, ötən 30-40 il ərzində bu çərçivələri dəyişmək heç kimə müyəssər olmayıb...

Müxtəlif dövrlərdə ölkənin başına "islahatçı" adı ilə çoxlu siyasi komandalar gəlib. Bəzən ümid yaranıb ki, onlar nəsə edəcək, ölkəni mollaların əsarətindən qurtaracaq...

Amma sonradan məlum olub ki, bu, sadəcə, vaxt udmaq üçün imiş. İndi də çox böyük ehtimalla ruhani siyasi elitası vaxt udmağa cəhd edir. Doğrusu, bu dəfə bilmirik, necə olacaq, İran rejimi buna nail ola biləcək, ya yox?..

Təbii ki, bütün bunları Qərbdə də nəzərə alır və zəruri olduğu vaxtda gücdən istifadə etməyi də istisna etmirlər...

Amma gücdən istifadə etmək üçün kimlərinsə razılığını, kimlərinsə də sükutunu almaq lazımdır. Razılıq verəcək ölkələr bəlli... Deməli, qalır sükut məsələsi, susmaq məsələsi, çünki diplomatik sükut da razılığın bir əlamətidir. Bu vaxta qədər "susan" ölkələrdən biri Rusiya idi. Amma indiki məqamda o, yenə də susacaqmı? Güman etmirik. Rusiya həmişə nəyinsə müqabilində susub. Həmin o "nəsə" isə Qərb üçün indi çox şey deməkdir və Qərb bəzi məsələlərdə Rusiyanın lal razılığını almaq üçün buna gedə bilməz.

Qərəz, iyunun sonuna qədər iki aydan bir az artıq vaxt qalsa da, İranla Qərb arasındakı razılaşmanın finalı haqqında qəti söz demək olduqca çətindir, çünki İran rejimi hər an yenidən "yox!" deyə bilər...

Ola bilər ki, danışıqlar hələ bir az da uzansın. Bir az da üzücü müzakirələr getsin. Bizim üçün bu, qeyri-adi görünsə də, diplomatiya baxımından çox adi haldır- bəzən illərlə danışıqlar gedir, diplomatlar bu və ya başqa məsələləri razılaşdırmaq üçün illərlə müzakirələr aparırlar...

Amma bizə elə gəlir ki, İran rejiminin "ürəyi"nə aparan yol bu ölkənin içində siyasi dəyişikliklərə təkan verməkdən və bəlkə də birbaşa Təbrizdən keçir... Bəli, insanlar nə vaxtsa o yola üz tutacaq. Amma onu bir az da sürətləndirmək olardı...

# Nazirin obyektindəki kütləvi zəhərlənmə müəmması...

## Fazil Məmmədovun "Metropark"ında 20 nəfərin hansı səbəbdən zəhərləndiyi bilinmir; "Azəriqaz" bu ticarət mərkəzinə qaz verilmədiyini müəyyən edib, cinayət işi başlanıb

**Aprelin 12-də Bakıda böyük ticarət mərkəzlərindən birində kütləvi zəhərlənmə olub. Hadisə "Metropark" ticarət mərkəzində qeydə alınıb. Ticarət mərkəzinin qarajında qonşu binalardan birinə məxsus havalandırma xəttindən dəm qazının sızması nəticəsində qarajda olan 20-dən artıq şəxs zəhərlənib. 15-dən çox şəxs təcili yardım maşınları ilə xəstəxanalara aparılıb.**

Digər şəxslərə yerində yardım göstərilib. Bakı Şəhər Təcili Təxirəsalınmaz Yardım Stansiyasının baş həkimi Rauf Nağıyev APA-ya açıqlamasında əraziyə təcili yardım briqadaları göndərdiklərini deyib. Onun sözlərinə görə, zərərçəkənlərdən bəziləri xəstəxanalara yerləşdirilib, bəzilərinə isə yerində tibbi yardım göstərilib.

Baş həkim prosesin hələlik davam etdiyini, zərərçəkənlərin sayı barədə dəqiq rəqəm söyləməyin tez olduğunu bildirib. Kliniki Tibbi Mərkəzin (KTM) Toksikologiya şöbəsinin müdiri, respublikanın baş toksikoloqu Azər Maqsudov isə APA-ya bildirib ki, KTM-ə 7 nəfər yerləşdirilib.

"Onlar başgicəllənməsi və ürək bulanmasından şikayətlənirlər. Vəziyyətləri orta ağırdır. İlkin məlumata görə, zəhərlənmə qaz sızmasından baş verib. Lakin dəqiq səbəblər araşdırılır. Zəhərlənənlər arasında ticarət mərkəzinin işçiləri və ticarət mərkəzinə gələn vətəndaşlar var", - deyə baş toksikoloq qeyd edib.




"Azəriqaz"ın mətbuat xidmətinin rəhbəri İbrahim Kərbəlayev isə virtualaz.org saytına açıqlamasında bildirib ki, "Azəriqaz" əməkdaşları hazırda "Metropark" ticarət mərkəzində araşdırma aparırlar.

İ.Kərbəlayevin sözlərinə görə, "Azəriqaz"ın mütəxəssisləri ticarət mərkəzinə ümumiyyətlə qaz verilmədiyini müəyyən ediblər.

Mətbuat katibi deyib ki, mütəxəssislər insanların zəhərlənməsinin digər mümkün səbəblərini araşdırmaqla məşğuldur. Beləliklə, "Azəriqaz"ın mətbuat katibinin bu açıqlaması sensasion sayıla bilər. Qaz verilməyən bir binada qaz sızmasının necə olduğu sual doğurur. İlkin ehtimala görə, zəhərlənmə ticarət mərkəzinə bitişik binaların birindən qaz sızması nəticəsində baş verib. Baş vermiş kütləvi zəhərlənmə ilə bağlı cinayət işi başlanılıb.

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov "Trend"ə bildirib ki, aprelin 12-də "Metropark" ticarət mərkəzində baş vermiş kütləvi zəhərlənmə faktı ilə bağlı Cinayət Məcəlləsinin 314.2 (səhlənkarlıq; eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib. Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.

Onu da məlumat üçün deyək ki, "Metropark"ın vergilər naziri Fazil Məmmədova aid olduğu iddia edilir. Metronun "Nərimanov" stansiyası yaxınlığında yerləşən ticarət mərkəzini nazirin çevrəsinə yaxın şəxslərin idarə etdiyi bildirilir.

Vergilər nazirinin bu obyektinə müştəri tələbatı bir o qədər də çox deyil. Çünki "Park bulvar" və "28 Mall" ticarət mərkəzlərinin fəaliyyəti "Metropark"ı rəqabətdə geri qoyub. Sahibkarların ən yaralı yeri və qəzəbli olduğu bir nazirliyin rəhbəri indi obyektində baş vermiş zəhərlənməyə görə məsuliyyət daşıyır.

❑ **E.SALAMOĞLU**

# İŞİD-çilərin məhkəməsində gərgin anlar

## Şahid ifadələrdə kəskin ziddiyyətlər ortaya çıxdı

**Aprelin 13-də Bakı Ağır Cinayətlər Məhkəməsində Suriyadakı döyüşlərdə iştirak etməkdə təqsirləndirilən 6 nəfərin işi üzrə məhkəmə prosesi davam etdirildi. Ənvər Seyidovun sədrliyi ilə keçən prosesdə şahidlər ifadə verdilər.**



İlk olaraq təqsirləndirilən şəxslərdən olan Namiq Məmmədovun bibisi oğlu Elmir Vəliyevin ifadəsi dinlənildi: "Əslən Qərbi Azərbaycandanam. Köhnə Günəşlidə qalıram. Hazırda usta işləyirəm. Suriyada heç vaxt olmamışam. İstintaqda verdiyim ifadəni özüm yazmamışam. İfadəni oxumadan mənə dedilər ki, qol çək. Üstündən uzun zaman keçdiyindən, çox şeyləri xatırlamıram".

Şahidin ifadəsinin bu yerində Ənvər Seyidovun ona " özünü gicliyə qoyma, qol çəkdiyin ifadədir, burada etiraf etməyə utanırsan" deməsi narazılıqla qarşılandı. E.Vəliyev MTN-də də bu cür təhqir olunduğunu qeyd etdi: "İstintaqda da mənə bu cür təzyiq etdilər. Bibim oğlunun Suriyaya getdiyindən sonralar xəbər tutdum. Mənə heç bir təklif etməyib. Türkiyəyə gedəcəyini demişdir. Orada mənə psixi təzyiqlər etdilər. Məndən soruşdular ki, qohumunun dini adı nədir. Dedim ki, bilmirəm. Amma ifadədə tamam başqa şeylər yazılıb. Guya onun adının "Abu Hüseyn" olduğunu demişəm. Namiqlə yaxın qohum olsaq da, isti münasibətlərimiz olmayıb. Təzyiq altında olanda, insanın etmədiklərini boynuna qoyurlar. Müstəntiq məndən ifadə aldığı zaman dedi ki, təcili işim var, çıxmalıyam. Ona görə təcili qol çək. İfadəni oxumaq istəyirdi. Açıqca mənə söylədi ki, şərəfsiz olaram adına başqa şeylər yazsam, əksi olsa, məhkəmədə deyərsən".

Təqsirləndirilən şəxs Namiq Məmmədov ifadəyə müdaxilə etdi: "Vəkilim Müzəffər müəllimlə birlikdə ifadə ilə tanış olanda, çox əsəbləşdim. Dayım oğlunun ünvanına söydüm. Müstəntiq Cavid Quluzadə bu zaman mənə dedi ki, söymə, bəlkə onu mən aldatmışam. Orada olan təzyiqlərdən xəbəri olmayan yoxdur. Mənə qol çəkdirmək üçün həyat yoldaşım və ailəmlə məni təhdid etdilər. Artıq həyatımızı məhv edirsiz. Hər şeyin başında müstəntiq durur. O, bizi aldatdı".

Vəkil Müzəffər Baxış deyilənləri təsdiq edərək, şahidinin ifadəsinin ziddiyyətli olduğunu qeyd etdi.

Şahidin ifadələri davam etdi: "Evimdən tank belə çıxaracaqlarını bildirdilər. İnsan oradan canını qurtarmaq üçün çox şeylərə gedir. İstintaqda adıma yazılan ifadələrlə razı deyiləm. Əsl həqiqəti məhkəmədə söylədim".

Proses hal şahidlərinin ifadələri ilə davam etdirildi. Təqsirləndirilən şəxslərdən Ruslan Mustafayevin evində aparılan axtarışda hal şahidi qismində iştirak edən Kamil Cəmilovun ifadəsi alındı. K.Cəmilov əvvəlcə evdə heç nə tapılmadığını desə də, sonda patron aşkar olunduğunu söylədi: "Çarpayının altından patron çıxdı. Protokol tərtib olundu. Məni şahid kimi, Rəşad adlı oğlan çağırır. İndiyə qədər 5 dəfə hal şahidi olmuşam. Zəng edirlər, mən də könüllü şahid kimi iştirak edirəm. Evdə baxış keçirənlərin maskaları yox idi. Gördüyümü dedim".

Müzəffər Baxış qanunla bir şəxsin il ərzində yalnız bir dəfə hal şahidi kimi nəzərdə tutulduğunu proses iştirakçılarının diqqətinə çatdırdı. 5 dəfə hal şahidi olmağı qanun pozuntusu adlandırdı.

Ardınca digər hal şahidi Namiq Zəfərov ifadə verdi: "Evdə axtarış olarkən, hal şahidi kimi iştirak etmişəm. İstintaqda verdiyim ifadəni təsdiq edirəm. Evdən insanları öldürən güllələr çıxdı. Hökumətimizi qorumalıyıq. Qardaşım olsa da, güzəşt etmərəm".

Müzəffər Baxış evdən tapılan əşyalardan şahidin xəbərsiz olduğunu qeyd etdi.

Bundan sonra hakim prosesin 20 aprel saat 11:00-a təxirə salındığını elan etdi.

❑ **Cavanşir ABBASLI**
**Foto müəllifindir**

YENİ MÜSAVAT
N 78 (6106) 14 aprel 2015

# Artur Rasizadənin niyə vəzifədən getmədiyinin şok səbəbi

## Baş nazir onun yerinə birinci müavini Yaqub Eyyubovun təyin ediləcəyinə qarşı müqavimət göstərir; baş nazirin yaşı ilə bağlı sənədlər saxtalaşdırılıbmı?



Toğrul İsmayıl

**"Bir neçə gün öncə-aprelin 5-də mənim 79 yaşım tamam oldu. Bu gün mənə desələr ki, gəl baş nazir ol. Bunlara deyərəm ki, məni ələ salmısınız, 79 yaşda baş nazir işləmək olar? Baş nazir gərək 60-65 yaşdan çox olmasın. Əgər o doğrudan da dövlət xadimidirsə, özü desin ki, axı belə olmaz. Deməlidir ki, mənim yerimə elə bir adam qoyun ki, heç olmasa 10-15 il işləmək potensialı olsun".**

Bu sözləri Ayaz Mütəllibov dövründə baş nazir işləmiş Rəhim Hüseynov moderator.az saytına müsahibəsində deyib. O, baş nazir Artur Rasizadə haqda ilginc bir fakt açıqlayıb: "Bugünkü baş nazir məndən 5 yaş kiçikdir. Mən onu özümə müavin götürəndə özü anket yazmışdı ki, mən 1931-ci ildə anadan olmuşam. Amma deyirlər bu yaxınlarda 80 yaşı tamam olub. Bu qədər yalan olar? Mən də dedim ki, o ya özü yaşını düzəldib, ya da pasportunu dəyişdirib". **Sabiq baş nazir A.Rasizadə haqda fikirlərini belə tamamlayıb:** "Gərək adamda bir qürur da olsun ki, hər şeyin vaxtını-vədəsini bilsin. Özü də bizdə bu gün o qədər peşəkar və orta yaşlı kadrlar var ki. Amma o bu yaşda baş nazirlikdən imtina etmək istəmir. Hərdən İlham Əliyevin iclaslarına, müşavirələrinə baxıram, prezident danışır, baş nazirimiz də oturub mürgü vurur".

Baş nazir Artur Rasizadənin vəzifədən gedəcəyi ilə bağlı xəbərlər mediada dəfələrlə müzakirə mövzusu olsa da, 1996-cı ilin noyabrından bəri *(2003-cü ildə cəmi bir neçə ay "gözlərindəki ağrı səbəbindən" işdən gedib)* o, "əvəzedilməz" olaraq qalır. Baş nazir siyasi əhəmiyyətinə görə prezident vəzifəsindən sonra ikinci postdur və illərdir ki, heç bir ambisiyası olmayan Rasizadə hakimiyyəti tam qane edib. Onunla bağlı ən son məlumatlarda bildirilirdi ki, baş nazir mart ayında, nəhayət ki, fəxri təqaüdə göndəriləcək.

A.Rəsizadənin niyə getmək istəməməsi ilə bağlı bugünlərdə çox sensasion bir məlumat almışıq.

Sabiq baş nazirin A.Rasizadə haqda mövzunu gündəmə gətirməsi bu informasiyanı ictimailəşdirməyə şərait yaratdı.

Mötəbərliyinə şübhə etmədiyimiz mənbə deyib ki, baş nazir əslində getmək istəyindədir, amma onun yerinə gətirə biləcək isim baş naziri inadla dirəniş göstərməyə vadar edir. **"Artur Rasizadənin baş nazirlikdən gedəcəyi təqdirdə onun yerinə baş nazirin birinci müavini Yaqub Eyyubovun təyin ediləcəyi daha çox deyilir. Bu postda öz adlarını və ya öz adamlarını görmək istəyən hakimiyyətdaxili qruplar üçün Yaqub Eyyubov keçərli namizəddir. Amma Artur müəllim səhhəti imkan verdikcə bu təyinata qarşı müqavimət göstərmək niyyətindədir"** deyə, qaynağımız bildirib. Qeyd edək ki, Y.Eyyubov 1999-2003-cü illərdə baş nazirin müavini, 2003-cü ildən isə baş nazirin birinci müavinidir. A.Rasizadənin əsas funksiyasını Yaqub Eyyubovun yerinə yetirdiyi də deyilir. Y.Eyyubov 1945-ci ildə Mingəçevir şəhərində anadan olub, ixtisasca mühəndisdir, texnika elmləri doktoru, professordur.

Məlumatlarda o da deyilir ki, baş nazirlə birinci müavini uzun illərdir bir-birilərini tanısalar da, münasibətləri həmişə sərin olub, son illər isə ümumiyyətlə gərginləşib. Y.Eyyubovun adının heç vaxt maliyyə qalmaqallarında hallanmaması və A.Rasizadə kimi iddiasız olması onun baş nazirlik yolunu həqiqətən də aça bilər. Ancaq həddən ziyadə ehtiyatlı olmasına rəğmən, onun Azərbaycana xaricdən bir çox strateji malların gətirilməsindən ciddi qazanc əldə etdiyi haqda da xəbərlər mövcuddur. Y.Eyyubovun oğlu da yüksək vəzifədə çalışır. Emin Eyyubov Azərbaycanın Avropa Birliyi yanında diplomatik missiyasına rəhbərlik edir.

❑ **Xəbər xidməti**

# Müsavat 19 aprel aksiyasına ciddi hazırlaşır

## Partiya yürüş-mitinqdə iştirak üçün partiyalara və gənclər təşkilatlarına müraciət edəcək

**Aprelin 13-də Müsavat Partiyası Divanının növbəti iclası keçirilib. Partiyadan verilən xəbərə görə, Divanda qərarların icrası və görülən işlər barədə məlumat verilib. 19 aprel 2015-ci il tarixdə saat 16.00-dan 18.00-dək Bakı şəhərində metronun "20 Yanvar" stansiyası yaxınlığındakı meydandan başlayaraq, Həsən bəy Zərdabi küçəsindən keçməklə yürüşün keçirilməsi ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edilməsi və yürüşün təşkilinə dair məsələlər müzakirə olunub. Bu aksiya ilə əlaqədar siyasi partiyalara, qurumlara və gənclər təşkilatlarına müraciət edilməsinin məqsədəuyğunluğu qeyd edilib.**

Divan üzvlərinə vicdan məhbusları Fərəc Kərimovun, İntiqam Əliyevin və Rəsul Cəfərovun məhkəmə proseslərinin diqqətdə saxlanılması tapşırılıb.

Hüquq müdafiəçisi, keçmiş vicdan məhbusu Elşən Həsənov İrana getmək istərkən, onun 2 aprel 2011-ci ildə kütləvi aksiyada iştirakı ilə bağlı əsassız hökmlə müəyyən olunmuş zərərin ödənilmədiyi əsasında ölkədən çıxmasına qoyulan qadağaya görə xaricə buraxılmaması məsələsi müzakirə edilib. Divan 2 aprel məhbuslarının əfv fərmanı əsasında azadlığa buraxılması ilə məhkəmənin müəyyən etdiyi zərərin ödənilməsi zərurətinin aradan qalxmasını əsas götürərək Elşən Həsənov barəsində başqa yerə getməməklə bağlı qadağanın ləğv olunmasını tələb edib.

Divan Bakıda çoxmərtəbəli yaşayış binasında baş verən son yanğın hadisəsini şəhərsalma prinsiplərinə zidd olaraq, korrupsiya niyyəti ilə oda davamsız materiallardan kütləvi istifadənin nəticəsi kimi qiymətləndirib, bu məsələdə günahkarların cəzalandırılmasını, belə üzlüklü digər binalarda dərhal yanğın təhlükəsizliyi tədbirlərinin görülməsini, yanğından zərərçəkənlərə düzgün hesablanaraq kompensasiyasının ödənilməsini tələb edib.

Dinin dövlətdən ayrı olduğu, siyasətə qarışmadığı müasir dövrdə Roma Papasının qondarma "erməni soyqırımı" ilə bağlı verdiyi açıqlamasının beynəlxalq konvensiyalara zidd olmaqla yanaşı, Qarabağ probleminin həlli istiqamətindəki diplomatik səylərə zərbə olması və konfessiyalararası münasibətlərin pozulması baxımından narahatlıq doğurduğu qeyd olunub.

**Sonda cari məsələlərə baxılıb.**

❑ **E.SEYİDAĞA**

# AMİP seçkidə təkbaşına iştirak qərarı verdi

**Dünən AMİP Mərkəzi Şurasının növbəti iclası keçirilib. Partiyanın baş katibi Arzuxan Əlizadənin "Yeni Müsavat"a verdiyi xəbərə görə, iclasda Milli Məclisə seçkilərdə iştirakla bağlı məsələ də gündəliyə salınıb. Ətraflı müzakirələr aparılıb və seçkilərdə partiya olaraq iştirak etmək barədə ilkin qərar qəbul edilib.**

A.Əlizadənin sözlərinə görə, digər partiyalarla əməkdaşlıq məsələləri də müzakirə olunub. İlkin olaraq belə qərara alınıb ki, seçkiqabağı demokratik mühitin formalaşması, seçkilərə nəzarətin birgə təşkili, bəzi seçki dairələri üzrə daha şanslı namizədlərin müdafiəsi və sair məsələlərlə əlaqədar digər partiyalarla müzakirələr aparılması və əməkdaşlıq barədə sazişlərin imzalanması məqsədəmüvafiq hesab edilir. Mərkəzi Şura AMİP Nizamnaməsinə müvafiq olaraq bu kimi məsələlərlə əlaqədar qərar verilməsi barədə partiyanın Siyasi Şurasına əlavə səlahiyyətlər verib.

❑ **E.SEYİDAĞA**

# Qərbin "Ərdoğansız Türkiyə" modeli



**Azər RƏŞİDOĞLU**

**Türkiyə parlament seçkilərinə hazırlaşır. Bu seçkilərdə də AKP-nin qalib olacağı proqnozlaşdırılır. Lakin seçkilər heç də sadə bir zamana təsadüf etmir. AKP lideri Ərdoğan daxildə və xaricdə müəyyən mənada dayaqlarını itirməyə başlayıb.**

Ərdoğanın son illər ərzində qələbəsini təmin edən amillər var idi, birinci, o, demokratikləşmə yoluyla gedirdi, hər halda, sözdə bu bəyan edilirdi, bu amil çox ciddi dəstək yaradırdı. Ən başlıcası isə Ərdoğan sabit iqtidar yarada bildi. Ölkədə hər kəs - liberallar, solçular, dindarlar da tez-tez hərbiçilərin çevriliş etməsindən boğaza yığılmışdılar. Ərdoğan bunun qarşısını ala bildi. Digər tərəfdən, Ərdoğan dindar kəsimin maraqlarına cavab verən daxili siyasət yeridirdi və bu prosesdə liberalların da dəstəyini qazanırdı.

Üçüncü, kürd məsələsinin həllində azdan-çoxdan ciddi addımlar atmağa çalışırdı ki, bunlar liberal dairələrdə dəstək qazanırdı.

Nəhayət, Ərdoğan hakimiyyətə gəldiyi ilk illərdə biznes dairələri ilə bərabər məsafədə dayanmağa çalışırdı, sözsüz ki, ona qədər sıxışdırılan islamçı olan iş adamlarına geniş imkanlar yaradılmışdı. Sabançı, Koç kimi ənənəvi biznesmenlərlə normal münasibət saxlayırdı və onlar da onun hakimiyyətə gəlməsində dəstək olmuşdular.

Bunun nəticəsində bir müddət yeni rəqabət mühitinin yaradılması baxımından Ərdoğan böyük dəstək almışdı.

Lakin son illər ərzində vəziyyət bir qədər dəyişdi. "Gəzi olayları" zamanı Ərdoğan liberalların, ateistlərin və solçuların dəstəyini itirdi. Sadə Türkiyə vətəndaşı hesab etdi ki, Ərdoğan insanların həyat tərzinə müdaxilə edir. Dalbadal qazanılan qələbələr Ərdoğanı həyat tərzini müəyyənləşdirən mütləq güc kimi çıxış etməyə sövq etdi. Bundan əvvəl isə "Hizmət" hərəkatıyla AKP arasında qarşıdurma Ərdoğan komandasında qarşıdurma ilə başa çatdı.

Beləliklə, son dövrlərdə AKP hakimiyyəti liberalların, solçuların, dinçilərin və nəhayət, biznes aləminin etimadını itirdi. Biznesdə özününkülərə üstünlük verən Ərdoğan "Gəzi olayları"nı dəstəklədikləri üçün Koç qrupunun qalib gəldikləri tenderləri ləğv etdi.

Ehtimal etmək olar ki, bu seçkilərdə də Ərdoğanı çox zəif yerindən "vurmağa" cəhd olacaq, bəzi məmurların korrupsiya və əxlaq məsələləri ilə bağlı gizli çəkilişləri meydana çıxacaq.

Ərdoğan son 14 ildə korrupsiyaya qarşı mübarizəni və əxlaq məsələlərini özünün "vizit kartı"na çevirmişdi. Bu dəfə də gizli çəkilişlər meydana çıxacaqsa, bunlar AKP seçicisi üçün çox önəmli məsələyə çevrilə bilər.

Bütün bunlar "obıvatel"ə hesablanmış gedişlərdir. Daha ciddi siyasi dairələrdə hesab edirlər ki, Ərdoğan bir tərəfdaş kimi güvənli siyasətçi deyil. İkinci sonsuza qədər şantaj siyasətdə bu məqbul sayılmır. Əslində, Ərdoğan hakimiyyəti üçün Gülən hərəkatının pozitiv bir rolu da vardı. ABŞ-da yaşayan Gülən müəyyən mənada Vaşinqtonla Ankara arasında qeyri-formal dialoq kanalı idi.

Ərdoğan hökuməti Vaşinqton üçün regionda heç bir təhlükə yaratmayacaqdı. 2009-cu ildə "Mavi Mərmərə" hadisəsi olanda Vaşinqtonda düşünürdülər ki, Təl-Əvivlə yanaşı Ankaranın da günahı var. Bir müddət sonra Ərdoğan hökuməti Vaşinqtonun raket hücumundan müdafiə sistemlərinin ölkə ərazisində yerləşdirilməsinə icazə verdi, bununla münasibətlər bir az yaxşılaşdı. Sonra Obamanın Netanyahuya təzyiqindən sonra ikinci Ərdoğandan üzr istədi, bu, əslində Ankara-Təl-Əviv münasibətlərinin normallaşması üçün bir yol açırdı. İki ölkə arasında ciddi problemlər olmasa da, münasibətlər normallaşmayıb.

Etimadın itirilməsi özünü Avropa Birliyi ilə danışıqların çox ağır getdiyini göstərir, məsələ ondadır ki, hər iki tərəf problemləri özləri yaradırlar. Türkiyə bir çox meyarlara görə Avropa Birliyi standartlarına uyğun deyil, onların üzərində işləmək lazımdır. Bundan əlavə, Avropa Birliyində islamafobiya, türkfobiya mövcuddur.

Türkiyənin hərbi sahədə elan etdiyi tenderdə Çinin qalib gəlməsi, ABŞ başda olmaqla NATO müttəfiqlərinin etirazı ilə müşahidə olundu. Sonradan Ankara rəsmiləri bildirdi ki, tenderdə Çinin qalib gəlməsi onlara üstünlük verəcəkləri anlamına gəlməməlidir, hətta "biz NATO və ABŞ-la bazarlıq yapırıq ki, qiymətləri endirəsiniz" deyə əlavə etdilər. O cümlədən, İranla məsələlərdə Ankara özünü çox qeyri-sabit aparır. Bu isə Birləşmiş Ştatların qəzəbinə səbəb olur.

Beləliklə, ABŞ-ın Türkiyə ilə yox, Ərdoğanla problemləri var. Vaşinqton artıq Ərdoğansız Türkiyə və AKP layihəsinin üzərində düşünməyə başlayıb. Bunu Ərdoğan da anlayır və ehtimal etmək olar ki, seçkilər zamanı anti-ABŞ xəttini qabardacaq...

YENİ MÜSAVAT
N 78 (6106) 14 aprel 2015

# Sabiq bankir dövlət rəhbərliyindən nə xahiş edib




## Cahangir Hacıyev Londona köçür - özəl xəbər

### Beynəlxalq Bankın İdarə Heyətinin sədrinin "səhhəti" ilə bağlı istefasının əsl səbəbi üzə çıxır; onu yoxlayırlar; oliqarx biznes şəbəkəsinin bir çoxu ilə vidalaşmalı olacaq

**Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin sabiq sədri, "səhhəti ilə əlaqədar" martın 18-də istefa verən Cahangir Hacıyevlə bağlı yeni məlumatlar yayılıb. İddia edilir ki, hazırda Maliyyə və Vergilər nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi və Mərkəzi Bankın mütəxəssisləri Beynəlxalq Bankda birgə yoxlamalara başlayıblar. Bu yoxlamaların məqsədi dövlət zəmanəti ilə xaricdən alınmış kreditlərin ölkədə kimlərə və hansı şərtlərlə verilməsinə aydınlıq gətirməkdir. Yoxlamalar bankda bir neçə nəfərin həbsi ilə nəticələnə də bilər.**

Ölkənin ən iri bankına 14 il rəhbərlik etmiş, bank-maliyyə sektorunun önəmli simalarından biri olmaqla yanaşı, hakimiyyətə ən yaxın şəxs kimi tanınan C.Hacıyevə gəlincə, onun Azərbaycanı tərk etdiyi deyilir. Bəzi mənbələrin xəbərlərinə görə, C.Hacıyev əvvəl Almaniyada nüfuzlu klinikalardan birində müalicə almaq niyyətindədir. Onun ağ ciyərindəki narahatlıqla bağlı müalicə alacağı söylənilir. Amma redaksiyamıza məlumat verən daha bilgili mənbə söyləyib ki, sabiq bank rəhbərinin ölkədən çıxışına yasaq qoyulması və Almaniyada müalicə olunması xəbəri doğru deyil. Belə ki, sabiq nazir Almaniyaya yox, Londona yerləşib. Mənbəmiz deyib ki, C.Hacıyevin istefasının əsas səbəbləri sırasında onun Azərbaycandan könüllü getmək istəyi olub.

Qaynağımız deyib ki, C.Hacıyevin ailəsi uzun müddətdir ki, Azərbaycanda yaşamır ki, bu da ona ciddi problemlər yaradır. Onun yaxınları bankirin qarşısında tələb qoyub ki, Londona, ailəsinin içinə gəlsin. Bankir dövlət rəhbərliyindən bir neçə dəfə bu mövzuda xahiş edib və sonunda onun probleminə anlaşıqlı yanaşılıb. Amma C.Hacıyevə təklif edilib ki, səhhəti ilə bağlı ərizə yazsın: **"Bu halda onun yenidən hansısa mühüm posta qaytarılması mümkün ola bilər. Təbii ki, dövlətin ona bir mütəxəssis kimi ehtiyacı yaranarsa".**

Qeyd edək ki, aprelin 2-də Beynəlxalq Bank səhmdarlarının toplantısında Cahangir Hacıyevin səhhəti ilə əlaqədar İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi barədə ərizəsi təmin edilib. Hazırda bankın rəsmi saytında İdarə Heyəti sədrinin vəzifəsini sədrin birinci müavini Emil Mustafayevin icra etdiyi bildirilir.

Son illər məmurların və onların ailə üzvlərinin xüsusilə Londona yerləşməsi barədə xəbərlər intensivləşib. Məmurlar ölkəni adətən "müalicə" və ya "övladının təhsil problemi" adı ilə tərk edirlər. *(Onların bir çoxunun övladları həqiqətən də İngiltərənin nüfuzlu məktəblərində oxuyur).* Bu prosesin, xüsusilə 2013-cü il prezident seçkisi öncəsi və hökumətin korrupsiya ilə mübarizəni gücləndirməsi barədə qərarından sonra daha ciddi vüsət aldığı iddia olunur. Bəzi nazirlər, nazir müavinləri, komitə sədrləri, icra başçıları, vergi və gömrük işçilərinin ailələrinin Avropada yaşadığına dair xəbərlər var. Onların bəziləri hətta vətəndaşlıq belə alıblar...

İngiltərədə nəşr olunan nüfuzlu "The Telegraph" qəzeti bir neçə ay əvvəl yazmışdı ki, Londonda daşınmaz əmlak alan keçmiş sovet ölkələri vətəndaşları sırasında Azərbaycan zənginləri də var. Qəzet yazırdı ki, Azərbaycandan olan zənginlər əsasən Londonun Mayfair, Rijents-park, Naytsbric, Belqraviya rayonlarında daşınmaz əmlak alırlar.

C.Hacıyev ölkənin ən varlı oliqarxlarından biri hesab olunur. O, xüsusilə paytaxt Bakıda elit yaşayış binalarının tikintisinin şəriksiz sahibidir. 2002-ci ildə o, "Yeni Həyat" şirkətlər qrupunu təsis edib. Şirkətlər qrupu Bakının mərkəzində və mərkəzə yaxın ərazilərdə eyni adlı yaşayış massivləri inşa edib. Hazırda "Yeni Həyat" şirkətlər qrupu Bakıda nəhəng "Azure Park" yaşayış kompleksinin tikintisini həyata keçirir. Tikintini C.Hacıyevin idarəetməsində olan "Banktechnique" (keçmiş "Texnikabank") maliyyələşdirir. "AAAF-İnşaat" və "Azinşaat" şirkətinin də sabiq bankirə bağlılığı var. Bundan başqa, keçmiş bankir bir neçə istehsal müəssisəsi (məsələn, Binəqədidə ayaqqabı fabriki), "Şəki İpək" və cücə-toyuq fermasının da daxil olduğu ASC-lərin sahibidir. Cahangir Hacıyevin Rusiyada və Birləşmiş Ərəb Əmirliklərində biznesinin olduğu deyilir. Azərbaycandakı biznes obyektlərinin sonrakı taleyinə gəlincə, belə ehtimallar var ki, hakimiyyətlə ciddi problemləri olmasa da, C.Hacıyev bu biznes şəbəkəsinin bir çoxu ilə vidalaşmalı olacaq. Artıq sabiq bankirə aid olduğu deyilən hərbi ayaqqabıların istehsalçısı olan BOT MMC fəaliyyətini dayandırıb.

Cahangir Hacıyevin sahibi olduğu "İnter"və "Simurq"un sonrakı taleyinə gəlincə, hazırda o, klublardan imtina etməyin yollarını axtarır. Böyük ehtimalla sabiq nazir Azərbaycandan köçdüyü üçün mövsüm başa çatan kimi hər iki klubdan maliyyə dəstəyini də çəkəcək.

❑ **"Yenì Müsavat"**

# Dollarla əmanətlərin məsələsi məhkəməyə çıxarılır...

## Ekspertlər bildirirlər ki, problemi "dondurmaq"dansa, onun həlli daha vacibdir...

**Ölkədə manatla bağlı qeyri-müəyyənlik iki aya yaxındır ki, davam etməkdədir. Əhalinin banklarla bağlı problemi daha da ciddiləşir. Bildirilir ki, vətəndaşlar dollarla olan kreditlərini qaytarmaq istəmir, bankları məhkəməyə verirlər. Artıq Konstitusiya Məhkəməsi də işə qarışıb. Bildirilir ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası olub.**



AzərTAc-ın xəbərinə görə, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 439.1, 439.2 və 439.7-ci maddələrinin şərh edilməsinə dair Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) sorğusuna və Göyçay Rayon Məhkəməsinin müraciətinə baxılaraq icraata qəbul olunması haqqında qərarlar çıxarılıb. Sorğu və müraciətlərə mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun 2015-ci il mayın 7-nə təyin edilmiş iclasında baxılacaq. Qeyd edək ki, Mülki Məcəllənin sözügedən maddələri dollarla götürülən kreditlərlə bağlıdır. Ombudsman və Göyçay Rayon Məhkəməsinin müraciətləri əsasında mübahisəli məsələ müzakirəyə çıxarılacaq.

**Əksər ekspertlər bildirirlər ki, qanunvericilik vətəndaşın tərəfindədir. Ekspert Samir Əliyevin sözlərinə görə isə qanunvericilikdə boşluq var.** "Devalvasiyadan artıq 2 aya yaxın müddət keçib. Hələ də bir sıra suallar cavabsız qalıb. Onlardan biri də xarici valyutada, xüsusən də dollarda olan kreditlərin hansı məzənnə ilə qaytarılması məsələsidir. Banklar və əhali arasında gərginlik yaranmasına rəğmən, hökumət müşahidəçi mövqeyindədir. Həm Mərkəzi Bankın, həm də Konstitusiya Məhkəməsinin ortaya konkret mövqe qoymaması kredit ödənişində kimin haqlı olmasını müəyyənləşdirməyə çətinlik yaradır. Banklar isə müəyyən güzəştin, müddətin uzadılması və faiz dərəcəsinin aşağı salınmasının müqabilində problemi müvəqqəti "dondura" biliblər. Seçim imkanı olmayan və müdafiəsiz qalan əhali isə kreditlərini yeni məzənnə ilə ödəməli olurlar. Reallıq budur ki, devalvasiya zərbəsi hər iki tərəfə dəyib: müştərilərin yüzlərlə və ya minlərlə ölçülən aylıq kredit ödənişi, bankların isə milyonlarla ölçülən öhdəlikləri 34 faiz artıb",- deyə ekspert musavat.com-a açıqlamasında qeyd edib.

**Onun sözlərinə görə, əhalinin zərəri ümumilikdə 1,7 milyard manatdır:** "Dollar əmanətçilərinin qazancı təxminən 970 milyon manatdır. Bankların zərəri isə təxminən 2,7 milyard manat qiymətləndirilir. Bunların təxminən 1 milyard manatını dollar krediti vasitəsilə bərpa edə bilərlər, o da vaxtı uzatmaqla. Açıq valyuta mövqeyinə görə banklar devalvasiyadan əlavə olaraq milyonlarla dollar məbləğində vəsait itiriblər. Qanunvericilikdə olan boşluq məsələyə hər kəsin öz nöqteyi-nəzərindən baxmasına əsas yaradır. Banklar təzə məzənnə ilə ödənişi tələb edir, müştərilər isə köhnə məzənnə ilə ödəmək niyyətlərini bildirirlər. Hər iki yanaşmada qanunvericiliyə istinad edilir. Qanunvericilik isə bu məsələdə birmənalı mövqe ortaya qoya bilmir. Bir qrup mütəxəssis əsas diqqəti Mülki Məcəllənin 439.7-ci maddəsinə yönəldərək xarici valyutada olan kreditlərin müqavilə bağlanan halda olan məzənnə əsasında ödənilməli olduğunu bildirir. Əsas kimi məcəllədə göstərilən "öhdəliyin əmələ gəldiyi vaxt" götürülür. Bu halda kredit ödənişləri köhnə məzənnə ilə ödənilməlidir. Digər qrup isə Mülki Məcəllənin 439.2-ci maddəsinə istinad edərək "ödəniş anında ödəniş yerinin məzənnə qiyməti üzrə aparılır" fikrini əsas götürürlər və yeni məzənnə ilə ödənilməli olduğunu qabardırlar".

**S.Əliyev qeyd edib ki, əslində problem hüquqşünasların da qeyd etdiyi kimi, qanunlarımızın dilinin qüsurlu olmasında, hərfi tərcümə nəticəsində fikirlərin anlaşıqlı olmamasında, birmənalı fikir yürütmək imkanlarının məhdud olmasındadır:** "Əslində kim haqlıdır? Məntiq baxımından banklar, sosial gərginlik baxımından əhali haqlıdır. Fikrimcə, bütün qeyri-müəyyənliklərə rəğmən bu məsələdə qanunvericilik bankların mövqeyinin daha da üstün olduğunu göstərir. Hətta Ali Məhkəmənin Plenumunun 4 saylı 24 noyabr 2005-ci il tarixli Qərarı da bankların mövqeyini gücləndirir. Qərarın 10-cu bəndində belə bir hissə var: "Əgər iddia tələbi xarici valyuta ilə göstərilərsə, alınan və ya ödənilən məbləğin qətnamənin icra olunduğu günə olan manat məzənnəsi ilə hesablanması göstərilməlidir". Bu bənd göstərir ki, istənilən xarici valyutada olan borc ödəniş tarixinə olan məzənnə ilə ödənilməlidir.

Hüquqşünaslar yaxşı bilir ki, Ali Məhkəmənin Plenimunun Qərarları tövsiyəvi xarakter daşısa da, bir qayda olaraq məhkəmələr bu qərarı fəaliyyətlərində əsas kimi götürürlər. Ona görə də müştərilərin köhnə məzənnə ilə ödəmək barədə iddia qaldırmasının məhkəmə perspektivi yoxdur. Bu vaxta qədər bankların əleyhinə çıxarılmış qərarların apelyasiya perspektivi sual altında qalır".

**Ekspertin sözlərinə görə, Azərbaycan qanunlarının əsas mənbələrindən biri olan Rusiya qanunvericiliyində bu məsələ dəqiq göstərilir:** "Rusiya Mülki Məcəlləsinin "Pul öhdəliklərinin valyutası" adlanan 317-ci maddəsinə əsasən, xarici valyutada olan borc öhdəlikləri rublla ödənilir. Əgər qanunvericilikdə və ya tərəflərin razılaşmasında başqa məzənnə nəzərdə tutulmayıbsa, bu zaman ödəniş gününə olan rəsmi kursu əsas götürülür. Problemi "dondurmaq"dansa, onun həlli daha vacibdir. Borc məsələsi gələcəkdə problemə çevrilə bilər. Nəzərə almaq lazımdır ki, banklar da oxşar addımı xarici valyuta əmanətçilərinə qarşı ata bilər. Bu məsələdə Konstitusiya Məhkəməsi orta konkret mövqe qoymalıdır. Ən yaxşısı isə qanunvericiliyə dəyişiklik edərək maddələr dəqiqləşdirilməlidir.

Konstitusiya Məhkəməsi Azərbaycanda dollarla götürülmüş kreditlərin hansı məzənnə ilə qaytarılmasına aydınlıq gətirmək üçün mayın 7-nə iclas təyin edib. Böyük ehtimalla qərar bankların xeyrinə olacaq. Dövlət əhaliyə dəyən zərəri aradan qaldırmaq üçün istehlak krediti üzrə əhalinin payına düşən zərəri öz üzərinə götürməlidir. Söhbət təxmini hesablamalara görə, 380 milyon manat vəsaitdən gedir".

❑ **Röya RƏFİYEVA**

# Ümid Partiyası Ali Məclisinin növbəti sessiyası keçirildi

## **İqbal Ağazadə:** "Xəbərdarlıq etmişdik ki, Azərbaycan bir gün Holland sindromu ilə üz-üzə qalacaq"





**Şənbə günü Ümid Partiyasının Mərkəzi Qərargahında Ümid Partiyası Ali Məclisinin növbəti sessiyası keçirildi. Sessiyada ölkədəki ictimai-siyasi vəziyyət və partiyanın parlament seçkilərinə hazırlığı ilə bağlı partiyanın sədri İqbal Ağazadənin məruzəsi dinlənildi. Sonra Anar İsayev partiya sədrinin qaçqınlarla və məcburi köçkünlərlə iş üzrə müavini vəzifəsinə təsdiq olundu. Təşkilati məsələlərə baxıldı. Tovuz rayon şöbəsinin sədri Nağıyev Emin Şahvələd oğlu və Binəqədi rayon şöbəsinin sədri Hacıyeva Ulduza Qurban qızı Ali Məclis üzvü təsdiq olundular. Partiya sədrinin müavini təyin olunması ilə əlaqədar Anar İsayev Ali Məclis sədrinin müavini vəzifəsindən azad edildi. Tamilla Məmmədova partiyanın Ali Məclis sədrinin müavini seçildi.**

### Tamilla Məmmədova partiyanın Ali Məclis sədrinin müavini seçildi





Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadənin partiyanın Ali Məclisindəki çıxışını ixtisarla oxuculara təqdim edirik:

**Dəyərli partiyadaşlar!**

Vətənimiz Azərbaycanın problemləri günü-gündən azalmır, əksinə, çoxalır. Həqiqətən də bu iqtidar qaldıqca problemlərimiz dərinləşir, bir az da artır. Neftin bizə verdiyi imkanlardan, iqtisadi inkişafdan yararlanaraq ölkəmizi Avropanın, demokratik dünyanın bir parçası etmək, iqtisadi vəziyyətimizi yaxşılaşdıraraq Cənubi Qafqazın gerçək liderinə çevirmək, neftin bizə verdiyi üstünlüklərdən yararlanaraq Azərbaycanın çoxşaxəli iqtisadiyyatını yaratmaq və o, iqtisadi strukturlar vasitəsilə xalqımızın sosial rifah halını yaxşılaşdırmaq, ölkənin potensialını gücləndirmək əvəzinə, təəssüflər olsun ki, günü-gündən geri gedirik.

Sosial-iqtisadi vəziyyət siyasi vəziyyətə çox bağlıdır. Siyasi vəziyyəti də şərtləndirən ən böyük amillərdən biri insanların sosial-iqtisadi durumudur. Bu gün Azərbaycan insanının sosial-iqtisadi vəziyyəti əvvəlki illərdən qat-qat pisləşib. Təbii ki, bunu dünyada baş verən iqtisadi böhranla, neftin qiymətinin aşağı düşməsi ilə, bundan əvvəlki böhranla əlaqələndirirlər. Yəqin ki, televiziya ekranlarında, KİV-in hökumətə yaxın qollarında hiss etdiyiniz bir təbliğat var. Hətta Amerikada insanların öldürüldüyünü, Avropanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatının çökdüyünü, insanlarla necə sərt davranıldığını, ərəb ölkələrində hansı problemlər yaşandığını, Ukrayna və Rusiyadakı çətinliklər və s... sonda "çiçəklənən" Azərbaycan iqtisadiyyatı, bunların fonunda nümayiş olunur ki, insanlar psixoloji cəhətdən bu tipli problemlərin caynağından sanki özlərini qurtulmuş kimi hiss etsinlər. Əslində gerçək olan bu deyil. KİV-lərdə bunun anti-Amerikan əhval ruhiyyəsi olduğu fikrinə rast gəlirəm. Yox, bu əslində Azərbaycandakı çətin vəziyyəti pərdələmək üçündür. Digər ölkələrdən- Azərbaycanın örnək hesab edəcəyi ölkələrdən guya nümunələr gətirməklə bizim daha yaxşı yaşadığınızı göstərmək üçündür. Guya hər yerdə polis insanları qırır, mitinqə çıxanları əzir, dəhşətli vəziyyətdir, iqtisadi vəziyyət olduqca çətindir. Bəli, iqtisadi vəziyyətin çətin olduğu yerlər də var. Lakin Azərbaycanın bu qədər ehtiyatları ola-ola vətəndaşları nədən ehtiyac içərisində yaşamalıdır?

Biz hələ neçə il bundan əvvəl demişdik ki, nefti allah verib. Bu hakimiyyətin uğuru deyil. Bu istiqamətdə Milli Məclisdə çıxışımız da olmuşdu. Xəbərdarlıq etmişdik ki, Azərbaycan bir gün Holland sindromu ilə üz-üzə qalacaq. Azərbaycan bu gün dünya bazarında neftin qiymətindən asılı salınırsa, sabah dünya bazarında neftin qiymətini tənzimləməyən Azərbaycan hakimiyyəti vətəndaşların yanında üzüqara qalacaq. Bu gün həmin vəziyyət gəlib çıxıb. Manatın Azərbaycan iqtisadiyyatına bağlılıq elementini tapmaq mümkün deyil. Manatın qiymətini şərtləndirən tək varlıq neftin dünya bazarındakı qiymətidir. Elə etmək lazım idi ki, heç olmasa hər bir manat 1 qəpik gəlir gətirsin. Sizin xərclədiyiniz, investisiya qoyduğunuz bir manat 1 qəpik gəlir gətirməyəcəksə sabah vəziyyətiniz olduqca ağır olacaq. Bu bizim 2006-cı ildən mütəmadi etdiyimiz çağırışlardan biridir.

Çox təəssüflər olsun ki, Azərbaycan hökumətinə, Milli Banka heç kim sual verməyib ki, nədən ixracı idxalından artıq olan bir dövlətdə manat qiymətdən düşür. Əgər, idxalımız ixracımızdan çox olsaydı manatın ucuzlaşması məntiqli olardı. Yəqin ki, növbəti parlamentin sessiyasında biz bunu səsləndirəcəyik. Hələlik bizi aldadırlar ki, neft qiymətdən düşür. Razıyam. Siz manatın qiymətdən düşməsi üçün ölkədən dollar çıxarılmasına sərf olunan idxal əməliyyatlarını ixracdan çox həyata keçirmirsiniz, ixrac həyata keçirirsiniz, dollar gətirirsiniz. Manat niyə qiymətdən düşməlidir, heç düşündünüzmü? Kimlər burdan qazanır, necə qazanırlar və nə qədər qazanırlar?

Bu gün daxili bazarda 11 milyard müsbət var. Bu qədər müsbətin olduğu halda manatının qiymətdən düşməsinə səbəb nə ola bilər, neftin düşməsimi?

Ona görə də əslində manat qiymətdən düşməməli idi. Demək manatı qiymətdən salan başqa amillər var. Hökumət bu amilləri ciddi şəkildə təhlil etməlidir. Hökumət deyir ki, keçən 3 ay ərzində manatın kursunu saxlamaq üçün aşağı-yuxarı 2.3 milyard pul xərcləyib. Sual olunur, əgər 2.3 milyard manatın pulun qiymətdən düşməsinin qarşısının alınmasına yox, indeksasiyaya xərclənmiş olsaydı əhali nə qazanardı? Hökumət bu rəqəmləri açıqlamağa borcludur. Hökumətin vətəndaş qarşısında öhdəliyi var. Amma qanunda kifayət qədər boşluqlar saxlayırlar ki, bu tip məsələlərdə istifadə etsinlər. Xüsusilə bank sektorunda. Prezident seçkiləri dönəmində əhalinin banklara nə qədər borcu olduğunu çıxışımda demişdim. Qeyd etmişdim ki. əhalinin bu gün bankalara 700 milyondan artıq borcu var. Həmin dövrdə əhalinin banklara qoyduğu depozit 6.5 milyard idi. 6.5 milyard depozitin böyük bir qismi manatla idi. Bu gün uğursuz cəhd edirlər, inandırmağa çalışırlar ki, depozitlərin böyük bir qismi vaxtından əvvəl və yaxud devalvasiyaya az qalmış dollara çevrilib. Yanlışdır. Heç kim də depozitdə olan manatını dollara çevirməyib və böyük əksəriyyət bundan ziyan çəkib. Vətəndaşın cibinə girməyə kimsənin haqqı yoxdur.

Milli Bankın verdiyi qərar da qeyri-iş günündə verildiyi üçün hüquqi cəhətdən doğru qərar deyil. Bütün bu tipli qərarlar iş günü verilməli, vətəndaşın rəsmi strukturlardan informasiya almaq kimi bir hüququna ciddi şəkildə əngəl yaradılmamalıdır. Sual olunur, sən 5 gün işləmişdinsə və sənin pis bir niyyətin yox idisə vətəndaş bank münasibətlərində vətəndaşın pulunu geri götürmək kimi bir anlayışının qarşısını bilərəkdən almaq üçün nədən şənbə günü qərarı verirsiniz? Çünki iki gün bank işləməsin və əhali ilə bank münasibətləri gərginləşməsin.

O cümlədən Mərkəzi Bank haqqında Azərbaycan Respublikasının Qanununun 28-ci maddəsi kobud surətdə pozulub. Qanunda qeyd olunur ki, hər ilin sonuncu iş günü Mərkəzi Bank vətəndaşa, o cümlədən, dövlət strukturlarına gələn növbəti il üçün ölkə valyutasının perspektivləri və prioritetləri barədə məlumat verməlidir. 30 dekabr 2014-cü ildə Azərbaycan Mərkəzi Bankının prezidenti əhaliyə və KİV vasitəsilə məlumat verib. Gələn ilin əsas prioriteti manatın kursunun sabit saxlanılmasıdır. İl boyu Mərkəzi Bankın rəhbərliyinin verdiyi informasiya qorunmalı idi. Çünki Bankın informasiyasına uyğun vətəndaş pul-kredit siyasətini planlaşdırıb, valuta etiyatlarını, malını müəyyənləşdirib. Buna görə də bir gecənin içərisində 34 % devalvasiya , manatın ucuzlaşdırılması əslində vətəndaşın cibinə girməkdir. Hökumət bunlara görə vətəndaşa konpensasiya verməlidir.

Qiymətlər artmayacaq, sosial iqtisadi vəziyyət dəyişməyəcək deyirlər. Azərbaycanda ərzaq məhsullarının rəsmi rəqəmlərə görə guya 70%-ə qədəri ölkə daxilində istehsal olunur. Bu rəqəm yalnışdır, vətəndaşları aldatmağa yönəlik informasiyadır. Azərbaycanda maksimum 30-33% ərzaq məhsullarının istehsalı var. Qalan hamısı sadəcə ayrı-ayrı şirkətlər və inhisarçı qruplar tərəfindən xaricdən gətirilib, burada qablaşdırılır. Adı da olur ki, Azərbaycan istehsal edir və elan edirlər ki, daxildə istehsal olunan malın qiymətləri qaldırılmasın. Bu mallar gömrükdən keçərkən rüsum ödənilir və gətirilən mallar da dollarla alınır, manatla deyil. Bu halda ərzağın qiyməti təbii olaraq artacaq. Qiymətlərin inzibati yollarla saxlanması mümkün deyil.

Hökumətin isə istər hüquqi, istərsə fiziki şəxsə sən bunu bu qiymətə satma demək kimi bir funksiyası yoxdur. Hökumətin funksiyası bazarda sağlam rəqabət mühiti yaratmaqdır. Bununla qiymətlərin təbii tənzimlənməsinə nail olmaq olar. Bunun üçün inhisarçılıq aradan qaldırılmalıdır. Hesab edirəm ki, hökumət təkcə Anti-inhisar qanunu qəbul etməməli idi, həm də «Rəqabət Haqqında» qanun qəbul etməli idi. Təbii, rəqabətin hansı formada həyata keçirəcəyini tənzimləyən bir qanun olmalı idi ."

**Qeyd edək ki, partiya sədri çıxışında son dövrlər baş tutan iqtidar müxalifət dialoquna və partiyanın parlament seçkilərinə hazırlığına da toxundu. Qeyd etdi ki, regionda və dünyada baş verən siyasi proseslərin fonunda, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin qorunması, ölkənin demokratikləşməsi üçün bu dialoq vacibdir. Ümid Partiyası həmişə bütün tərəfləri barışa, dialoq, milli həmrəyliyə çağırıb və bunu tərəfdarı olub. Bu günə qədər verdiyimiz bəyanatları, etdiyimiz təklifləri, çağırışları və tənqidləri dialoq zamanı bir başa hakimiyyət nümayəndəsinin özünə deyə bilirk.**

**Sədr seçkilərə hazılığın vəziyyəti və görülən işlərlə bağlı məclis üzvlərini məlumatlandırdı, qarışıda duran vəzifələr və görüləcək işlərlə bağlı tapşırıq və tövsiyələr verdi.**

# Partiya sədri Ümid funksionerini təbrik etdi



**Aprelin 13-də Ümid Partiyasının İşlər İdarəsinin müdiri, İdris Hüseynovun 65 yaşı tamam olur. Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə İdris bəyi yubiley münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**Hörmətli İdris müəllim!**

**Sizi 65 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm! Hər şeydən öncə Sizə Uca Tanrıdan cansağlığı, mənalı ömür, firavan həyat, siyasi və şəxsi fəaliyyətinizdə uğurlar arzulayıram.**

**Siz hər zaman üzərinizə düşən vəzifəyə məsuliyyətlə yanaşan, cətinlikdən, siyasi təzyiqdən cəkinməyən, başqalarına nümunə ola biləcək bir şəxssiniz. Siz əsil insana məxsus olan bir çox xüsusiyyətləri- dürüstlüyü, səmimiliyi, alicənablığı və cəsarəti özündə birləşdirən əsil türk kişisi, dəyərli dost, ləyaqətli ailə başçısısınız. Vaxtı ilə fransız yazıçısı Aleksandr Dumanın azərbaycanlılar haqda dediyi -"...möhürə ehtiyac yoxdur, onların sözü kifayətdir" ifadəsi Sizin şəxsinizdə öz təsdiqini tapır.**

**Biz Ümid Partiyası olaraq, işğal olunmuş torpaqlarımızın azad olunması, dövlətimizin güclü, xalqımızın güzəranının yaxşılaşdırılması, ölkəmizdə ədalətli cəmiyyətin qurulması, demokratik idarəçilik prinsiplərinin hakim olması üçün çalışırıq. İnanırıq ki, xalqımızın böyük əksəriyyətinin arzu və istəyi olan bu ideyaları, birlikdə Ümid bayrağı altında gerçəkləşdirəcəyik. Çox şadam ki, Siz də 10 ildir bu yolda yorulmadan, usanmadan, gənclik eşqilə çalışırsınız.**

**Hörmətli İdris müəllim, bir daha Sizi 65 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Uca Tanrıdan Sizə can sağlığı, uzun ömür və bütün işlərinizdə uğurlar arzulayıram.**

YENİ MÜSAVAT
N 78 (6106) 14 aprel 2015

# Bütün qohumların şeyxi



Zamin HACI
zaminhaci@gmail.com

**Bakıda polis rəislərindən birinin oğlu cinayət törədibdir, atası isə bunu tutub içəri basıbdır. Əslində bu, oğulbalanın (nostalji oldum lap) ilk pis əməli deyildi, qabaqlar da uşağın ipini yığa bilmirdilər, görürdün küçədə zənən xeylaqlarını basıb döyübdür, ya nəsə ələm-qələm eləyibdir. Ancaq görünür, rəis daha boğaza yığılıbdır, görüb poqon əldən gedir, uşağı girov qoymuşdur.**

Hazırda rəisin hərəkətini tərənnüm edən dastanlar yazılır. Hətta ola bilər rəisi deputat seçək. Muğam festivalında münsiflərin üzvü olsun. Elgizin verilişində ailə məsələləri üzrə ekspert qoyulsun. Misal üçün, deputat Çingiz Qənizadə müəllim bu haqda yazdığı poemada rəisin hərəkətini “qanunun aliliyinə hörmət” adlandırmışdır. Deyir başqa vəzifəli şəxslər də uşaqları qanunu pozanda özləri tutub zindana salsınlar.

“Hərə öz uşağına yiyə dursun” siyasəti alqışlanmalıdır, ancaq dövlətçiliyimizə ziddir. Çingiz müəllimin bu adi olayı şişirtməsindən belə çıxır ki, indiyə qədər rəis və məmur uşaqları kef çəkirmiş. Burda örnək olacaq heç zad yoxdur. Bəlkə Anar müəllim də bu hadisədən təsirlənib “Rəisin oğlunun 5-ci cinayətinin altıncı mərtəbəsi” romanı yazsın? Lazım deyil. Dövlətçiliyin görməmişi olmayaq. “Görməmiş Avropa Oyunları keçirdi, dartdı stadionun tribunasını qopartdı” - bu haqda ata sözü də vardır. Əslində bu sabahkı yazımın anonsudur, niyə bura girdi, heç özüm də bilmədim. Həmişəki kimi, məni yola verin.

Ancaq bu son hadisədə xalqın diqqətini cəlb edən başqa önəmli detal var idi, bu da xuliqan balanın polkovnik balası olmaqla yanaşı şeyxülislamın bacısı oğlu olmasıydı. Qısa desək, Allahşükür müəllim bu rəis oğlunun dost-doğmaca dayısıdır.

Əlbəttə, dayı bacıoğluya cavabdeh deyildir, amma yaxşı olardı uşağın tutulub polisə verilməsində rəis atası ilə yanaşı molla dayısı da iştirak edəydi. Bunu zarafat üçün yazdım, şeyximiz bəyəm adam tutandır? Uzağı uşağa ağıl duası yaza bilər. Ancaq bir az da pis çıxır, çünki sabah şeytan xalqın ürəyinə girər, deyər ki, ayə, nə təhər olur, bu adam öz bacısı oğlunu haqqın yoluna döndərə bilmirsə, bizi hara aparacaqdır? Yəni hüquqi baxımdan olmasa da, mənəvi baxımdan şeyxin bu işdə məsuliyyəti vardır.

Ümumiyyətlə, mənfi, neqativ haldır ki, bizim uca şeyximizin ismi-şərifi həmişə elə bu cür pis şeylərdə hallanır, özü də bunları eləyənlər adətən onun çoxsaylı qohum-əqrəbası olur. Halbuki, bütün dünyada şeyx, din xadimi, keşiş, dalay-lama, nə bilim, canım sənə desin, Roma papası kimi bu cür adları daşıyanlar adətən maraqlı söhbətləri, kitabları-filanı ilə yadda qalır, gündəmə gəlirlər. Misal üçün, sən heç indiyəcən “Vaşinqton Post” qəzetində belə yazı oxumusan ki, papa 15-ci Benediktin qardaşı oğlu Luici içib keflənib, Vatikanda arvadları döyübdür? Oxumamısan. *(Bəlkə də sən heç ingiliscə bilmirsən)*. O cümlədən Dalay Lama-nın qudası Hindistan parlamentində deputat olub Tibetdə torpaq alveri eləmir. Tibetdə “Sonalar sonasının anası” şadlıq sarayı olmadığından yazıq heç evlənməyibdir, qudası yoxdur.

Qısası, Allahşükür müəllimin din haqda hansısa bir maraqlı, aforizm sayılacaq fikrini tapan, kitabını oxuyan adama “1-ci dərəcəli Ehsana xidmət” ordeni mükafat veriləcəkdir. 35 il şeyx işləyəsən, kitab cəhənnəm, ortada bir dənə maraqlı cümlən də olmaya - bunun adı nədir? Prinsipcə, mən şeyxin cümləsini istəmirəm, haqqın yolunu o elə düz tapıbdır, çünki dindən kitab yazmağın bir mənası da yoxdur, bu, bir kitabdan başqa kitab tanımayan təlimdir. Sadəcə, mövqeyimi yazdım. Üstəlik, ola bilər şeyx Sokrat kimi adamdır, Sokratın da kitabı yox idi. Taleləri oxşamasın, İlahi, amin!

Sonda bir məzəli faktı da yazım, oxuyun: Allahşükür müəllimdən qabaqkı şeyxülislamımız Mirqəzənfər İbrahimov molla olana qədər rəsmi şəkildə... Sovet milisində *(indiki polisdə)* işləyirmiş.

# Qərib Məmmədov və Etibar Pirverdiyevin başı dərddə

## Fəzail Ağamalı: “Yaranmış situasiya ilə bağlı dövlət qurumları müvafiq addımlar atacaq”

**Aprelin 10-da prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün yekunlarına həsr olunmuş iclasında bir sıra qurumların ünvanına sərt tənqidlər səslənib. Dövlət başçısı “Azərenerji”nin rəhbəri Etibar Pirverdiyev və Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sabiq sədri Qərib Məmmədovun fəaliyyətini kəskin tənqid edib.**



Qərib Məmmədov



Etibar Pirverdiyev

### Dövlət qurumu Hesablama Palatasının məruzəsindəki nöqsanları danır, “Azərenerji” məsuliyyəti “Azərişıq”ın üzərinə atmaq istəyir; “Azərişıq”dan da reaksiya gəldi

**Prezident bildirib ki, torpaqların elektron uçotu və qeydiyyatı kənd təsərrüfatının gələcək inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir:** “Biz buna nail ola bilsək, onda həm şəffaflıq olar, həm də biz dəqiq biləcəyik ki, nəyimiz var. Çünki bəzi hallarda tərtib olunan xəritələr həqiqətlə uzlaşmır. İndi bu məsələ aydınlaşdırılır, təftiş edilir. Verilən pay torpaqları, ayrılan sahələr həqiqəti əks etdirmir. Peykdən əldə edilən görüntülər xəritədə göstərilən görüntülərlə üst-üstə düşmür. Bu, çox ciddi məsələdir. Vaxtilə bu sahədə böyük səhvlər buraxılıb. Ona görə biz indi hər şeyi yenidən tənzimləməliyik”.

**İ.Əliyev “Bakıelektrikşəbəkə”nin bazasında yaradılan “Azərişıq” ASC-dən bəhs edərkən bildirib ki, bu strukturun yaradılmasında məqsəd regionlarda da elektrik enerjisi ilə təchizatı Bakının səviyyəsinə qaldırmaqdır. Ölkə başçısı əlavə edib ki, Bakıda elektrik enerjisi ilə təchizat yüksək səviyyədə olsa da rayonlarda bu sahədə ciddi problemlər var:** “Bəzi hallarda mənə yerli icra hakimiyyəti orqanlarının rəhbərləri çox müsbət mənzərə təqdim etməyə çalışırlar. Ancaq reallıq ondan ibarətdir ki, bölgələrdə elektrik enerjisi ilə bağlı vəziyyət istədiyimiz səviyyədə deyil... Rayonlarda, kənd yerlərində bir balaca külək əsən kimi dirəklər aşır, işıq verilməsi dayandırılır. Buna dözmək olmaz. Mən dəfələrlə məsələ qaldırmışdım, demişdim, göstəriş vermişdim ki, gedin bu sahəni düzəldin... Əminəm ki, "Azərişıq" yaxın zamanlarda bütün şəhər və rayonlarımızda elektrik enerjisi ilə təminatı Bakının səviyyəsinə qaldıracaq".

Ölkə başçısının bu tənqidi ilə yanaşı Hesablama Palatası 2014-cü ilin hesabatında sözügedən sahələrdəki ciddi nöqsanlar aşkarladığını açıqlayıb. Aprelin 14-də bu faktlar Milli Məclisdə müzakirəyə çıxarılacaq. Qurumun hesabatında deyilir ki, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və tabeliyində olan qurumlara dövlət büdcəsindən ayrılan vəsaitlərin istifadəsinə dair audit aparılıb. Müəyyən edilib ki, komitənin aparatı üzrə büdcə proqnozları tərtib edilərkən qanunvericilik aktlarının tələblərinə əməl edilməyib və xərc maddələri üzrə əhatəli iqtisadi əsaslandırma və hesablamalar aparılmayıb. Komitənin tabeliyində olan qurum tərəfindən malların (iş və xidmətlərin) satınalınması zamanı müvafiq qanunvericiliyin tələblərinə riayət edilməyərək satın alınacaq malların ehtimal olunan qiyməti müəyyənləşdirilməyib, icra hakimiyyəti orqanının razılığı alınmadan müqavilə məbləği artırılıb, malların tender təklifi qiymətindən baha qiymətə alınması səbəbindən icraçıya artıq vəsait köçürülüb.

Hesabatda E.Pirverdiyevin fəaliyyəti barədə qeyd edilir ki, 2011-2013-cü illər üzrə “Bakıelektrikşəbəkə” ASC-yə ayrılan vəsaitlərin istifadəsinə dair audit aparılıb. Müəyyən edilib ki, müəssisə tərəfindən Bakının enerji təchizatı üzrə 2011-2013-cü illəri əhatə edən investisiya proqramları hazırlanaraq icra hakimiyyəti orqanlarına təqdim edilib. Lakin növbəti büdcə ili və sonrakı 3 il üçün vəsaitlərə olan tələbatın düzgün müəyyənləşdirilməsi üçün əsaslandırılması və müvafiq dövlət proqramlarındakı tədbirlərlə əlaqələndirilməsi tam təmin edilməyib. 2011-13-cü illərdə Bakının və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək Tədbirlər Planında bir neçə tədbir qismən icra olunub, cəmiyyətin investisiya proqramlarında nəzərdə tutulmayan obyektlərdə işlər yerinə yetirilərək proqramlardan kənarlaşmalara yol verilib, 2 halda yarımstansiyaların tikintisi, 3 halda yarımstansiyalar arasında yüksək gərginlikli kabel xətlərinin çəkilişi və 8 halda transformator məntəqələrinin yenidən qurulması obyektlərinin layihə smeta sənədləri dövlət ekspertizasından keçirilməyib.

Əsas vəsaitlərin, nəqliyyat vasitələrinin yenilənməsində istehsalat tələbatı tam nəzərə alınmayıb, tikintisi və yenidən qurulması başa çatdırılan və faktiki istifadə olunan obyektlərin müvafiq qaydada istismara qəbulu təmin edilməyib, əsas vəsaitlərin, hava ilə aparılan ötürücü xətlərin dirəklərin üzərində inventar nömrələnməsi həyata keçirilməyib, dövlət büdcəsinin əsaslı vəsait qoyuluşundan ayrılan vəsait cəmiyyətin gəlirlərinə aid edilərək əlavə dəyər vergisi hesablanıb, qalan məbləğ cəmiyyətin maliyyə nəticələrində əks etdirilərək mənfəət vergisinə cəlb edilib.

**İqtisadçı alim Qubad İbadoğlu bizə bildirdi ki, həqiqətən də “Azərenerji”nın sürətlə artan investisiya öhdəlikləri (4 milyard dollardan çox) və vergi borcları (1 milyard dollar manatadək) onun hazırkı situasiyada maliyyə sabitliyini daha da pisləşdirib:** “Eyni zamanda "Azərenerji"nin SOCAR-a borcları da durmadan artır, artıq 300 milyon manatı ötüb. Bu halda öhdəliklərin yerinə yetirilməsi son nəticədə dövlətin maliyyə ehtiyatları hesabına baş verir. Odur ki, bu hala gəlib çıxan şirkətlə bağlı Hesablama Palatasının yoxlama aparması əsaslıdır".

**AVP sədri, deputat Fəzail Ağamalı gümanlar üzərində fikir söyləmək istəmədiyini vurğuladı:** “Hər halda, prezident tənqidi fikirlərini söylədi, reallığı ortalığa qoydu. Yaranmış situasiya ilə bağlı dövlət qurumları müvafiq addımlar atacaq”. **F.Ağamalı bu faktların parlamentdə ciddi müzakirə mövzusuna çevriləcəyinə inanmır:** “Hər halda, ölkə prezidenti zaman-zaman yeri gəldikcə ayrı-ayrı sahələrdə buraxılmış nöqsanların üzərində birmənalı olaraq dayanır, onların aradan qaldırılması üçün konkret addımlar da atmaqdadır. Prezidentin sonuncu müşavirədə də söyləmiş olduqları kifayət qədər ciddi fikirlərdir və həmin fikirlərə uyğun olaraq konkret addımlar atılacaq”. **Məmurların ölkə başçısının tənqidlərindən əksər hallarda nəticə çıxarmamasına gəldikdə, AVP sədri dedi ki, bu, xoşagələn hadisə deyil:** “İllərdir ki, bununla bağlı müxtəlif səviyyələrdə fikirlər söylənilib. Hər zaman bir az yağış yağan kimi Lerikdə elektrik dirəkləri aşır, naqillər sıradan çıxır. Bu il qarın yağması, yağışın davamlı olması ilə əlaqədar seçildiyim Salyanda, onun kəndlərində də xoşagəlməz hallar yaşandı, neçə gün kəndlər işıqsız qaldı. Əlbəttə, bütün bunlara qarşı qətiyyətli tədbirlər görülməlidir. Uzun illərdən bəri qalan, çürüyən köhnə dirəklər əvəz olunmalı, naqillər təzələnməlidir. Bunun üçün "Azərenerji"yə kifayət qədər vəsait də ayrılır, insanlardan vəsait də yığılır. O yığılan pulların özü ilə işıq təsərrüfatının yenilənməsi üçün nəinki kifayət edir, hətta artıqdır. Mən əminəm ki, yeni yaradılan “Azərişıq”ın rəhbəri, peşəkar, ciddi məmur kimi tanınan Baba müəllim bütün bunların öhdəsindən gələcək".

Həbs təhlükəsi ilə üzləşdiyi deyilən Q.Məmmədovla danışmaq istəsək də, bu, mümkün olmadı.

**Fevralın 9-da prezident sərəncamı ilə yaradılan “Azərişıq” QSC-yə qədər rayonların enerji ilə təchizatını həyata keçirən “Azərenerji” QSC-nin mətbuat xidmətinin əməkdaşı Ələkbər Baxşəliyev “Yeni Müsavat”a dedi ki, bu barədə mətbuatda yazıları oxuyub:** “Amma orda birmənalı şəkildə "Azərişıq"dan yazılır. Yazı xatirinə qatmaqarışıq şeylər yazıblar. Hesablama Palatasının hesabatında bizim haqqımızda heç nə yoxdur". **Bəs qurum ölkə prezidentinin elektrik enerjisi təchizatı ilə bağlı tənqidlərini bölüşürmü? Ə.Baxşəliyev:** “Dövlət başçısının dediklərinə heç kəs şərh verə bilməz. Rayonlar artıq "Azərişıq"a təhvil verilib, bu məsələlərin bizə aidiyyəti yoxdur. Prezident birmənalı dedi ki, biz islahatları həyata keçirdik, bu işləri “Azərişıq”a həvalə etdik".

**“Azərişıq”dan isə “Yeni Müsavat”a bildirildi ki, yeni yaradılan qurum hələ nizamnaməninin təsdiqini gözləyir: “Bizim heç bir borcumuz yoxdur”.**

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 78 (6106) 14 aprel 2015



# Putinin 24 aprel seçimi nə olacaq?

## Zahid Oruc: "Putinə tarixi ölülərinə ağlayan bir xalqın gözünün suyunu qurutmaq lideri obrazı daha çox faydalıdır"

**Rusiya prezidenti Vladimir Putinin 24 apreldə saxta soyqırımın 100 illiyi ilə əlaqədar Ermənistana gedəcəyi barədə bir müddət əvvəl yayılan məlumatlar artıq təsdiqlənmir. Putinin mətbuat katibi Dmitri Peskovun bu barədə mətbuata verdiyi açıqlamadan sonra erməni ekspertləri Peskovin sözlərini "Ermənistanın sifətinə vurulan sillə", Moskvanın Ermənistanla Türkiyə arasında seçimdə üstünlüyü ikinciyə verməsi və öz forpostunu aşağılaması, Türkiyənin "ayağına verməsi" kimi qiymətləndirirlər.**

Hesab olunur ki, xüsusilə də Serj Sərkisyanın son zamanlar verdiyi müsahibələrdə "gah nala, gah mıxa vurması" Moskvada sərt reaksiya doğurub, bu mənada Putin əlaltısını cəzalandırmaq istəyib. Ermənilər ehtiyat edirlər ki, İrəvan səfərindən imtina xətti götürən Rusiya "Çanaqqala mərasimlərində Rusiya ən yüksək səviyyədə təmsil olunacaq". Təbii ki, Rusiya bölgədə nəhəng iqtisadi əlaqələrə malik Türkiyəni incitmək istəməzdi. Lakin hələlik vəziyyətin qeyri-müəyyənliyi konkret bir rəyə gəlməyə imkan vermir.

**Deputat, Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a dedi ki, Putinin hazırkı beynəlxalq konfrontasiya şəraitində bütün addımları Rusiyanın məruz qaldığı təcridetmədən çıxarılmasına yönəlib:** "MDB məkanındakı müttəfiqlərinin zəif səsi, ikili oyunları fonunda Kreml hər bir addımını siyasi nəticələrini hesablamağa məcburdur. Ona görə bir ay əvvəl informasiya vasitələrində "erməni soyqırımı"nın 100 illiyi tədbirinə qatılacaq dövlət başçılarının sırasına Rusiya prezidentin adını yazanda buna şübhə ilə yanaşan çox az insanlardan biriydim. Rəsmi Kreml məlum "soyqırım" yubileyinin dünya erməniçiliyinin həyatında hansı rolu oynadığını yaxşı bilir. Digər tərəfdən, Qərblə savaşan bir ölkənin Türkiyə ilə münasibətlərini korlamasının da hansı iqtisadi və geopolitik nəticələr doğuracağının fərqindədir". **Z.Orcucun sözlərinə görə, Rusiya 24 apreldə elə mövqe sərgiləyəcək ki, bir tərəfdən ermənilərin Qafqazda təhlükəsizliyinin qarantı olduğunu nümayiş etdirsin, o biri yandan erməni ideoloqlarının və lobbi birliklərinin sərgilədiyi antitürk isterikasından bir az kənarda dayandığını da sübuta yetirsin:** "Hər halda, Putin Roma papasının səhvini təkrarlayaraq ermənilər üzərindən yenidən istər dini, istərsə də milli düşmənçiliyi qızışdıran mövqe tutmayacaq. Putinə indi tarixə ölülərinə ağlayan bir xalqın gözünün suyunu qurutmaq və tarixən düşmən olan iki xalqın barışında maraqlı olan lider obrazı daha çox faydalıdır".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə bu fikirdədir ki, Putinin 24 apreldə İrəvana gedib-getməməsi fərqli situasiyalara yol açacaq:** "Putin 24 apreldə İrəvana gedərsə, bu, Kremlin Azərbaycana və Türkiyəyə xoş olmayan mesajı olacaq. Azərbaycan və Türkiyə saxta soyqırım iddialarını qəbul etmirlər. Bakı və Ankara bu məsələdə İrəvana dəstək verən, "soyqırımın" 100 illik tədbirlərinə qatılacaq ölkə başçılarına da tənqidi yanaşacaqlar. Ona görə də Putin üçün tərəzinin bir gözündə Ermənistandırsa, o biri gözündə Türkiyə və Azərbaycandır. Putin özü üçün müəyyənləşdirməlidir ki, tərəzinin hansı gözü ağır gəlir. Ağır gələn tərəf bizə və kənar müşahidəçilərə bəllidir, sadəcə, Putin buna qərar verməlidir. Yox, əgər Putin İrəvana getməzsə, özünün əvəzinə baş nazir Dmitri Medvedyevi Ermənistan paytaxtına göndərərsə, bu, istər-istəməz Türkiyə və Azərbaycanda müsbət qarşılanacaq". **E.Şahinoğlu qeyd etdi ki, Putin 24 apreldə Çanaqqaladakı mərasimə də qatılmayacaq:** "Ancaq Bakı və Ankaranın ümidi onadır ki, Kreml sahibi Çanaqqaladakı tədbirə qatılmırsa, balansı qorumaq naminə eyni tarixdə İrəvana da getməməlidir. Putinin 24 apreldə İrəvana getməməsi Ermənistan hakimiyyətinə və cəmiyyətinə ciddi zərbə olacaq. Ermənistanın vassal dövlət olduğu bir daha özünü göstərəcək. Yəni Ermənistan Rusiyadan o qədər asılı dövlətdir ki, Kreml sahibi ermənilər üçün ən əziz gündə də vassallarını saymır. Buna baxmayaraq, Putinin 24 apreldə İrəvana gedəcəyini ehtimal edirəm. Birincisi, bununla Putin göstərmək məcburiyyətindədir ki, Cənubi Qafqazda onun strateji müttəfiqi Ermənistandır. İkincisi, Putin İrəvana getməklə Bakı və Ankaraya mesaj verəcək ki, Azərbaycan və Türkiyə hakimiyyətlərinin bu məsələ ilə bağlı təzyiqlərini qəbul etmir. Üçüncüsü, Putinin İrəvan seçimi həm də onunla bağlı olacaq ki, Ermənistan nəbadə Rusiyanın təsirindən çıxıb Qərbin siyasi və iqtisadi institutlarına inteqrasiya haqqında düşünsün".

**Politoloq onu da vurğuladı ki, Putin 24 apreldə İrəvanı seçərsə, gərək təəccüblənməyək:** "Əslində hadisələrin bu istiqamətdə inkişafının Türkiyə-Azərbaycan ittifaqına xeyri var. Məsələ burasındadır ki, Krımın işğalına və Ukraynada separatçılığı dəstəyinə görə Putin Qərblə münasibətləri gərginləşdirib. Qərbin özünə hörmət edən heç bir lideri Putinin əlini sıxmaq, onunla eyni tədbirdə görünmək istəmir. Məsələn, bu səbəbdən Qərbin onlarla lideri Moskvada Böyük Vətən müharibəsinin qələbəsinin 70 illik yubiley mərasiminə qatılmayacaq. Eləcə də bu insanlar 24 apreldə İrəvanda Putinlə eyni sırada görünmək istəməzlər".

❑ **E.PAŞASOY**

# 24 aprellə bağlı kritik 10 gün



## Putinin ardınca Obama da erməniləri məyus elədi; 24 apreldə İrəvana ABŞ-dan simvolik nümayəndə heyəti gələcək; saxta genosidlə bağlı Konqresdən yeni qətnamə keçirmək cəhdi fiasko oldu; Ankara diplomatik həmlələri davam etdirir...

**Saxta genosid iddialarının 100 illiyi ilə bağlı kritik on günlük başlayıb. 24 aprel yaxınlaşdıqca erməni siyasi-diplomatik və diaspor dairələrində isterika da güclənir. Ancaq hələ ki bu emosional çılğınlıq nə yaxşı ki, xain ermənilərin arzuladığı maddi, real nəticələrə gətirməyib. Və belə görünür, gətirməyəcək də.**

Hətta ermənilərin 200 ildir sadiq qaldıqları, dövlət olaraq mövcudluqlarına görə minnətdar olduqları ruslar, Rusiya da "əzabkeş xalq"ın "genosid sancılarına" lazımınca həssaslıq göstərmir. Prezident Vladimir Putin isə artıq aydındır ki, İrəvandakı "əsrin ağlaşması" mərasiminə böyük ehtimalla, qatılmayacaq.

Eləcə də Fransa istisna olmaqla, dünyada ciddi söz sahibi olan dövlətlərin heç biri, o cümlədən ABŞ, Böyük Britaniya, Almaniya, Kanada, İsrail rəhbərləri qondarma yubileyin 100 illiyində Ermənistan paytaxtında olmayacaqlar. Böyük dərddir qonşular üçün...

Hələliksə onlar Roma papasının din xadiminə yaraşmayan məlum avantürist açıqlaması ilə təsəlli tapa bilərlər. Bu açıqlama o dərəcədə təxribatçı xarakter daşıyır ki, hazırda qardaş ölkə ilə münasibətləri isti olmayan İsraildə belə təəccüb doğurub.

Təbii, hələ Papa olmamışdan antitürk, ermənifil mövqeyi ilə seçilən 1-ci Fransisk dərhal Türkiyənin prezidenti, baş naziri, xarici işlər naziri, ictimaiyyəti səviyyəsində sərt cavabını alıb, Vatikandan Türkiyə səfiri geri çağırılıb *(Azərbaycan da Türkiyə ilə həmrəylik jesti kimi, eyni addımı atsaydı, məntiqli olardı...)*

Amma başqa yandan, təəccüblənməyə lüzum da yox. Bir səbəb deyildi - katolik kilsəsinin hazırkı başçısı çoxdan ermənipərəst mövqeyi ilə tanınır. O, hələ 2006-cı ildə, Vatikana rəhbərlik eləməmişdən xeyli qabaq Türkiyəyə müraciət edərək onu saxta genosidi tanımağa çağırmışdı. İndi - yüksək vəzifə tutarkən niyə də ənənəvi mövqeyinə xilaf çıxmalıdır, üstəlik, əgər Vatikan dövləti ona kimi uydurma soyqırımı rəsmən tanıyıbsa?

Fəqət, yaxşı ki, dünyada bu kimi məsələlərdə ab-havanı Roma papası müəyyən eləmir, qlobal güclər formalaşdırır. Yəqin bunu bildiyi üçün Papanın özü də 24 apreldə İrəvana getməmək qərarı verib, gücü isə yalnız erməniləri ovunduran bəyanata çatıb...

Bu arada bəlli olub ki, ABŞ da saxta yubiley tədbirində simvolik nümayəndə heyəti ilə təmsil olunacaq. Hər halda, Birləşmiş Ştatların Ermənistandakı səfiri Riçard Millzin açıqlamasından belə qənaət hasil olur. Belə ki, diplomat 24 aprellə bağlı törənlərə Amerikanın hansı formatda qatılacağı ilə bağlı sualı cavablandırarkən deyib ki, xüsusi bir nümayəndə heyəti olacaq və onun tərkibini də prezident Barak Obama şəxsən elan edəcək.

Yəni faktiki surətdə, üçüncü-dördüncü dərəcəli səviyyədə bir təmsilçilikdən söhbət gedir. Ayrı cür mümkün deyil. Təkcə ona görə yox ki, ABŞ tarixdə olmayan bir şeyi soyqırım kimi rəsmən tanımayıb, həm də o səbəbə ki, Türkiyə ondan ötrü regionda vazkeçilməz ölkə olaraq qalır, nəinki hər addımda Rusiyanın marioneti olduğunu nümayiş etdirən Ermənistan.

Bunu amerikalı səfirin 1915-ci il hadisələrini "soyqırım" adlandırmaması bir daha sübut edir. "ABŞ Ermənistanla birgə Osmanlı İmperiyasının son illərində 1.5 milyonluq erməni qurbanları ilə bağlı kədərlənir. Biz bu faciəni unutmamalıyıq, beynəlxalq ictimaiyyət onun təkrarlanmasına imkan verməməlidir" - diplomat əlavə edib.

İndi əgər "genosidi" rəsmən tanıyan Rusiya dövlətinin başçısı Türkiyənin önəmini ciddiyə alıb, erməniləri məyus edirsə, Amerika regiondakı sınanmış müttəfiqini niyə və nəyin xətrinə incik salmalıdır ki? Bu yerdə onu da qeyd edək ki, erməni lobbisinin saxta 100 illiyədək ABŞ Konqresindən yeni qətnamə layihəsini keçirmək səyləri bütün canfəşanlıqlara baxmayaraq, artıq fiasko olub.

Beləcə, 24 aprelə Türkiyə və Ermənistanın nə ilə getdiyi ilə bağlı mənzərə tədricən aydınlaşır. Söz yoz ki, yerdə qalan 10 gündə ermənilər İrəvan mərasimlərini təmtəraqlı eləməkdən ötrü hər şeyə əl atacaq. Çünki bu təntənə onlara Azərbaycan torpaqlarının işğalına haqq və legitimlik qazandırmaq üçün də olduqca vacibdir.

Deməli, Bakı da rəsmi Ankaranın məsələdə ötən ildən başlayan hücum diplomatiyasına layiqli dəstək verməli, qardaş dövləti tək qoymamalı, onun "soyqırım" əleyhinə diplomatik həmlələrinin effektinin birə-iki artması üçün gücünə güc qatmalıdır.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 78 (6106) 14 aprel 2015



Pənah Hüseyn

# Müxalifət DTK arxivlərinin açılmasına razıdırmı?

## Pənah Hüseyn: "Arxivlərdə adbaad olmasa da, nəyin olub-olmaması mənə bəllidir"

**Xəbər verdiyimiz kimi, Ukrayna Ali Radası kommunist dönəmindəki "KQB" arxivlərinin açılmasına qərar verib. Aprelin 9-da qəbul edilən qanunla dövlət arxivindəki 1917-91-ci illəri əhatə edən sənədlər açıq elan edilib. Qanun hər bir vətəndaşa kommunist rejiminin repressiya orqanlarının arxivinə giriş imkanı verir. Qərara iclasda iştirak edən 320 deputatdan 261-i səs verib. Qanuna əsasən, güc strukturlarının arxivlərinə hər kəsin giriş hüququna zəmanət verilir.**

"Yeni Müsavat" bu mövzu ilə bağlı yerli ekspertlərin qiymətləndirməsini oxucuların nəzərinə çatdırıb. Amma Azərbaycan cəmiyyətində zaman-zaman bu mövzu müzakirə olunub.

AXC hakimiyyəti dönəmində baş nazir olmuş **Pənah Hüseyn** bildirdi ki, Azərbaycanda, xaricdə baş verən bəzi hadisələrin fonunda tez-tez gündəmə gələn DTK arxivləri barədə ondan da mövqe öyrənilib: "Yenə təkrar edirəm: ictimaiyyətdə bu DTK arxivi anlayışı bir qədər təhrif olunmuş şəkildə mövcuddur. Çünki sovet hakimiyyəti dövründə xüsusi xidmət orqanlarının tarixi əhəmiyyətli işlərlə bağlı, məhkəmələrlə bağlı qəbul etdikləri rəsmi sənədlərlə bağlı arxivlər əvvəldən açıqdır. Bir sıra tarixçilər, digər mütəxəssislər bu arxivlərdən istifadə edirlər və indi də istifadə etməkdə davam edirlər. Agentura və operativ kəşfiyyatın fəaliyyətdə olan məxfi əməkdaşlarının siyahısının açıqlanması məsələsi ələhiddə bir mövzudur. 1992-ci ildə bu məsələ parlamentdə qaldırılarkən Milli Təhlükəsizlik Nazirliyi yeni müstəqillik qazanmış ölkə üçün o dövrdə fəaliyyətdə olan agentura şəbəkəsinin açıqlanmasının faydalı olmadığını və dövlətin təhlükəsizlik maraqlarına zərər vuracağını bəyan etdi. Əsas arqumentlərdən biri isə ondan ibarət oldu ki, keçmiş SSRİ-də başlıca xüsusi xidmət orqanları mərkəzləşdirilmiş şəkildə mövcud idi. Məsələn, hərbi kəşfiyyatın, strateji xarici kəşfiyyatın operativ arxivləri, ümumiyyətlə, Azərbaycanda yox idi. Həm də SSRİ dövründə vahid ölkə olduğu üçün insanların böyük əksəriyyəti hansı respublikada yaşamasından asılı olmayaraq ittifaqın müxtəlif yerlərində hərbi xidmətdə olur, ali təhsil alırdılar, iqtisadiyyat və digər sahələrdə, o cümlədən partiya inzibati orqanlarında çalışırdılar. Və onlar xüsusi xidmət orqanları ilə əməkdaşlığa ya mərkəzdə, ya digər respublika ərazisində cəlb edilə bilərdilər".

**P.Hüseyn vurğuladı ki, sözügedən arxivlər Azərbaycanın əlində deyil. Əsas təhlükəni də onlar, digər respublikaların ərazilərində əməkdaşlığa cəlb edilmiş agentlər təşkil edirdi. Çünki respublikada artıq milli xüsusi xidmət orqanlarına məlum olan məxfi əməkdaşların neytrallaşdırılması və zərərsizləşdirilməsi mümkün idi:** "Respublikaya məlum olan məxfi əməkdaşların adının açıqlanması həmin başqa yerlərdə cəlb olunmuş əsas məxfi əməkdaşların arxayın düşməsinə və artıq xarici ölkə olmuş keçmiş SSRİ respublikalarının təzyiqi altında qalmalarına və şantaj olunaraq, yaxud könüllü şəkildə həmin ölkələrə casusluq etmələrinə şərait yaradardı. Yəni arxivlərin açılmasının əleyhinə olanlar-bunlar da əsasən mütəxəssislər idi - əsaslandırdılar ki, əslində Azərbaycanda olan məlumatların açıqlanması problemi nəinki həll edərdi, əksinə, daha da dərinləşdirərdi. Və ölkə üçün istənilən effekti də verməzdi.

Müzakirələrdə bu arqument üstün gəldi və məlum mövqe qəbul edildi".

**Müsahibimiz xatırlatdı ki, 1992-1993-cü illərdə siyasi rəhbərliyə daxil olan və bütün xüsusi xidmət orqanlarının fəaliyyətini prezident hakimiyyəti xətti ilə kurasiya edən vəzifəli şəxs kimi ona bu arxivlərdə adbaad olmasa da, nəyin olub-olmaması bəllidir. Lakin bunlar dövlət sirri olduğu üçün açıqlanmasına ehtiyac yoxdur:** "Prinsipcə isə bu məsələdə xarici təcrübə də öyrənilərək hansısa formada həlli istiqamətində yeni yanaşmalar və addımlar mümkündür".

❑ Sevinc TELMANQIZI

# Oğlunu tutduran general vəzifəsində qalacaqmı?

**Daxili İşlər Nazirliyi İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin rəisi, general-mayor Şərif Əsədullayevin hərəkəti mətbuatda geniş müzakirə olunmaqdadır. Yada salaq ki, Ş.Əsədullayev oğlu Tamerlan Əsədullayevin Bakıdakı "Senator" restoranında dava saldığını, mühafizəçini döyərək bıçaqladığını və sonra da qaçıb gizləndiyini eşidib.**



**Çingiz Qənizadə:** "Şərif Əsədullayevin bu davranışı digər məmurlara bir nümunədir"



**Novella Cəfəroğlu:** "Uşağına tərbiyə verə bilməyən general vəzifədən getməlidir"



**Cavanşir Paşazadə:** "Tamerlan bacım oğlu olsa da onun barəsində mətbuatda yazılanlardan artıq bir şey bilmirəm"

Yayılan məlumatlara görə, general oğlunu axtarıb tapıb və necə lazımdırsa tənbeh edib! Bundan sonra da oğlunu polisə təhvil verərək israrla həbs olunmasını istəyib! Onun xahişini nəzərə alıblar və oğlunu tutublar. Barəsində məhkəmə qərarı ilə 4 aylıq həbs-qətimkan tədbiri seçilib.

Generalın bu hərəkətini təqdir edənlərlə yanaşı, onun bu addımı öz karyerasını qorumaq naminə atdığını iddia edənlər də var.

### "Hadisəni gizlətməmək onun qanunun aliliyinə hörmətini göstərir..."

**Deputat Çingiz Qənizadə modern.az-a açıqlamasında olayla bağlı bunları deyib:** "Baş verən hadisə mətbuatda geniş müzakirə olunur. Təbii ki, Tamerlan Əsədullayevin həbs olunmasını atası Şərif Əsədullayev xahiş edib. Dərhal polis orqanları ilə əlaqə saxlayıb. Atanın öz doğma övladının törətdiyi hadisəni gizlətməməsi onun qanunun aliliyinə hörmətini göstərir. Bu fakt azərbaycanlı məmurdan digər məmurlara bir nümunədir". **Deputatın sözlərinə görə, Şərif Əsədullayev 30 ildən artıqdır ki, polis orqanlarında fəaliyyət göstərir:** "Şərif Əsədullayevin özü də 30 il ərzində günahkarların istintaqa cəlb edilməsi sayəsində xeyli işlər görüb. Bu cür addımın atılması digər məmurlara da nümunə olmalıdır. Hər bir məmur övladının törətdiyi hadisələri gizlətməyə çalışmamalı, əksinə, öz əlləri ilə məsuliyyətə cəlb etməlidir".

### General oğlunun deputat dayısı deyir ki...

Tamerlan Əsədullayev Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadənin bacısı oğludur. Olayın baş verdiyi restoran isə "Azimport"un sahibi Əli Əsədova məxsusdur.

"General-mayor Şərif Əsədullayev oğlunun törətdiyi hadisədən xəbər tutaraq, dərhal onu polisə gətirib təhvil verib. Bu, düz hərəkətdir. Buna başqa nəsə əlavə etmək lazım deyil" - bu sözləri isə **deputat Cavanşir Paşazadə** bacısı oğlu Tamerlan Əsədullayevin törətdiyi olayla əlaqədar həbs olunmasına münasibət bildirərkən deyib. C.Paşazadə Tamerlan Əsədullayevin törətdiyi hadisənin mətbuatda geniş işıqlandırılmasına belə münasibət bildirib: "Bacımın oğlu ilə bağlı məsələ mətbuatda necə işıqlandırılıbsa, fakt odur. Mən də o qədər bilirəm, ondan artıq heç nə deyə bilmərəm. Şərif Əsədullayev oğlunu götürüb özü polis bölməsinə təhvil verib. Əlavə heç nə demək istəmirəm".

### Hüquq müdafiəçisi isə...

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** qafqaz-news.az-ın "Tamerlan Əsədullayevin hərəkətinə görə atası cavab verməlidirmi" sualına cavab olaraq "Mütləq cavab verməlidir" deyə cavab verib. N.Cəfəroğlu övladını tərbiyə edə bilməyən generalın dərhal tutduğu vəzifədən getməli olduğunu da söyləyib. Sayt yazır ki, aprelin 10-da "Senator"da baş verən olay general Əsədullayevin oğlunun adı qarışan ilk qalmaqal deyil. Ötən ilin mayında Bakıda Tamerlan Əsədullayev və dostları polisləri döydüyünə görə gündəmə gəlmişdi. Belə ki, Bakıda, "Qış parkı"nın yaxınlığında gecə 4 radələrində növbə çəkən post-patrul polisləri sərxoş vəziyyətdə olan T.Əsədullayevin bir qadını döydüyünü görərək onu saxlamağa cəhd ediblər. Lakin generalın oğlu onlara tabe olmayıb, polisləri söyüb və onları vuraraq həmin yerindən uzaqlaşıb. Daha sonra yenidən geri qayıdan Tamerlan Əsədullayev polis əməkdaşlarını növbəti dəfə təhqir edib. Polislər hadisə yerinə Post-Patrul Xidməti əməkdaşlarını çağırmaq məcburiyyətində qalıblar və köməyə gələn polislərin yardımı ilə Tamerlan Əsədullayev çətinliklə də olsa, polis bölməsinə aparılıb. Həmin işin nə ilə nəticələndiyi bilinmir.

### Prezident demişdi ki...

Görünən odur ki, məmur övladları atalarına problem yaratmaqdan usanmırlar. Onlar prezidentin sərt tənqidlərindən də nəticə çıxara bilmədiklərini öz əməlləri ilə ortaya qoyurlar. Bir müddət əvvəl keçirilən müşavirələrdən birində prezident qudurğan məmur övladlarına səslənərək heç kimə güvənməmələrini istəmişdi. Demişdi ki, övladlarına nəzarət edə bilməyən məmurlar işdən çıxarılacaq, övladlarına da cinayət işi başlanacaq.

T.Əsədullayevin əməllərinə görə artıq cinayət işi başlanıb. Yasamal Rayon Polis İdarəsinin İstintaq şöbəsində Cinayət Məcəlləsinin 126.2.4-cü (qəsdən sağlamlığa ağır zərər vurma) və 221.3-cü (xuliqanlıq) maddələri ilə cinayət işi başlanıb.

Yasamal Rayon Məhkəməsinin müvafiq qərarı ilə adam bıçaqlamaqda təqsirli bilinən Tamerlan Əsədullayev barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilib. Onu məhkəmə zalından 1 saylı Bakı İstintaq Təcridxanasına aparıblar.

Bəs general oğlunun atdığı addımı şərtləndirən, onun 1 il ərzində 2 oxşar olay törətməsinin səbəbi nədir? Niyə qanunun aliliyinin keşiyində durmalı olan bir generalın oğlu bu cür addımlar atmaqdan çəkinmir? Bu, hüquq müdafiəçisi Novella Cəfəroğlunun dediyi kimi, tərbiyə problemidirmi?

Maraqlıdır ki, 2013-cü il aprelin 21-də Nobel prospektindəki "AZURE" biznes mərkəzindəki "Opera sky" restoranında prezidentin şəxsi mühafizə xidmətinin rəisi, general Bəylər Eyyubovun bacısı oğlanları Osman İsayev, Sultan İsayev və onların əmisi oğlu Rauf Həsənli dava salmışdılar. Bundan xəbər tutan general Əyyubov hər 3 şəxsin həbsi üçün DİN Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinə müraciət etmişdi. Bundan sonra generalın bacısı övladları və davada iştirak edən digər şəxslər tutularaq xuliqanlıqda ittiham olunmuşdular.

Hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində Səbayel Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərovun oğlu İlham Əsgərlinin cinayət işi üzrə məhkəmə prosesi keçirilir. İ.Əsgərli ötən il sentyabrın 29-da Zığ-aeroport yolunda yüksək sürətlə idarə etdiyi "Mercedes"i "Howo" markalı yük maşınına çırpıb. Nəticədə "McDonalds"ın Bakı nümayəndəliyinin rəhbəri Maqsud Mirzəyevin oğlu Sənan Mirzəyev dünyasını dəyişib.

Oxşar olay ötən ilin martında Suraxanı rayonu ərazisində, Zığ şossesində baş verdi. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədr müavini Mübariz Mədətovun oğlu Xalid Mədətov idarə etdiyi "Mercedes-Benz G-55" avtomobillə mahir tar ifaçısı Ağasəlim Abdullayevin özü, avtomobili idarə edən oğlu, gəlini və nəvəsinin ağır xəsarət alması, həyat yoldaşı və azyaşlı nəvəsinin isə ölməsi ilə nəticələnən qəza törətdi. Oğlunun bu səhvi nəticəsində Mübariz Mədətov işdən qovuldu, oğlu məhkum edildi.

"Ekstazi işi" 2010-cu ildə mətbuatın mərkəzi mövzusu idi. O dövrdə Bakı prokuroru olan Ədalət Mirsalamlının oğlu Mahir Mirsalamlı ilə Əzizbəyov rayonunun keçmiş prokuroru Rəşid Həsənovun *(Ali Məhkəmənin keçmiş sədri Südabə Həsənovanın qardaşı)* oğlu Yalçın Həsənov və xalq artisti İlhamə Quliyevanın oğlu Orxan Nadirov və digərlərini Milli Təhlükəsizlik Nazirliyi keçirdiyi əməliyyat zamanı saxlamışdı. Məlum olmuşdu ki, məmur övladları bahalı narkotik hesab olunan ekstazidən istifadə ediblər.

**Məmur övladları ilə bağlı bu cür nümunələr həddən artıq çoxdur...**

❑ E.HÜSEYNOV

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 78 (6106) 14 aprel 2015

# Müdafiə naziri Qarabağdakı Livan və Suriya muzdlularını hədələdi

## Vəfa Quluzadə: "Ermənilər nə qədər terrorçu çağırsa, bu, onlara heç nə verməyəcək"

**Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin bütün qoşun növlərinin cəlb olunması ilə keçirilən irimiqyaslı təlimlərin yekunlarına dair müşavirədə komandir-rəis heyəti qarşısında çıxışında işğal olunmuş ərazilərin tezliklə azad olunacağına əminliyini ifadə edib.**

Bu barədə Müdafiə Nazirliyinin saytı xəbər verib. Nazirin sözlərinə görə, Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin diqqəti və qayğısı nəticəsində regionun ən güclü ordusuna çevrilib: "Ordumuzun silahlanmasında yüksək texnologiyaların tətbiqi ilə hazırlanmış ən müasir və dəqiq məhvetmə qabiliyyətinə malik silah-sursat və döyüş texnikası var. Şəxsi heyətin döyüş ruhu və qələbə əzmi gündən-günə artır. Son təlimlərdə biz bunun əyani şahidi olduq".

**Düşmən tərəfinin hazırkı vəziyyətini qiymətləndirən müdafiə naziri son döyüşlərdə canlı qüvvə sarıdan xeyli sayda itki verən ermənilərin təxribat törətmək planlarının tam alt-üst olduğunu diqqətə çatdırıb.**

"Düşmənin mövqelərimiz istiqamətində dəfələrlə təxribat xarakterli əməliyyatlar keçirmək cəhdi ayıq-sayıq əsgərlərimiz tərəfindən elə ilk anda alınıb. Bu həmişə belə olub və gələcəkdə də bu cür olacaqdır. Ermənilər itkilərini cidd-cəhdlə gizlətməyə çalışırlar. Amma biz işğal olunmuş ərazilərdəki vəziyyətdən tam məlumatlıyıq. Müxtəlif mənbələrdən, o cümlədən elə düşmənin daxilindən əldə etdiyimiz məlumatlara görə, Ermənistanda və işğal olunmuş ərazilərdə vəziyyət həddən artıq acınacaqlıdır. Düşmən ordusunda əsgər çatışmazlığı elə bir həddə çatıb ki, erməni tərəfi postlarda keşik çəkməyə mülki şəxsləri yerləşdirir. Bundan əlavə, hərbi əməliyyatlara müxtəlif ölkələrdən, eyni zamanda Yaxın Şərq regionundan - Livandan, Suriyadan olan muzdluları cəlb edir.

Azərbaycan əsgəri erməni xalqına qarşı deyil, Ermənistanın cinayətkar, kriminal hərbi siyasi-rejiminə, onun əlləri günahsız dinc əhalinin qanına bulaşmış rəhbərliyinə qarşı müharibə aparır", - deyə müdafiə naziri bildirib. **Ali Baş Komandanın hər bir əmrinə Silahlı Qüvvələrin daim hazır olmasını xüsusi vurğulayan Z. Həsənov Azərbaycan əsgərinin xalqın və dövlət rəhbərliyinin etimadını doğruldacağına əminliyini ifadə edib:** "Azərbaycan torpaqlarının işğaldan azad edilməsinin yeganə çıxış yolu erməni silahlı birləşmələrinin birdəfəlik və qeyd-şərtsiz ərazilərimizi tərk etməsidir. Torpaqlarımızın işğaldan azad olunmasının digər alternativi isə güc tətbiq edilməsidir. Düşmən bunu anlamalı, dərk etməli və səbrimizi sınağa çəkməməlidir.



### Zakir Həsənov: "Silahlı Qüvvələrimiz düşməni darmadağın etməyə hazırdır"

Silahlı Qüvvələrin şəxsi heyətinin üzərinə düşən yeganə vəzifə isə düşməni darmadağın etməyə hər an hazır olmaqdır. Biz buna hazırıq və bütün qoşun növlərində döyüş hazırlığının gücləndirilməsi, şəxsi heyətin peşəkar səviyyəsinin artırılması və döyüş əzminin yüksəldilməsi məqsədilə daim keçirilən döyüş atışlı təlimlər, məşqlər qələbə gününün uzaqda olmadığına sübutdur".

**Politoloq Vəfa Quluzadə ermənilərin tərkibində muzdluların olmasından narahat olmamağı tövsiyə edir:** "Ermənilər nə qədər terrorçu çağırsa, bu, onlara heç nə verməyəcək. Birinci Qarabağ müharibəsi vaxtı biz belələrini çox görmüşük. Elə Qarabağda gəbərdilən Melkumyan Livan ermənisi idi. Vətən uğrunda döyüşən əsgər hər bir terrorçudan güclü, cəsarətli və vətənpərvər olur".

**Bəs Qarabağın terrorçu yuvası olması faktına beynəlxaql aləmin diqqətini cəlb etmək, antiterror koalisiyasının üzvü olan Azərbaycanın hərbi əməliyyatlarına dəstək qazanmaq olarmı? V.Quluzadə bu məsələdə də realist olmağı vacib sayır:** "Dünyanın başı elə qarşıqdır ki, biz bu gün dünyanın diqqətini Qarabağdakı terrorçulara cəlb edə bilmərik. Dünya elə Amerikadır, vaxtiə Amerikadan gəlib Qarabağda döyüşən erməni muzdlusu var idi. Mən hesab etmirəm ki, bu, Ermənistana xeyir verəcək və bizi narahat edəcək bir hadisədir. Antiterror əməliyyatı Ermənistanla müharibə deməkdir, savaşa başlamaq istəyiriksə, başlayaq, bizə hansısa bəhanə, arqument gərək deyil. Torpaqlarımızın 20 faizi işğal altındadır. Amma işğal faktının arxasından Rusiyanın qulaqları çıxdığı üçün 20 ildir biz bu vəziyyətlə barışmalı olmuşuq".

# Günahını boynuna alan erməni kəşfiyyatçı düşmən əsgərlərə çağırış etdi

## Arsen Baqdasaryan: "Azərbaycanlılar günahsız yerə yurdlarından didərgin salınıblar"



**Gəncə Ağır Cinayətlər Məhkəməsində ötən il dekabrın 26-da cəbhənin Ağdam rayonu istiqamətində qoşunların təmas xəttini keçən erməni kəşfiyyatçı Baqdasaryan Arsen Eduardoviçin cinayət işi üzrə məhkəmə baxışı başlayıb. Aprelin 13-də başlayan prosesdə erməni kəşfiyyatçısı ona qarşı qaldırılan ittihamlara etiraz etməyib.**

"Trend" Kəpəz TV-yə (Region TV) istinadən xəbər verir ki, iclas hakimlər Elbəy Allahverdiyevin sədrliyi, Zabil Qasımov və Elmin Rüstəmovun iştirakı ilə aparılır. Məhkəmə prosesində A.Baqdasaryanla yanaşı, erməni kəşfiyyatçısını Ağdam rayonunun Zəngişalı kəndi ərazisində ələ keçirən azərbaycanlı hərbçilər də iştirak edir. A.Baqdasaryan tərcüməçi və vəkillə təmin edilib. Əsir götürülən kəşfiyyatçının müdafiəçisi vəkil Ramiz Abdullayevdir. Məhkəmə zalında erməni kəşfiyyatçı ona qarşı qaldırılan ittihamlara etiraz etməyib. O, Ermənistan hökumətinə müraciət edərək, Azərbaycana məxsus torpaqların azad olunmasını istəyib: "Azərbaycanlılarla ermənilər illərlə yaxşı münasibətdə olub. Ermənistan azərbaycanlıların torpağını geri qaytarmalıdır. Azərbaycan müharibə istəmir, Azərbaycan ona məxsus torpaqları tələb edir. Erməni əsgərlərə səslənərək bildirirəm ki, siz başqasının torpağından geri çəkilməlisiniz. Ermənistanda olan azərbaycanlı əsirlər geri qaytarılmalıdır. Həbsdə olduğum müddətcə mənə qarşı yaxşı rəftar olunub, geyim və qida ilə daim təmin edilmişəm. Diqqətinizə çatdırıram ki, bu söylədiklərimi mənə heç kəs diqtə etməyib, bu, mənim sərbəst düşüncəmdir".

Xatırladaq ki, aprelin 7-də keçirilən hazırlıq iclasında 1994-cü il aprelin 23-də Azərbaycanın Xankəndi şəhərində anadan olan A.Baqdasaryana dövlət ittihamçısı Anar Mirkişiyev tərəfindən Cinayət Məcəlləsinin 12 maddəsi ilə ittiham elan edilib.

İstintaq zamanı müəyyən olunub ki, Ermənistanda xüsusi təlim keçən A.Baqdasaryan Azərbaycanın Ermənistan tərəfindən işğal altında saxlanılan Ağdərə rayonu ərazisində yerləşdirilən erməni silahlı qüvvələrinin tərkib hissəsi olan 49971 saylı hərbi hissədə müqavilə əsasında baş çavuş hərbi rütbəsində kəşfiyyat bölüyünün tağım komandiri vəzifəsində fəaliyyət göstərdiyi zaman hərbi hissə komandirindən *(adı və soyadı bəllidir)* Azərbaycan vətəndaşlarını milli ədavət və düşmənçilik niyyəti ilə qəsdən öldürmək, Azərbaycanın müdafiə qabiliyyətini zəiflətmək məqsədilə Silahlı Qüvvələrimizin müdafiə mövqelərinə tərəf keçib səngərlərdə partlayışlar törətmək üçün mina basdırılması barədə göstərişlər alıb. A.Baqdasaryan bu məqsədlə cinayətkar birliyin digər üzvləri ilə birlikdə *(onların adları və soyadları istintaqa bəllidir)* 2014-cü il dekabrın 26-da saat 15 radələrində qoşunların təmas xəttini gizli olaraq keçərək Azərbaycan Silahlı Qüvvələrinin müdafiə mövqelərində özləri ilə götürdükləri 7 ədəd "fuqas" tipli piyada əleyhinə minalardan 3 ədədini Azərbaycan hərbi qulluqçularının daha çox gedib-gəldiyi səngər yollarında yerləşdirdikdən sonra geri qayıtmaq istəyərkən tutulub. Cinayət törətməkdə əsaslı şübhələr olduğundan A.Baqdasaryan barəsində Bakı Hərbi Məhkəməsi tərəfindən həbs-qətimkan tədbiri seçilib.

İş üzrə zəruri istintaq hərəkətləri aparılaraq hadisə yerinə, habelə A.Baqdasaryanın üzərindən götürülmüş soyuq silaha və digər əşyalara, torpağa basdırılmış minalardan birinə, həmçinin digər iki minanın partladılmaqla zərərsizləşdirildiyi yerə baxış keçirilməklə, məhkəmə-tibbi, kompleks məhkəmə psixiatrik və psixoloji, məhkəmə partlayış-texniki və s. ekspertizaları təyin edilərək rəylər alınıb, hadisənin şahidləri dindirilib.

A.Baqdasaryan ilkin istintaq zamanı və istintaqın sonrakı gedişində təkzibolunmaz sübutların təsiri altında törətdiyi cinayətləri könüllü etiraf edib və işin halları ilə bağlı istintaqa ətraflı məlumat verib.

**Proses aprelin 20-də davam etdiriləcək.**

***

Bu arada - aprelin 14-də Şuşa həbsxanasında saxlanılan azərbaycanlı girovlar Şahbaz Quliyev və Dilqəm Əsgərovun vəkillərinin "apelyasiya şikayəti"nə baxılacağı xəbəri yayılıb. Ermənistanın news.am saytının iddiasına görə, Şahbaz Quliyevin vəkili Arkadi İsraelyan bildirib ki, bütövlükdə hökmdən narazıdır, çünki müdafiə etdiyi şəxs özünü təqsirli bilməyib. Dilqəm Əsgərovun vəkili Erik Beqlaryan isə müdafiə etdiyi şəxslə bağlı irəli sürülən bir maddədən şikayət etdiyini bildirib. Dilqəm Əsgərova ömürlük, Şahbaz Quliyevə isə 22 il azadlıqdan məhrum edilmə cəzası oxunub.

**Xarici İşlər Nazirliyinin mətbuat katibi Hikmət Hacıyev bildirib ki, Dağlıq Qarabağda azərbaycanlı girovlar üzərində keçirilən qondarma "məhkəmə"nin heç bir hüquqi əsası yoxdur. Diplomat bir daha diqqətə çatdırıb ki, həmin şəxslər Azərbaycanın işğal olunmuş ərazilərində girov götürülüblər:** "ATƏT-in Minsk Qrupu ölkələri tərəfindən girovların azad edilməsi ilə bağlı çağırış edilib. Biz bunu dəstəkləyirik. Ermənistan isə bu sahədə destruktiv siyasət həyata keçirir. Bu, danışıqlar prosesinə xələl gətirir".

Yeri gəlmişkən, bundan əvvəl Azərbaycana könüllü keçən erməni ordusunun əsgəri, əslən Xocavənddən olan Andranik Qriqoryan da erməni əsgərlərə çağırış edib silahı yerə qoymağı, ağ bayraq qaldırmağı tövsiyə etmişdi.

Bəzi hallarda Azərbaycandakı erməni əsirlərlə kəlbəcərli iki girovumuzu dəyişmək imkanları gündəmə gətirilir.

**Hərbi ekspert Üzeyir Cəfərov isə erməni kəşfiyyatçısı ilə bizim girov vətəndaşlarımızı müqayisə etməyin tərəfdarı olmadığını bildirdi:** "Baqdasaryan erməni hərbçisidir və ötən il döyüş tapşırığını yerinə yetirmək üçün Azərbaycan tərəfə göndərilərkən ordumuz tərəfindən ələ keçirilib. Məhkəmədə günahını özü də etiraf edib və təqsirini boynuna alıb. Lakin mən onun müraciətinə o qədər də diqqət yetirilməsinin tərəfdarı deyiləm. Aydın məsələdir ki, erməni istənilən bicliyi edə bilər ki, hardasa "özünə bir gün ağlasın". Amma Şahbaz və Dilqəm öz ata-baba ocaqlarında işğalçı ermənilər tərəfindən girov götürülüb və üzərində saxta məhkəmə qurulub". Ü.Cəfərov qeyd etdi ki, Gəncə Ağır Cinayətlər Məhkəməsi ilə Dağlıq Qarabağdakı qondarma "məhkəmə"ni də müqayisə etmək olmaz. Qarabağdakı qondarma məhkəmədən fərqli olaraq, bizim məhkəmələrin qəbul etdiyi qərarlar hətta Avropa Məhkəməsi tərəfindən tanınır. Bu qərarlar heç zaman tanınmayacaq. Ermənilər ona çalışmalı idilər ki, məsələ bu qədər böyüməsin. Amma onlar buna getdilər və özlərinə ziyan etdilər. Azərbaycan bir neçə dəfə Ermənistandan olan hərbçilər, əsirlərlə bağlı humanistlik nümayiş etdirmişdi. Təəssüf ki, Ermənistan Azərbaycanın humanist addımlarını dəyərləndirmədi və bizim vətəndaşlarımıza qarşı qeyri-humanist davranış nümayiş etdirdilər. Bu, nə qonşuluq prinsiplərinə uyğun gəlir, nə də beynəlxalq qanunlara".

**Hərbi ekspert ağır maddələrlə ittiham olunan Baqdasaryanın günün birində xilas ola biləcəyi qənaətindədir:** "Amma bizim soydaşlarımıza, kəlbəcərli qardaşlarımıza qarşı qondarma ittihamın heç bir əsası yoxdur və saxta məhkəmədə də təsdiqini tapmadı. Faktiki olaraq ermənilərin iddiaları heç bir normal məntiqə sığmır. Erməni kəşfiyyatçısının mühakimə olunması birmənalıdır. Yeganə ümid onun dövlət başçısı tərəfindən əfv edilib üçüncü ölkə, yaxud Ermənistana təhvil verilməsidir. Düzdür, bu, yaxın aylar üçün gözlənilən deyil. Amma ermənilər müvafiq addım atarsa, Azərbaycan tərəfi bu dəfə də humanistlik nümayiş etdirib erməni hərbçisi ilə bağlı qərarını verə bilər".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN




# Prezidentin iradları apteklərdə nəyi dəyişib?

**Azad İstehlakçılar Birliyinin sədri:**
"Ölkəyə külli miqdarda keyfiyyətsiz dərmanlar gətirilə bilər"



**Manatın devalvasiyasından sonra apteklərdə də qiymət artımı başladı. Hətta bəzi apteklər qapılarını bağladı, bəziləri isə piştaxtaları boşaldaraq açıq etiraf etdilər ki, dərman bazarında inhisarçı mövqedə olan "Avromed Company" MMC depolarını bağlayıb və dolların "son dayanacağını" gözləyir. Bir müddət sonra, yəni dolların kursu sabitləşən kimi apteklər kifayət qədər bahalaşmış preparatlarla yenə doldu.**

Prezident İlham Əliyev ötən həftəsonu Nazirlər Kabinetinin iclasında bu məsələni gündəmə gətirib və dərman bazarında hökm sürən vəziyyətə narazılığını bildirib. Prezident dərmanların baha satıldığını deyib və səhiyyə nazirinə bu sahədə hökm sürən özbaşınalıqların aradan qaldırılması üçün tapşırıqlar verib.

Prezidentin çıxışından sonra apteklərdəki vəziyyətlə tanış olmaq üçün metronun "Neftçilər" stansiyası yaxınlığında yerləşən bir neçə aptekə baş çəkdik. Müşahidələrimiz hələ ki dəyişən bir durum olmadığını göstərirdi. Bir sıra apteklərdə yenə də dərman qıtlığı vardı. Eyni ərazidə yerləşən aptekdə bir dərman digərinə nisbətən 2 manat arasında baha satılırdı. Aptek işçisindən əvvəlcədən kağıza yazdığımız dərmanların olub-olmadığını soruşduq. Reseptdə göstərilən 5 dərmandan yalnız birinin olduğunu deyən əczaçı xanım digər dərmanların indi gətirilmədiyini bildirdi. Bunun da səbəbini depoda həmin dərmanların olmaması ilə əlaqələndirdi. Daha sonra baş ağrısına qarşı olan "Spazmolqin" dərmanını verməyini xahiş etdik. Ancaq bu dərman da yox idi. Əczaçı xanım həmin dərmanın əvəzində başqa dərmanlar təklif etdi.

**Növbəti baş çəkdiyimiz aptekdə də qripə qarşı "Rinza" dərmanını soruşduq, o da yox idi. Aptekçi artıq bir sıra dərmanların gəlmədiyini, baha olduğu üçün almadıqlarını bildirdi:** "Dərmanların çoxu xaricdən gətirilir. Xaricdən gətirilən dərmanlar isə depodan buraxılmır. Yəni gətirmirlər. Çünki əvvəlki qiymətə satmaq sərf etmir. Baha satanda da camaat narazılıq edir. Düzdür, elə dərmanlar var ki, insanlar səhhətinə görə onu od qiymətinə də olsa almağa məcbur olurlar. Biz də istəmərik belə olsun. Amma bu bizdən asılı bir şey deyil. Mən sadəcə olaraq satıcıyam. O məsələlər mənim boyumu aşar".

**Alıcılar da mövcud vəziyyətdən narazı idilər. Alıcı Sevda Rəhimova axtardığı dərmanı tapmaq üçün bir neçə aptekə getməli olduğunu deyir:** "Üç dərman alacamsa əvvəl onun üçünü də bir aptekdən alıb çıxa bilirdim, indi gərək üç aptek gəzim. Çünki dərman qıtlığı var. Axtardıqlarımı tapa bilmirəm".

**Digər alıcı Elxan Qədirov isə qiymətlərin fərqliliyindən şikayətləndi:** "8 manata aldığım dərmanı bir aptekdə 9 manat 80 qəpiyə, o biri aptekdə isə 11 manata görürəm. Mən başa düşə bilmirəm ki, bu nə deməkdir? Xaricdən gətirilən dərmanların bahalaşmasını başa düşürəm. Dollara görədir. Amma bizi də başa düşsünlər. Təqaüdüm heç dərmanlarımı ödəmir".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, xaricdən ölkəmizə keyfiyyətsiz dərman gətirilə bilər:** "Bu problemlə bağlı Səhiyyə Nazirliyinə və İqtisadiyyat Nazirliyinə məktub yazmışam. Bu məsələdə aşkarlığın təmin olunması, prezidentin tapşırıqlarının nə dərəcədə yerinə yetirilməsinə əmin olmaq üçün Azad İstehlakçılar Birliyi o prosesdə təmsil olunmaq istəyir. Sadaladığınız problemlər var və danılmazdır. Məsələn, "Kanon" deyilən məşhur aptek şəbəkəsi az işləyir ki, əhaliyə dərmanı az satsın. Dərmanların qıtlığı barədə də əhali bizə zəng edib şikayət edir. Bütün bunların qarşısını almaq üçün ölkə prezidenti müəyyən işlərin görülməsi üçün tapşırıqlar verib. Ola bilər ki, qiymət aşağı düşsün, lakin monopoliya olsun. Monopoliya isə gec-tez yenə də qiymətlərin qalxmasına səbəb olacaq. Hazırkı vəziyyətdə ölkəmizə keyfiyyətsiz dərmanların gətirilməsi gözlənilir. İnzibati yollarla dərman sahəsindəki problemləri tənzimləmək olmaz. Mənim müraciət məktubuma müsbət cavab verilsə, çalışacağam ki, dərman biznesi ilə məşğul olan insanların hər birinin dərman istehsalçılarına çıxışı yaransın. Belə olarsa, bazarda bolluq olar və qiymət aşağı düşər".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Zərərçəkənlər "A.M.A.Y. Abdulla"nın üzünə dayanmaqdan imtina edir

## Abdulla Abdullayevin məhkəməsində maraqlı faktlar üzə çıxır

**Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə "A.M.A.Y." rəhbəri Abdulla Abdullayev, daha beş nəfər - Elşən Nəzərov, Heydər Rzayev, Mehman Məmmədxanlı, Vidadi Qurbanov və Nadejda İlyasovanın işi üzrə məhkəmə prosesi davam edir. Müttəhim kürsüsünə çıxarılanlara qarşı dələduzluq, mənimsəmə, vəzifədən sui-istifadə kimi ittihamlar irəli sürülüb. A.Abdullayev istisna olmaqla, digərlərinin barəsində həbslə bağlı olmayan qətimkan tədbiri seçilib.**



Dünənki prosesdə iş ürə zərərçəkmiş kimi tanınan Nadir Əliyev təqsirləndirilən şəxsləri tanımadığını, Abdulla Abdullayevin isə adını eşitdiyini bildirib. "Xudafərin" MMC-nin tikdiyi binada mənzil aldığını deyən N.Əliyev heç bir şikayət və tələbinin olmadığını vurğulayıb.

Zərərçəkmiş Elzamin Məmmədov isə bildirib ki, mənzilin pulunu ödəsə də, bina tam təhvil verilmədiyinə görə yaşamaq mümkün deyil. O, mənzilin yaşayışın mümkün olduğu səviyyədə - kanalizasiya, lift və digər xidmətlər də daxil olmaqla, təhvil verilməsini tələb edib. Vəkilin sualına cavab olaraq zərərçəkən bildirib ki, tələbi Abdulla Abdullayev və digər təqsirləndirilənlərdən deyil, "Xudafərin" MMC-dir.

Rəşid Şərifov da tələb və şikayətinin olmadığını, özünü zərərçəkmiş hesab etmədiyini məhkəmənin diqqətinə çatdırıb. İrina Qocayeva da binanın gec təhvil verilməsindən narazılığını bildirərək, müqaviləni "Xudafərin" MMC ilə bağladığını deyib. Buna görə də MMC-dən mənzilini tələb etdiyini, lakin təqsirləndirilənlərdən şikayəti olmadığını vurğulayıb. Saleh Tağıyev də eyni məzmunlu ifadə verib.

Elşad Tağıyev isə bildirdi ki, 2005-ci ildə "Xudafərin" MMC ilə bağladığı müqavilə əsasında pulunu ödəyərək, sözügedən binada 93 kv/m sahəsi olan obyekt alıb. "Bir müddət əvvəl obyektə gedəndə Pərviz adlı bir vəkil çıxdı ki, həmin ərazi məhkəmə qərarına əsasən ona məxsusdur" - deyən zərərçəkən obyektini tələb etdiyini bildirdi.

Ötən prosesdə ifadə verən Orxan Cəfərov adlı zərərçəkən və mülki iddiaçı da eyni problemlə üzləşməsi barədə məhkəmədə ifadə vermişdi.

**Abdulla Abdullayev bununla bağlı bildirib ki, Toma ləqəbli şəxsdən vaxtilə 600 min manat pul götürüb, əvəzində əsas məbləğlə yanaşı 210 min manat da əlavə faiz ödəyib:** "Həmin pulu Tomaya göndərəndə aparan adam pulun üzərindən 25 min manat götürüb. Buna görə də o, mən tutulan zaman vəziyyətdən sui-istifadə edərək, məhkəmə yolu ilə həmin obyektlərlə bağlı qərara sahib olub".

A.M.A.Y. rəhbəri bildirdi ki, bu da həmin məsələ ilə bağlıdır. O, Toma ləqəbli xanımın məhkəməyə çağırılaraq dindirilməsini istədi.

Züleyxa Məmmədova ifadəsində mənzili aldığını bildirdi və mənzilin sənədlə tam təhvil verilməsini istədi. O da tələbinin A.Abdullayevdən deyil, "Xudafərin"dən olduğunu bildirdi.

**Proses aprelin 14-də davam edəcək.**

**A.Abdullayev ötən il aprelin 4-də həbs olunub. O, Cinayət Məcəlləsinin dələduzluq, mənimsəmə və ya israf etmə, yalançı sahibkarlıq və vəzifə səlahiyyətlərindən sui-istifadə əməlləri ilə təqsirləndirilir.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# "Mərkəzi Bank sərt addımlar atmalı olacaq"

## Ekspertlər bildirirlər ki, Mərkəzi Bank devalvasiyanın tempini artırmaq və ya növbəti kəskin devalvasiya seçimi arasında qala bilər, uzağı 2-3 ay ehtiyatların bu templə azalmasına imkan veriləcək...

**Milli valyutanın yenidən devalvasiya təhlükəsi ciddi şəkildə müzakirə edilməkdədir. Ekspertlər ikinci devalvasiyanı istisna etmirlər. Əksinə, devalvasiya gözləntilərindən narahatlıq vurğulanır. Milli valyutanın isə dollar və avroya olan məzənnəsi də vaxtaşırı dəyişir. Maraqlıdır, hökumət bazarı stabil saxlaya bilmir, yoxsa baş verənlər idarəolunan xaos hesab olunmalıdır? Ekspertlər məsələ ətrafında maraqlı açıqlamalar veriblər.**



Mərkəzi Bank isə daha ciddi məsələyə toxunaraq valyuta ehtiyatlarının azaldığını açıqlayıb. Bildirilir ki, 2015-ci ilin əvvəlindən Azərbaycan Mərkəzi Bankının (AMB) sərəncamında olan valyuta ehtiyatları 4,29 milyard dollar (31,2 faiz) azalaraq 13,76 milyard dollardan 9,47 milyard dollara enib.

**Ekspert Samir Əliyev isə musavaat.com-a açıqlamasında qeyd edib ki, proqnozlaşdırıldığı kimi, ehtiyatlarda azalma davam edib:** "Mart ayında ehtiyatın həcmi 13,9 faiz və ya 1,5 milyard dollar azalaraq 9,47 milyard dollara düşüb. Bu, son 41 ayda ən aşağı həddir. Sonuncu dəfə 2011-ci ilin oktyabr ayında ehtiyatın həcmi 7 milyard dollar olub.

Mərkəzi Bankın rəsmi valyuta ehtiyatları artıq 8-ci aydır azalır. Manatın sabitliyi üçün Mərkəzi Bank son dörd ayda valyuta ehtiyatının 37 faizini itirib. Dekabr-mart aylarında ehtiyat təxminən 5,5 milyard dollar azalıb".

**Ekspertin sözlərinə görə, hətta 34 faizlik kəskin devalvasiya da valyuta ehtiyatını qoruya bilməyib:** "Mərkəzi Bank mart ayında hər gün orta hesabla 50 milyon dollar intervensiya edib. Həmin vəsaitin təxminən yarısı qədər də Neft Fondu dəstək verib. Bu qədər vəsait panikanın qarşısını ala bilməyib. Vəziyyət gözlənildiyindən də pisdir. Mart ayında ehtiyatın azalma sürəti fevral ayındakı qədər olub. Bu onu göstərir ki, ölkədə dollara tələbat tam ödənməyib. Böyük məbləğlərdə vəsaitlərin, xüsusən də qeyri-rəsmi pulların dollarlaşdırılaraq ölkədən çıxarılması ehtimalı da getdikcə artır. Panikanın yaradılmasında da məqsəd ajiotaj "görüntüsü" fonunda böyük həcmli vəsaitlərin dollara çevrilməsi və həmin vəsaitlərin əhalinin ayağına yazılmasıdır. Proseslər göstərir ki, Mərkəzi Bank manatın yumşaq devalvasiyasını davam etdirəcək. Narahatçılıq bundadır ki, manatın ucuzlaşması gözlənildiyindən də sürətli templə davam etdirilə bilər. Mərkəzi Bank uzağı 2-3 ay ehtiyatların bu templə azalmasına imkan verəcək. Sonra sərt addımlar atmalı olacaq. Hadisələr indiki şəkildə davam edərsə, ajiotaj aradan qalxmazsa, Mərkəzi Bank devalvasiyanın tempini artırmaq və ya növbəti kəskin devalvasiya seçimi arasında qala bilər. Seçki amili kəskin devalvasiya seçimini çətinləşdirir. Ancaq büdcənin icrasında problemlərin yaranması hökuməti buna vadar edə bilər. Yumşaq devalvasiya isə istənilən halda baş verəcək: ya indiki templə, ya da daha sürətli".

**Vəkil Əkrəm Həsənov isə musavat.com-a bildirib ki, bütövlükdə dünyada avro dollara nisbətdə ucuzlaşır:** "Bizim milli valyutamız əslində dollara bağlıdır. Yəni bizim Mərkəzi Bankın hansısa müstəqil, mürəkkəb və ölçülüb-biçilmiş pul siyasəti yoxdur, sadəcə, dolları olan həddə manat çap edir. Buna görə də ölkədə dollar azalan kimi manat ucuzlaşır, dollar çoxalan kimi manat bahalaşır. Buna görə də avro bizdə də bir az ucuzlaşır. Amma bütövlükdə manatın özü də dollara nisbətdə ucuzlaşır. Yəni tədricən devalvasiya davam edir. Bu da gözlənilən idi. Düzdür, son zamanda neft ucuzlaşmır, arada hətta bahalaşdı da bir az. Bu baxımdan ilk baxışdan devalvasiya olmalı deyildi, hətta yumşaq da. Lakin bizdə hazırda devalvasiya yalnız neftdən asılı deyil. Əhalinin milli valyutaya və milli bank sisteminə etimadı sarsılıb. Buna görə də kimin əlində artıq pulu varsa, dərhal dollara çevirir. Hətta bank əmanətləri də geri götürülür. Bankların manatla kredit verməkdən imtina etməsi də manatı nüfuzdan salır. Əslində bankların bu əməli göstərir ki, onlar da Mərkəzi Banka inanmır. Banklar inanmırsa, əhali niyə Mərkəzi Banka inanmalıdır? Buna görə də Mərkəzi Bank manatın sabitliyini qoruya bilmir. Təhlükəli odur ki, Mərkəzi Bank heç əməli tədbir də görmür. Belə getsə, vəziyyət daha da pisləşə bilər".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 78 (6106) 14 aprel 2015

**Roma papasının 1915-ci il hadisələrini "soyqırım" adlandırması Türkiyədə sərt etirazla qarşılanıb. Açıqlamanın yayılmasından az sonra Türkiyənin Vatikanda olan səfiri Mehmet Paşacı məsləhətləşmə üçün İstanbula gəlib. Bundan başqa, Vatikanın Türkiyədəki elçisi ölkənin Xarici İşlər Nazirliyinə çağırılıb. Türkiyə XİN-i Vatikan səfirinə papanın şərhlərindən "məyusluq olduğunu" çatdırıb. Səfirə eləcə də bildirilib ki, həmin şərhlər Türkiyə ilə Vatikan arasında "inamsızlıq probleminin" yaranmasına səbəb olub.**

# "Papanın sözləri ermənilərin ziyanınadır"

## Roma papasının "soyqırım" ifadəsini işlətməsi Türkiyədə sərt təpkiyə səbəb oldu, Ankara bunu cavabsız qoymayacağını bəyan edir

Qeyd edək ki, iki gün əvvəl Vatikanda keçirilən və erməni dini və siyasi liderlərinin də qatıldığı toplantıda Roma papası Fransisk 1915-ci il hadisələrini "erməni soyqırımı" adlandırıb. Papa çıxışında bildirib ki, bu hadisə 20-ci əsrdə törədilmiş ilk soyqırım olub. Digər iki soyqırımı isə nasistlər və stalinizm törədib.

Bu hadisə Türkiyədə sərt etirazlara səbəb olub. **Baş nazir Davudoğlu** bildirib ki, bu hadisələrin baş verməsində o zaman xarici qüvvələr iştirak edib: "Əgər xarici faktorlar olmasaydı, o zaman bu hadisələr olmazdı. Bu acıları tək tərəfli qəbul etmək, sadəcə, insanların bir qisminin acılarına sahib çıxıb, digər qismini ört-basdır etmək hörmətli papaya və oturduğu məqama yaraşmır".

Türkiyə XİN-dən verilən açıqlamada isə bu hadisəyə mütləq "cavab veriləcəyi" qeyd olunur. Xarici işlər naziri Mövlud Çavuşoğlu papanın açıqlamasının "tarixi və hüquqi reallıqdan uzaq" olduğunu bildirib.

**Deputat Zahid Oruc deyir ki, papanın açıqlaması Türkiyəyə ağır zərbə olub. Ancaq deputat təklif edir ki, bu vəziyyətdə emosional reaksiyalar olmaz:** "Dünyada sayı 1 milyarddan çox olan katoliklərin lideri Roma papasının katoliklərin dini mərkəzi olan Vatikandan belə bir açıqlama ilə çıxış etməsinin çəkisi kifayət qədər ağırdır və bu, Türkiyəyə vurulan zərbədir. Buna görə də erməni mediası, dünyadakı erməni lobbi mərkəzləri çox böyük bir eyforiyadadırlar. Bunun Türkiyəyə vurulan ağır zərbə olduğunu, Türkiyə siyasi elitasının bu hadisədən isterikaya düşməsindən bəhs edirlər. Həmçinin papanın bu açıqlamasını dünyanın siyasi liderlərinə bir nümunə kimi təqdim etməyə çalışırlar. Nəzərə alaq ki, ABŞ-da daxil olmaqla, bir çox ölkələrdə uzun illər boyu erməni məsələsi üzərindən seçki kampaniyaları aparıb, yaxud da Türkiyəyə siyasi təzyiq vasitəsi kimi istifadə edilib. Bütün bunların fonunda açıq mətnlə papanın "soyqırım" ifadəsi işlətməsi xeyli düşündürücüdür və konkret addımlar atılmasını tələb edir. Biz avtomatik olaraq katoliklərin tarixi, onların dünya üzərində hakimiyyət uğrunda illər boyu həyata keçirdikləri vandalizm aktlarını xatırlatmaqla mübarizəyə erməni mövqeyindən yanaşmış olarıq. Yəni hazırkı dövrdə katolik


Zahid Oruc

aləmi ilə türk dünyasının toqquşdurulması erməni mənafelərinə daha çox xidmət edir".

**Z.Orucun fikrincə, Türkiyənin atdığı addımlar, səfirin geri çağırılması, Vatikandan izahat tələb edilməsi də çıxış yolu deyil. Eyni zamanda deputata görə, bu açıqlamalar ermənilərin maraqlarına da xidmət etmir:** "Düşünürəm ki, bu zaman biz əvvəlki bəlli yanaşmaların şahidi olacağıq. Mənim aləmimdə ən optimal mövqe tarixin bu cür dönəmləri ilə bağlı bu cür açıqlamaların sülhə və sabitliyə deyil, daha çox qarşıdurmaların güclənməsinə xidmət edəcəyini ortaya qoymaq lazımdır. Yəni Türkiyə erməni məsələsində bu cür qeyri-dəqiq mövqedən çıxış edənləri ona inandırmağa bacarmalıdır ki, bu hadisə növbəti türk-erməni qarşıdurmasını doğuracaq və yaxud da Türkiyənin Ermənistanla münasibətlərini yaxşılaşdırmayacaqdır. Hər hansı tarixi həqiqətlərin üzə çıxmasına deyil, ermənilərin bundan sonra da alət olmasına xidmət edəcək".

**Papanı və erməniləri dəstəkləyən digər açıqlamaların əslində erməni xalqının maraqlarına uyğun olmadığını qeyd edən deputatın fikrincə, indi sərt reaksiyalardan çox dialoq və danışıqlara köklənmək daha çox fayda verər:** "Ermənilərlə bu məsələni polemika mərhələsinə daşımaq lazımdır. Hər birimizə bəllidir ki, Ermənistandakı durum beynəlxalq aləmdə onların dayaqlarına təsir edib. Belə olan halda, müxtəlif dini və ya siyasi mərkəzlərdən verilən qərarlarla Türkiyə üzərinə getmək səmərə vermir. Ona görə də erməniləri ona inandırmaq lazımdır ki, bu cür ucuz qələbələrə sevinməklə öz gələcək faciələrinə impuls vermiş olurlar. Yəni hansısa qərarların tanıdılması və ondan sonra təzminat davaları və sair olmayacaq. Ermənilərin yeganə yolu Türkiyə və Azərbaycanla dil tapmaqdır. Bu mənada düşünürəm ki, Türkiyənin bu məsələdə katolik aləmi və eləcə də 24 aprel üçün hazırlaşan digər siyasi mərkəzlərlə danışıqları o istiqamətdə getməlidir ki, onlar həqiqətən də ermənilərin vəziyyətinə təsir göstərmək istəyir. Bu mərkəzlər həqiqətən də düşmənçiliyin aradan qaldırılmasında maraqlıdırlarsa, dialoq və müzakirələrə, ermənilərin iddialarından geri çəkilməsinə inandırmalıdırlar. Roma papasının açıqlaması bundan sonrakı dövrdə də ermənilərin itkilərə məruz qalmağına yönəlik çağırışdır. Bu, ermənilərin ağ günü üçün olan mövqe deyil. Azərbaycan tərəfindən də bu məsələyə təbii ki, bəlli bir çərçivədə siyasi münasibət olmalıdır".

❑ KƏNAN

# Xoşqədəm Hidayətqızının verilişi nə üçün bağlandı?

## ATV kanalının prezidenti "Səni axtarıram" verilişini tam qapatdı; Hidayətqızına qarşı "yeznə-qayın ittifaqı" işləyib?; xanım jurnalistə qarşı "qara piar" kampaniyasının arxasında duranlar məlum oldu...


Xoşqədəm Hidayətqızı

**ATV-də 5 ildir yayımlanan və müəllifi, aparıcısı tanınmış jurnalist Xoşqədəm Hidayətqızı olan "Səni axtarıram" layihəsi artıq bağlanıb. Musavat.com saytına daxil olan məlumatda kifayət qədər populyar olan verilişin nədən bağlandığı haqda maraqlı məsələlərdən söz açılır. ATV-dəki mənbədən əldə etdiyimiz xəbərdə deyilir ki, "Səni axtarıram" verilişinin bağlanması ATV-nin prezidenti Vüqar Qaradağlının Xoşqədəm Hidayətqızının bu veriliş səbəbindən reytinqinin artmasını, telekanal daxilində və cəmiyyətdə nüfuz qazanmasını həzm edə bilməməsi nəticəsində baş verib.**

Vüqar Qaradağlıda belə bir rəy formalaşıb ki, bu gedişlə Xoşqədəm Hidayətqızı ya özü onun yerini ələ keçirəcək, ya da yuxarıların təyinatı ilə bu hadisə baş verəcək. Mənbənin sözlərinə görə, Vüqar Qaradağlı bir ilə yaxındır Xoşqədəm Hidayətqızını ATV-dən uzaqlaşdırmaq qərarına gəlibmiş. Sadəcə, Hidayətqızının öz işində hansısa səhvə, qüsura yol verməməsi telekanal prezidentini çətin durum qarşısında qoyub. X.Hidayətqızına "çıx get" demək üçün heç bir əsas tapa bilməyən V.Qaradağlı 2014-cü ilin avqustunda aparıcıya "yuxarılar bundan sonra efirdə axtarış tipli verilişin olmasını istəmirlər, artıq "Səni axtarıram" verilişi efirə getməyəcək", - xəbərdarlığını edib. Ancaq Xoşqədəm Hidayətqızı real vəziyyətin necə olduğunu araşdıranda bəlli olub ki, əslində yuxarıların V.Qaradağlıya belə bir göstərişi olmayıb. Telekanal rəhbəri ona qarşı istifadə etmək üçün heç bir dəlil tapa bilmədiyindən yuxarıların adından istifadə edib. Beləliklə, X.Hidayətqızının çevikliyi Qaradağlının layihəni dayandırmaq, əslində X. Hidayətqızını ATV-dən uzaqlaşdırmaq planının avqust ayında baş tutmaması ilə nəticələnib. Lakin məhz o zamandan başlayaraq, X.Hidayətqızını gözdən salmağa hesablanan yazılar bir sıra saytlarda çıxmağa başlayıb. Bununla yanaşı, ATV-də "Səni axtarıram"ın kopyası təəssüratı yaradan, süjet xətti, hətta musiqi tərtibatı eyni olan bir neçə veriliş *(məsələn, "Öz aramızda")* yaradılır. Mənbənin dediyinə görə, V.Qaradağlı X.Hidayətqızının öz layihəsini prodakşına çevirəcəyindən də ehtiyat edirmiş. Mənbənin dediyinə görə, "Səni axtarıram" verilişi hər ay ATV-yə reklamdan 300 min manata yaxın vəsait gətirir. X. Hidayətqızı prodakşn yaradacağı halda bu vəsaitin böyük hissəsi telekanalın əlindən çıxa bilərdi. V.Qaradağlının X.Hidayətqızının prodakşn yaradacağından şübhələnməsinin əsaslı olub-olmadığına gəlincə, mənbənin dediyinə görə, bu şübhə üçün əsas görünmürdü. Sadəcə olaraq, ATV prezidenti X. Hidayətqızını həzm edə bilmədiyindən hər şeydən şübhələnirmiş.

Mənbə onu da bildirib ki, "Səni axtarıram"la eyni verilişlərin açılmasına X. Hidayətqızı dəfələrlə iradını, narazılığını ifadə edib, hətta heç bir yerli və xarici telekanalda belə əcaib təcrübənin olmadığını söyləyib. Amma vəziyyət heç cür dəyişməyib. 2015-ci ilin yanvarında V.Qaradağlı verilişin bağlanması məsələsini yenidən qaldırıb. X. Hidayətqızı bu dəfə ona deyib ki, 50 min insanın müraciət edib kömək gözlədiyi, yüzlərlə insanı öz doğmaları ilə qovuşduran bir verilişin qəfil bağlanması düzgün deyil. Bu addım həmin insanlara böyük zərbə olacaq. Beləliklə, yanvarda bir müddət də verilişin qalmasına nail olub. Aprelin əvvəlində V. Qaradağlı yenidən eyni məsələni gündəliyə gətirib və bu dəfə qəti şəkildə bildirib ki, "Səni axtarıram" dayanır. Aprelin 12-də efirə gedən veriliş sonuncu olub. X.Hidayətqızı məhz bundan sonra məcburiyyət qarşısında qalıb və ANS-dən gələn təkliflə razılaşıb. Mənbə bildirib ki, Hidayətqızının sonadək ATV-dən getmək niyyəti olmayıb, sadəcə, V.Qaradağlı faktiki olaraq onu getmək məcburiyyətində buraxıb. Mənbə onu da vurğulayıb ki, V.Qaradağlının qaynı Rauf Dadaşovun da vəziyyətin bu həddə gəlib çatmasında ciddi rolu olub. R.Dadaşov V.Qaradağlı "Lider" kanalında işlədiyi dövrlərdə də ona təsir göstərirmiş. Hətta deyilənlərə görə, yeznənin "Lider" rəhbərliyindən kənarlaşdırılmasında həm də qaynının oradakı fəaliyyəti rol oynayıbmış.

Mənbə daha bir ilginc detala da diqqət çəkərək qeyd edib ki, X.Hidayətqızı indi "Səni axtarıram" layihəsini V.Qaradağlıdan almaqda çətinlik çəkir. Baxmayaraq ki, bu layihənin müəllifinin X.Hidayətızı olduğu hər kəsə məlumdur və veriliş hələ V.Qaradağlı ATV-yə rəhbər gəlməzdən öncə efirdədir. Odur ki, X.Hidayətqızı ya verilişin müəllifi olduğunu hüquqi baxımdan sübuta yetirib getdiyi telekanalda eyni adlı verilişi eyni populyarlıqla yaşadacaq, ya da məzmun, mövzu, süjet xətti eynilə qalmaqla başqa adla efirə çıxarmalı olacaq.

Mənbəmizin sonda verdiyi informasiyada isə deyilir ki, X.Hidayətqızına qarşı bir sıra saytlarda başladılan qara piarın yaxın günlərdə daha da kəskinləşdiriləcəyi gözlənilir. Araşdırdıqda bəlli olur ki, həmin saytlar ATV rəhbərinə yaxın adamlarındır. Həmin saytlardan birində hətta dünən X.Hidayətqızı hədələnib. Həmin sayt ad çəkmədən ATV prezidentinə yaxın şəxslərdən birinə istinadən yazıb ki, Vüqar Qaradağlı Allah adamıdır, xeyirxah insandır, ancaq Xoşqədəm Hidayətqızından bərk inciyib, Allah eləməsin Vüqar müəllimin səbri daşsın, onda X.Hidayətqızı gözünə görünməsin.

Musavat.com-a verilən məlumatlarda deyilənlərə bağlı ATV-nin vitse-prezidenti Məqsəd Nura, ATV-nin departament rəhbəri və sözçüsü Vaqif Aydınoğluna zəng etsək də əlaqə saxlamaq mümkün olmayıb. V.Qaradağlının və ATV-dən istənilən rəsmi şəxsin mövqeyini dərc etməyə hazırıq.

**X.Hidayətqızı ilə əlaqə saxlasaq da qeyd olunanlar barədə heç bir fikir bildirmək istəmədiyini dedi. Aprelin 14-də gözlənilən mətbuat konfransında açıqlamalar verəcəyini söylədi.**

❑ Musavat.com

# "Ölmək istəyirəm..."

## Aşıq Ədalət "Yeni Müsavat"a danışdı: "Başa düşə bilmirəm o an mənə nə olmuşdu ki, efirdəcə söyüş söydüm"

**Bu günlərdə Aşıq Ədalətin efirdə söyüş söyməsi ölkə mətbuatdında ciddi rezonas doğurdu. Yayılan videodan görünürdü ki, ustad sənətkar ATV-də yayımlanan "Səbəbkar" verilişində rəqqasə Aytənin və həmkarı Namiqin ünvanına söyüş işlədib. Lakin sonradan Aşıq Ədalət söyüşlə bağlı olan videonun yalan olduğunu, adıçəkilən rəqqasəni isə ümumiyyətlə tanımadığını bildirib. Məsələ ilə bağlı Aşıq Ədalət "Yeni Müsavat"a maraqlı açıqlamalar verib. Belə ki, o, efirdə söyüş söydüyünü təsdiqləyib və bu hərkətinə görə özünü bağışlamadığını deyib:**


BAKU-ART

"Ay başınıza dönüm, ay vətən övladlarım, bu necə baş verdi, hələ də anlaya bilmirəm. Olayla bağlı videoya baxıram başa düşə bilmirəm ki, o an mənə nə olmuşdu ki, efirdəcə söyüş söydüm. Hər videoya baxanda dəhşətə gəlirəm. Etdiyim hərəkət doğru deyildi, bu heç cür mənim şəxsiyyətimə, adıma yaraşmır. Bir daha deyirəm, söyüş söydüyümü özümə bağışlaya bilmirəm, onda mənə nə olmuşdu, bax bunu da dərk etmirəm... Kim nə deyir desin, bu hərəkətim qəbuledilməzdir. Efir ictimai bir yerdir, tənqidi də gərək qaydasında deyəydim".

**Aşıq Ədalət efirdəki qalmaqala görə artıq yaşamaq istəmədiyini dilə gətirib:**

"Efirdəki olaydan sonra el-oba, xalq arasına çıxmaq istəmirəm. Utandığımdan mənə gələn zənglərə də cavab vermirəm. Ümumiyyətlə, yaşamaq istəmirəm, istəyirəm ki, həyatıma son qoyum... Bundan sonra el arasında mən necə gəzəcəm? İndi elə bir vəziyyətdəyəm ki, özüm özümdən zəhləm gedir".

**Ustad sənətkar kimi söydüyünü belə xatırlmadığını deyib:** "İş burasındadır ki, heç xatırlamıram ki, mən kimi və niyə söymüşəm. Mən o rəqqasəni də tanımıram. And olsun Allaha ki, mən Namiqi də söyməmişəm, heç vaxt onu təhqir etmək fikrində də olmamışam. Söyüşü Namiq niyə öz üstünə götürüb, bunu da anlamıram.

Dünən Namiq yanıma gəldi. Mənə hədiyyə də gətirmişdi. Olanları başa saldım. Mənim heç kimlə ədavətim yoxdur. Bu sənət mənim üçün müqəddəsdir və bu günəcən yalnız öz sənətimlə məşğul olmuşam".

**Ustad sənətkar bu barədə Mədəniyyət və Turizm Nazirliyinə səslənib. Onun sözlərinə görə aidiyyəti orqanlar saz sənətini ucuzlaşdıranlara qarşı vaxtında ciddi tədbir görməlidir:**

"Mütəmadi olaraq mənə İrandan, Türkiyədən zənglər, iradlar gəlir. İnsanlar mənə deyirlər ki, aşıq, niyə icazə verirsiz ki, bu sənət ucuzlaşsın, niyə öz münasibətinizi, tənqidinizi bildirmirsiz? Bu sənəti yaşatmaq, onun bayağılaşmasına qarşı gəlmək təkcə mənim və yaxud bir neçə qocaman aşığın üzərinə düşmür. Aidiyyəti orqanlar, o cümlədən Mədəniyyət və Turizm Nazirliyi işə qarışmalıdır. Yoxsa bu sənət getdikcə itib -batır, bayağılaşır. Xalqı ayıltmaq lazımdır ki, sənəti olmayan aşıqlara meydan verilməsin".

Qeyd edək ki, video mətbuatda, sosial şəbəkələrdə yayımlanandan sonra rəqqasə Aytən onun ünvanına söyüş işlətdiyi üçün Aşıq Ədaləti məhkəməyə verdiyini bildirmişdi. Rəqqasə həmçinin "Səbəbkar" verilişinin aparıcısı İradə İsakı və onun təhqir edilməsini gülüşlə qarşılayan qonaq qismində olan digər sənətçiləri qınayaraq tənqid etmişdi.

Qalmaqala səbəb olan verilişin aparıcısı İradə İsak isə efirdəki söyüş məsələsinə münasibət bildirərək olayı "ustad şapalağı" adlandırmışdı.

**Müğənni Əli Mirəliyev ustad aşığın hərəkətinə bəraət qazandırıb. Bu barədə musavat.com-a danışan müğənni olayı belə şərh edib:** "Dədə Aşıq Ədalət bu sənətdə öz sözünü demiş sənətkardır. Onun adi təhqiri belə bizə öyüd-nəsihətdir. Əgər o, məsələyə bu cür yanaşıbsa, deməli, belə də qəbul etməliyik. Görünür, ustad olanlara göz yuma bilməyib, səhv yolla addımlayan gənc nəsli doğru yola çəkmək istəyəndə əsəbləşib hisslərini cilovlaya bilməyib. Unutmaq olmaz ki, onun xeyli yaşı var, yaxından tanıyanlar da bilir ki, ustad xəstədir. Məsələni şişirdib onu incitmək olmaz".

**Əli Mirəliyev saz havası ilə göbək rəqsi oyanayan rəqqasəni də qınayıb:** "Təzə çıxıb, saz havası ilə göbək rəqsi oynamaq? Bu da yeni əməldir? TV rəhbərlərindən soruşmaq lazımdır, xeyir ola, bu göbək rəqslərini niyə təbliğ edirsiz? Rəqqasələr əndamlarını istədikləri kimi oynadıb pul qazanmağa çalışırlar. Qoy onlar gedib başqa havaya rəqs etsinlər. Onların nə həddinə ki, artıq sazımıza əl atırlar. Ululardan bizə əmanət olan bu sənəti bu qədər cılızlaşdırmaq kimə və nə üçün lazımdır?! Şou-biznes aləmi indi də saz sənətindən qaz vurub qazan doldurmaq istəyir. Bəzi biabırçı xalq artistləri, o cümlədən başda Aygün Kazımova olmaqla, onlar bizim mentalitetə zidd gələrək efirlərdə soyundular, bu da axırı. Artıq saz havası ilə göbək rəqsi oynayanlar meydan sulayır. Görək sonra nə icad olunacaq..."

Xatırladaq ki, bugünlərdə ATV-də yayımlanan "Səbəbkar" verilişində qonaqlar sırasında olan Aşıq Ədalət proqramda aşıq Namiqin sazda ifasının sədaları altında rəqqasə Aytənin göbək rəqsini görüb, bərk əsəbləşib. Elə o an əsəblərini cilovlaya bilməyən Aşıq Ədalət aşığın və rəqqasənin ünvanına təhqiramiz ifadələr işlədib. Proqramın digər iştirakçıları isə bunu gülüşlə qarşılamışdı.

❑ **Xalidə GƏRAY**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini

**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra

**Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

### Elan

**Professor Almaz Əliqızı və ailəsi, professor Vaqif Sultanlıya əzizi Fatmaxanım Abdulla qızının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

### Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

## Tovuzda məktəbli qətl törətdi

**Tovuz rayonunda iki məktəbli arasında baş verən mübahisə sonradan qətllə nəticələnib. Rayon polis şöbəsindən ANS PRESS-ə verilən məlumata görə, hadisə dünən axşam saatlarında qeydə alınıb.**

Rayon sakini 1997-ci il təvəllüdlü Nemət Rzayev həmkəndlisi, 1996-cı il təvəllüdlü İdris Paşayevlə mübahisə edib. Mübahisə zamanı N.Rzayev İ.Paşayevi bıçaqlayıb. Ağır halda xəstəxanaya çatdırılan yaralının həyatını xilas etmək mümkün olmayıb. Hadisəni törədən şəxs saxlanılıb. Faktla bağlı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Araşdırmalar davam edir.

## Qız qaçıranlar tutuldu

**Bərdə rayonunun Bəcirəvan kənd sakini Fəxrəddin Qarayev qızının oğurlanması barədə polis şöbəsinə şikayət ərzəsi ilə müraciət edib. ANS PRESS-in bölgə müxbirinin verdiyi məlumata görə, şikayət daxil olduqdan sonra əməliyyatçılar araşdırmaya başlayıb. Araşdırmalar zamanı məlum olub ki, kənd sakini 19 yaşlı Aysel Baratlı öz həmkəndliləri 41 yaşlı Seyfəddin Quliyev, Elnur Süleymanov, Amil və Zamiq Əliyevlər tərəfindən kənddəki gözəllik salonundan çıxarkən qaçırılıb. Onlar qızı zorla avtomobilə mindirib.**

Həmin şəxslər qızı Sabirabad rayonuna aparıblar. İşi araşdıran müstəntiq Çingiz Paşayevin ANS PRESS-in bölgə müxbirinə verdiyi məlumata görə, qızı ailə qurmaq məqsədilə qaçırıblar. "Ailə qurmaq məqsədilə qaçırıblar. Amma zor tətbiq etməklə, yəni zərəçəkmişin iradəsinə zidd olaraq, onun razılığı olmadan qabaqcadan qrup təşkil edərək onu qaçırıblar", - deyə Çingiz Paşayev bildirib. Qaçırılan Aysel artıq ailəsinə təhvil verilib. Evlənmək üçün bu addımı atdığını deyən Amil Əliyev isə indi törədiyi hadisədən peşmandı. "Bir səhvdi etmişəm də... Çox peşmanam", - deyə təqsirəndirilən Amil Əiyev bildirib. Qeyd edək ki, adam oğurluğunda təqsirləndirilən Amil Əliyevi 5 ildən 10 ilə qədər həbs cəzası gözləyir. Polis hazırda hadisədə digər şəxslərin iştirakının olub olmadığını araşdırır.



## «ƏlfəCİN» layihəsinin dəstəyi ilə "Nə? Harada? Nə zaman?" oyunu üzrə III Ağıl Oyunları Festivalı keçirilib

Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkətinin Xəzər İntellektual Gənclər Klubu ilə birgə həyata keçirdiyi «ƏlfəCİN» layihəsi və Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə Bakıda Azərbaycanın ən böyük intellektual layihələrindən biri olan - "Nə? Harada? Nə zaman?" oyunu üzrə III Ağıl Oyunları Festivalı keçirilib. Festivalda ölkənin 16 şəhərindən 66 komanda iştirak edib.

Festivalın ilk günündə "Nə? Harada? Nə zaman?" oyunu üzrə turnir təşkil olunub. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda birinci yeri "Vendetta", ikinci yeri "Diplomat", üçüncü yeri isə "Leviafan" komandası qazanıb. Qaliblər kubok, diplom, medal və hədiyyələrlə mükafatlandırıldılar.

Növbəti gün isə bu yarışın nəticələrinə görə Breyn Rinq tuniri təşkil olunub. Bu dəfə birinci yerə "Diplomat" komandası sahib çıxıb. Finalda məğlub olan "Vendetta" komandası isə ikinci yeri qazanıb. Üçüncü yer isə "Avalon" komandasına nəsib olub.

Xatırladaq ki, "Nə? Harada? Nə zaman?" intellektual oyunu üzrə III Ağıl Oyunları Festivalı final və iki seçim turundan ibarət olub. Çempionatda Bakı, Sumqayıt, Gəncə, Qazax, Mingəçevir, Şəki, Zaqatala, Salyan, Cəlilabad, Lənkəran, Naxçıvan, Quba, Şamaxı, Ağcabədi, İsmayıllı və Beyləqan şəhərlərindən komandalar iştirak ediblər.

"Bakcell"in dəstəyi ilə Xəzər İntellektual Gənclər Klubu tərəfindən həyata keçirilən «ƏlfəCİN» layihəsinin əsas məqsədləri intellektual oyunlar hərəkatını genişləndirmək, gənclərin asudə vaxtının səmərəli təşkilinə nail olmaq, onların intellektual potensialını üzə çıxarmaq, təhsildə yeni uğurlarına yol açmaqdır.

«ƏlfəCIN» layihəsində iştirak hamı üçün sərbəstdir. Layihə çərçivəsində yeniyetmə və gənclərin iştirakı ilə "Nə? Harada? Nə zaman?", Breyn Rinq, Xəmsə və Fərdi Oyun üzrə yarışlar təşkil olunur.

## Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda

* *Arı südü*
* *Mumiya*
* *Möhtəşəm ağ bal*
* *İssık-Kul balı*
* *Esparset balı*
* Çayek balı
* *Karkıra balı və s.*

**Xalisi yalnız bu ünvanda:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119

**Tel:** (012) 491-23-82; (051) 922-15-71

YENİ MÜSAVAT
N 78 (6106) 14 aprel 2015

# Televiziyalardakı ixtisarlara iki fərqli baxış

**Son vaxtlar televiziyalardakı vəziyyət mətbuatda, sosial şəbəkələrdə ciddi müzakirə mövzusuna çevrilib. Tamaşaçılar teleməkanların "palatka toyuna" çevrilməsinin və bir-birini təkrarlayan səviyyəsiz verilişlərin aradan qaldırılmasını tələb edir, narazılıqlarını bildirirdilər.**

Bu xüsusda son bir həftə ərzində ATV və AzTV-də baş verən ixtisarlar cəmiyyətdə müəyyən suallar doğurub. Kimi illərdir aparılan tənqidlərin bir nəticə verdiyini və qeyri-peşəkar aparıcıların qarşısını almaq üçün atılan addım olduğunu düşünür, kimisi isə bunu manatın devalvasiyası ilə əlaqələndirir. Bəs əslində vəziyyət necədir?

**Jurnalist, teletənqidçi Qulu Məhərrəmli** bildirdi ki, ATV-dəki addımlar televiziyaya yeni nəfəs gətirmək üçündür: "İxtisarların məqsədindən çox şey asılıdır. Yəni mən bu ixtisarları niyə aparıram. İxtisarların aparılmasında məqsəd verilişlərin strukturunda bir yenilənməyə, formatları dəyişməyə xidmət edirsə, bu, çox yaxşıdır. İkinci məqsəd isə müəyyən iqtisadi üstünlük əldə etmək ola bilər. Çünki işçilərə pul ödəmək lazımdır. Bundan başqa, kompensasiyalar, qonorarlar, studiyalar üçün dekorasiyaların qurulması və sairə var. Bu da şübhəsiz ki, maliyyə problemlərini həll etməklə olur. Mən əminəm ki, ATV-də aparılan ixtisarlar verilişlərin yenidən çeşidlənməsinə müsbət təsir edə bilər. Çünki bu dəqiqə bizdə ən çevik strukturu olan, xüsusən də əyləncəli verilişlər sayəsində müəyyən üstünlüklər göstərən televiziya kanalıdır. Ona görə də prosesləri izləyəndə bu qənaətə gəlirəm ki, əgər bir-birini təkrarlayan verilişlər ixtisara salınırsa, böyük maliyyələrdən imtina olunursa və bütün bunlar formatı cilalamağa xidmət edirsə, bunu təqdir etmək olar. Yoxsa başqa televiziyalardakı kimi kimisə qərəzlə işdən çıxardım, verilişini əlindən aldım kimi bir tendensiya hiss olunmur. Məndə belə bir qənaət var ki, ATV bu ixtisarlarını yeni nəfəs üçün hazırlayır və mən əminəm ki, onlar bunun öhdəsindən gələcək. ATV-nin yaradıcılıq mənasında imkanları çox genişdir". **Ekspertə görə, son vaxtlar ən diqqəti cəlb edən proqramlar iki televiziyada görünür:** "Bunun biri ANS, o biri isə ATV kanalıdır. Ona görə də əminəm ki, atılan addımlar hədər deyil və çox güman ki, düşünülmüş bir addımdır".



**Qulu Məhərrəmli:** "İxtisarlar teleməkana yeni nəfəs gətirmək üçündür"



**Zeynal Məmmədli:** "Bir neçə insan daha sözə baxımlı insanlarla əvəzlənəcək"

**Televiziya mütəxəssisi Zeynal Məmmədli isə əslində heç nəyin baş vermədiyini bildirdi:** "Biz bütövlükdə məsələlərin içində olmadığımız üçün bunu dəqiqliyi ilə qiymətləndirmək çox çətindir. Amma onu deyim ki, zaman-zaman bunlar olacaq. Ancaq bu ixtisarlar, məncə, o niyyətlə edilmir ki, televiziyalarda proqram dəyişikliyi, müxtəlifliyi yaradılsın və yaxud auditoriyanın istəkləri nəzərə alınsın. Bunun üçün reklam bazarı sərbəst, açıq olmalı idi. Reklam verənlər verilişə görə yox, baxanların sayına görə reklam verir. Baxanların fikri də ancaq sərbəst bazarlarda nəzərə alına bilər. Başqa cür nəzərə alınmayacaq. Baş verən dəyişikliklər də bunları əks etdirmədiyi üçün proqram siyasəti dəyişir kimi nəticələr çıxarmaq düzgün olmazdı. Sadəcə olaraq, Azərbaycan psixologiyasını nəzərə alsaq, bir neçə insan daha sözə baxımlı insanlarla əvəz olunacaq. Hər halda, bu cür güman etmək yanlış olmazdı".

Z.Məmmədli baş verən ixtisarların hazırkı iqtisadi vəziyyətlə heç bir əlaqəsi olmadığını bildirdi: "Məsələn, ixtisarlar edən kanal AzTV-nin büdcəsi artıq təsdiqlənib. Bu kanalın büdcəsindən kəsirlərin olması ilə bağlı heç nə eşitməmişik. Həm də orada olan aylıq orta əmək haqqı bütövlükdə onlarla əməkdaşlıq edənlərin, müqavilə ilə işləyən əməkdaşların əmək haqqı o biri televiziyalarda işləyənlərin əmək haqlarından xeyli aşağıdır. Bunun özü də çox ciddi sual doğurur ki, müqavilə əsasında işləyənlərin əmək haqqı Azərbaycan televiziyasında niyə aşağıdır. Ümumiyyətlə, büdcədən maliyyələşən telekanalların hansı problemi ola bilər? Bu kanalların büdcədən maliyyələri, reklam bazarından və sponsorlardan gəlirləri olur. Araşdırmaq lazımdır ki, bu pullar nə dərəcədə şəffaf xərclənir və yaxud da reklam pulları nə dərəcədə şəffaf göstərilir. Bunlar çox ciddi problemlərdir. Televiziya elə yer deyil ki, orada bir komanda daxilində daimi işləyəsən. Çox asanlıqla prodüser yeni komanda yarada bilər. Hər dəfə dəyişən veriliş yeni komanda deməkdir. Televiziya bu baxımdan çox çevik dəyişən bir struktur olmalıdır. Diqqətimizi Azərbaycan teleməkanı ona görə cəlb edir ki, burada həmişə durğunluqdur. Ona görə də birdən 5-10 adam işdən çıxarılanda düşünürük ki, nəsə baş verir. Amma əslində heç nə baş vermir".

❑ **Günel MANAFLI**

# "Bakıda binaların penoplastla üzlənməsinə son qoyulmalıdır"

## Ramil Osmanlı: "Avropa Oyunları zamanı bu cür hadisə baş versə, bu, ölkənin imici üçün böyük zərbə ola bilər"

**Bakının Xətai rayonunda Zığ şossesi 16 ünvanında 9 mərtəbəli yaşayış binasında baş verən yanğının səbəbləri ilə bağlı araşdırmalar davam edərkən, mətbuatda müxtəlif ehtimallar da səslənməkdədir.**

Bina sakinlərinin mətbuata verdiyi məlumata görə, yanğın yenidənqurma işlərində istifadə olunan materialların qalıqlarının toplandığı ərazidə başlayıb.

Belə ki, yenidənqurma işləri zamanı istifadə olunan materialların qalıqları binanın aşağısında, divarın dibində toplanıb. Ancaq işçilərin səhlənkarlığı ucbatından həmin tullantılar atılmayıb. Binanın qarşısına toplanan tezalışan material olan penoplast qalıqlarına söndürülməyən siqaretin atılmasının yanğının əsas səbəbi olduğu ehtimal olunur.

Qeyd edək ki, videogörüntülərdə də yanğının məhz yerdəki tullantılardan başladığı görünür. Sakinlərin sözlərinə görə, yanğın həmin tullantı materiallarından başlayıb və qısa müddətdə bütün binanı əhatə edib.

Müşahidələrimizə görə deyə bilərik ki, hazırda digər binaların qarşısında da həmin tullantı qalıqları var və bu, təhlükənin hələ də qaldığına işarədir.

Hadisədən sonra ərazidəki digər binalarda aparılan yenidənqurma işləri dayandırılıb. Bundan sonra tez alışan penoplast materiallarının binalarda istifadəsinin qadağan edilməsi də ehtimal edilir.

Yanan binanın təmiri ilə bağlı aparılan işlərə gəlincə, fasad örtüyü qaşınaraq yanğın qalıqlarından təmizlənib və binanın ətrafına yenidən dəmir konstruksiyalar quraşdırılıb.

Binanın yanmayan hissəsində yaşayış bərpa edilib, sakinlər mənzillərinə köçürülüb.

Evləri yanan 60 ailəyə isə 500 manat verilərək kirayə evlərə köçürülüb. Sakinlərin əşyalarının daşınması prosesi də başa çatıb.

Yanğının baş verməsinin səbəbi ilə bağlı hər hansı rəsmi açıqlama verilməyib. Hadisənin hansı istiqamətdə araşdırılacağı, oxşar fasadı olan digər binaların taleyinin necə olacağı ilə bağlı suallarımıza cavab almaq üçün Bakı Şəhər İcra Hakimiyyəti və Daxili İşlər Nazirliyi ilə əlaqə saxlamaq cəhdlərimiz alınmadı.



Ramil Osmanlı

**FHN mətbuat xidmətinin rəhbəri Oqtay Bayramov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, nazirliyin müvafiq qurumu araşdırmalar aparır və nəticələr cəmiyyətə açıqlanacaq:** "Bizim nazirliyin müvafiq komissiyası oradakı konstruksiyaların sağlamlığı, təhlükəsizlik tədbirləri ilə bağlı araşdırmalar aparıb və günün sonunda nəticələr mətbuata açıqlanacaq".

Ekspertlər isə həyəcan təbili çalaraq bildirirlər ki, bu binalar Bakıda partlamamış minalar qədər təhlükəlidir. Hər an bilərəkdən və ya təsadüfən baş verən ehtiyatsız hərəkətlərdən binalar yanaraq insanların həyatını təhlükəli vəziyyətə sala bilər.

**Yanğının baş verməsi ilə bağlı səslənən ehtimalları qiymətləndirən əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı binaların tezalışan materialla üzlənməsinə son qoyulmalı olduğunu vurğuladı:** "Yanğının qısa müddət ərzində alovlara bürünməsi və bütün mərtəbələrə yayılması onu sübut etdi ki, üzlük üçün istifadə olunan material kifayət qədər təhlükəli və yanmağa meyllidir. Məsələ burasındadır ki, bu təkcə Nobel prospektində deyil, Bakının əksər hissələrində bu cür materialla üzlənmiş binalar var. Nobel prospektində hazırda 20-yə yaxın bina bu materialla üzlənir. Yaxın müddət ərzində bu cür hadisələrin baş verməməsi üçün Bakı Şəhər İcra Hakimiyyəti və rayon icra hakimiyyətləri səviyyəsində məsələyə rəsmi münasibət bildirilməli və projenin qarşısı alınmalıdır. Artıq üzlənməsi başa çatdırılan binaların da üzlüyü qoparılmalı və yenidən keyfiyyətli, yanmağa, təbii proseslərə dözümlü olan üzlük daşlarla üzlənməlidir. Bakı şəhərinin bunun üçün kifayət qədər imkanları var.

Düşünürəm ki, burada bir məsuliyyətsizlik var və buna görə aidiyyəti orqanlar cavab verməlidir. Çünki istənilən halda vəsait dövlət büdcəsindən ayrılır və dövlət vəsaitlərinin belə səmərəsiz istifadəsi yolverilməzdir".

**Ekspert onu da bildirdi ki, bu məsələdə subyektiv məqamlar araşdırılmalıdır:** "Bu təklif kimdən gəlib, haradan gəlib, bu işi görənlər həmin materialın yanmağa davamlılığını niyə nəzərə almayıblar. Bu məsələlər araşdırılmalıdır. Mən düşünürəm ki, burada yəqin ki, maraqlı olan qurumlar var. Bu fakt da var ki, mühafizə gücləndirilməlidir. Qarşıdan Avropa Oyunları gəlir. Biz Bakının inkişafını dünyaya göstərmək üçün burada beynəlxalq səviyyəli tədbir təşkil edirik və həmin tədbir vaxtı Bakının mərkəzində 10 bina yanır. Bu, ölkənin imici üçün böyük zərbə olardı. Ona görə də bu məsələlər mütləq şəkildə nəzərə alınmalıdır. Bir fakt da var ki, kimlərsə ki , bu binaların üzlük materialla üzlənməsində maraqlı olublar, onlar da yenidən pul qazanmaq məqsədilə bu işləri təşkil edə bilərlər. Aidiyyəti qurumlar bu işlə ciddi məşğul olmalıdır. Dövlət büdcəsinə minlərlə manat ziyan dəyməsinin, sakinlərin ziyan çəkməsinin qarşısı alınmalıdır".

**Baş verən hadisəyə müxalifət liderləri də səssiz qalmadılar. Onlar "Yeni Müsavat"a açıqlamalarında hadisənin dərhal araşdırılmasının vacibliyindən danışdılar.**

**Ümid Partiyasının sədri İqbal Ağazadə qeyd etdi ki, hadisə baş verən gün orada olub:** "Mən hadisə günü orada idim. Ancaq heç kimin işinə müdaxilə etmək istəmədim. Çünki həmin gün vəziyyət olduqca kritik idi. Sonrakı günlərdə baş çəkməmişəm. Mənə də bununla bağlı hər hansı müraciət olmayıb. Mən Xətai rayonundan deputat olsam da, mənim ərazim ora deyil. Ancaq yanğın baş verən gün orada idim".

**ADP sədri Sərdar Cəlaloğlu da baş verən yanğının araşdırılması və səbəblərinin aradan qaldırılması ilə bağlı bəyanat yaydıqlarını bildirib:** "Bu hadisə ilə bağlı bu gün (dünən-red.) partiyamızın idarə heyətində mövqe bildirmişik. Təkcə Xətai rayonunda yox, Bakının müxtəlif yerlərində binalar bu cür tezalışan maddələrdən hazırlanmış üzlüklərlə üzlənib. Bu binanın yanması göstərir ki, Bakıda belə bədbəxt hadisələrin baş verməsi üçün çox ciddi əsaslar var. Ona görə də biz bəyanat yaydıq ki, təcili olaraq binaların bu cür təhlükəli materiallarla üzlənməsi dayandırılsın, dəyişdirilsin, ziyan çəkən vətəndaşlara da qanun çərçivəsində kompensasiya ödənilsin. Ancaq bizim oraya getməyimizin bir mənası yoxdur".

**KXCP sədri Mirmahmud Miralioğlu bildirib ki, hadisədən təəssüf hissi keçirir:** "Ölkədə baş verən fövqəladə hadisələr var və bununla aidiyyəti, qurumlar məşğul olurlar. Biz bu hadisəni təəssüf hissi ilə qarşılayırıq. Ancaq baş verən hadisələrlə bizim maraqlanmağımıza gəlincə, biz sadəcə müraciət olanda maraqlanırıq. Mən bölgələrdə idim, bu gün (dünən-red.) şəhərə qayıtmışam. Ancaq hadisədən xəbərdaram. Biz vətəndaşlarımızın hüquqlarını qorumağa borcluyuq. Baş verənlərin mütləq qarşısı alınmalıdır".

❑ **Nərgiz LİFTİYEVA**

# YENİ MÜSAVAT

## Son səhifə

N 78 (6106) 14 aprel 2015




## Arvadına 1 illik yemək hazırladı

Çində ilin böyük hissəsini evindən və həyat yoldaşından uzaqda keçirən bir əsgərin qeyri-adi jesti günün ən önəmli mövzularından birinə çevrilib. Tibetdəki işinə görə ildə yalnız bir neçə dəfə evinə başa çəkən Yin Yunfeng müəllimə olaraq çalışan həyat yoldaşının yaxşı yeməsi üçün tam bir illik yeməyini hazırlayıb. Arvadının qohumlarını ziyarətə getməsini fürsət bilən Yin 1 həftə ərzində dayanmadan yemək hazırlayıb. Evdəki soyuducunu də dərin dondurucuları yeməklərlə dolduran oğlan şirniyyat və salatlar hazırlamağı da unutmayıb. Evə gəldiyi zaman şoka düşən qadın yemək şəkillərini sosial mediada paylaşıb. Zhao adlı qadın "Çinin ən şanslı qadını" seçilib.



## Şahzadə üçün qızıl toy

Bruney Kralı Hassanal Bolkiah və Kraliça Salihan ən kiçik oğlu Şahzadə Abdulməlikə 11 gün, 11 gecə davam edən toy çaldırıb. Dayangku Rabiyatül Adeviye adlı qadınla evləndirilən Şahzadənin toyu 1788 otaqlı İstana Nurul İman Sarayında olub. 31 yaşlı Şahzadə və 22 yaşlı gəlin toy zamanı qızıldan hazırlanmış taxtda oturublar. Bəy və gəlin ipəkdən hazırlanmış, almazlarla bəzədilmiş toy paltarları geyiniblər. Başına almazlarla bəzədilmiş qızıl tac qoyan və dəyərli zinət əşyaları taxan gəlinin əlindəki buketdə güllər əvəzinə qiymətli daş-qaşlar olub.

# Milyonda bir görünən əkizlər

İngiltərənin Kingsvord bölgəsində yaşayan Rebkka Horton və Kurtiz Martin cütlüyünün əkiz uşaqları dünyada nadir hallarda görünən bir özəlliyə sahibdir. Kendall və Baylee adları verilən əkiz uşaqlar bir-birindən tamamən zidd xarici görünüşə sahibdirlər. Uşaqlardan qız olanı Kandella eynən atası kimi əsmər, qara gözlü, Baylee isə anası kimi sarışın və mavi gözlüdür. Dünyada milyonda bir rast gəlinən belə hallarda əkiz uşaqların eyni fiziki göstəricilərinin olmaması hər kəsi heyrətləndirir.



## Ölmüş saydığı qızını 50 il sonra tapdı



Amerikada yaşayan Zella Cakson Pris 50 il əvvəl, 26 yaşında ikən Melanie adlı qızını dünyaya gətirib. Həkimlər doğuş zaman ona ilkin olaraq uşağın öldüyünü deyiblər. Lakin daha sonra həkimlər uşağı xilas etməyi bacarıblar. Lakin xəstəxanada xəstə çox olduğundan heç kəs qadına uşağın yaşadığı haqda məlumat verməyib. Zella xəstəxanadan çıxdıqdan sonra uşaq başqa bir ailəyə övladlığa verilib. Uşağı övladlığa götürən ailə uzun illər davam edən araşdırmalardan sonra onun gerçək ailəsini tapıblar. Zella 50 il əvvəl öldüyü deyilən qızını gördüyü zaman göz yaşlarına boğulub.

## 65 yaşlı qadın dördəmə hamilədir

Tibb aləmi daha bir qeyri-adi hadisəyə şahidlik etməyə hazırlaşır. 65 yaşlı alman qadın hamilədir. Qadın dördəm uşaq gözləyir. Doğuşdan sonra Annerqet Raunqk ən yaşlı dördəm anası kimi tarixə düşəcək.



Annaqretin son hamiləliyi təsadüfən olub. Belə ki, ona EKO müalicəsi tətbiq edilib. Yəni qadın donor sperması və yumurtalıqları ilə hamilə qalıb. USM müayinəsində körpələrin dördəm olacağını görəndə həkimlər ona döllərin sayını azaltmağı təklif ediblər. Lakin qadın buna razı olmayıb. Məktəbdə müəllimə işləyən qadının dördəmlərdən başqa 13 uşağı da var. Alman qadının ən kiçik övladı 10 il öncə - 55 yaşında doğulub. 7 nəvəsi olan qadının ən böyük uşağının isə 44 yaşı var. Uşaqlar 5 fərqli atadan dünyaya gəliblər.

Xatırladaq ki, ana olan ən yaşlı qadının 70 yaşı olub. Bu, hindistanlı Omkari Panvardır.



## "Hörümçək adam" 75 mərtəbəli binaya qalxdı

"Hörümçək adam" kimi tanınan fransalı alpinist Alen Rober daha bir binanı fəth edib. O, Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərindəki 75 mərtəbəli "Kayan Qülləsi"nə dırmanıb. 52 yaşlı alpinist 307 metr hündürlüyündə olan göydələnə 70 dəqiqəyə çıxıb. Hər zaman olduğu kimi bu dəfə də alpinist heç bir sığorta olmadan, yalnız tabaşir və yapışqan maddənin köməkliyi ilə binanın üzərində hərəkət edib.

Hündürmərtəbəli binalara heç bir qoruyucu vasitə olmadan çıxan Alen Rober 2011-ci ildə Dubayda dünyanın ən hündür binasına dırmanmışdı. Həmin vaxt "Hörümçək adam" 828 metrlik "Bürc əl-Xəlifə" göydələnini 6 saata fəth edə bilmişdi.




QOÇ - Ailə-sevgi münasibətlərində müəyyən qanqaraçılığı müşahidə olunacaq. Bunun qarşısını almaq üçün proqnozunuzu oxuyan kimi səbr nümayiş etdirməli, mübahisələrdən uzaq olmalısınız.

BUĞA - Günün ümumi mənzərəsi qənaətbəxş olsa da, bəzi vacib məsələlərdə həlledici qərarı özünüz çıxarmalısınız. Xüsusən də günün ikinci yarısında uzaqgörənliyə ehtiyacınız olacaq.

ƏKİZLƏR - Bəxtinizə inana bilərsiniz. Belə ki, çoxsaylı məqamlarda olduğu kimi, bu gün də hansısa probleminiz gözləmədiyiniz halda həll olunacaq. Sevginizi məhdudlaşdırmayın.

XƏRÇƏNG - Təxminən saat 14-ə qədər nəqliyyatla, eləcə də təhlükəli cihazlarla ehtiyatlı davranın ki, xəsarət almayasınız. Nahardan sonra isə sevindirici məqamlar mümkündür.

ŞİR - Bütün diqqətinizi ailə məsələlərinə, eləcə də tərəf-müqabilinizlə münasibətlərə yönəldin. Hər hansı mübahisə başağrınıza səbəb ola bilər. Yersiz hücumlarınızı dondurun.

QIZ - Şəxsi işlərinizdə əsaslı dönüş gözlənilir. Hətta ətraf mühitin ürəyinizcə olmaması da sizə mane olmayacaq. Aldığınız təkliflərdən imtina etməyə tələsməyin. Götür-qoy edin.

TƏRƏZİ - Özünüzə çox da güvənməyin. Çünki mövcud durumunuz qürrələnməyə heç bir əsas vermir. Yaxşı olar ki, sadəlik nümayiş etdirəsiniz. Yaxınlarınızın çətinliyinə biganə yanaşmayın.

ƏQRƏB - Ulduzlar digər məsələlər haqqında susa da, fəaliyyət sahəsində sizi böyük müvəffəqiyyətlər gözlədiyini bəyan edir. Odur ki, bu istiqamətdə istənilən təklifi qəbul etməyə dəyər.

OXATAN - Təzə xəbərlər yolunuzu gözləyir. Hətta yeni iş təklifləri alacağınız da mümkündür. Odur ki, işgüzar əlaqələrinizi dərinləşdirməlisiniz. Uzaq səfərləri hələlik təxirə salın.

OĞLAQ - Maddi durumunuz müəyyən qədər dirçələ bilər. Bu şərtlə ki, büdcənizə işıq salan bütün instansiyalara üz tutasınız. Gün ərzində oturaq fəaliyyətdən uzaq olmanız məsləhətdir.

SUTÖKƏN - İxtiyarınızda olan bu təqvim qarşınızda böyük öhdəliklər qoyacaq. Yaxın həftə üçün görəcəyiniz işləri konkretləşdirin. Çalışın ki, çıxardığınız qərarlar ədalət prinsiplərinə söykənsin.

BALIQLAR - Bu füsunkar günlə layiqincə davransanız, yaxın perspektivlərinizdə parlaqlıq qazana bilərsiniz. Əsas vəzifəniz səhhətinizi qorumaqdan ibarət olmalıdır. Mübahisələrdən yayının.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Xərçəngə qarşı manqal müalicəsi




Çində qan xərçəngi olan Jia Binhui maddi imkansızlığa görə müalicə məsrəflərini qarşılaya bilmədiyindən qəribə yola əl atıb. 25 yaşlı Binhui bir ocaq yandırır və ocaqdan yarım metr yüksəklikdən olan manqalın üzərinə uzanır. Kasıb kəndli Binhui həkimlərin ona 42 dərəcədə xərçəng hüceyrələrinin məhv olduğunu deməsindən sonra bu yola əl atıb. Xəstə oğlan suyu 42 dərəcədə saxlamaq çətin olduğundan çimə bilmədiyini, ocaq üzərində uzandığını deyir.

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300